Səadət Təhmirazqızı

ŞƏKİDƏ İFAÇILIQ SƏNƏTİ

Səadət Təhmirazqızı

ŞƏKİDƏ İFAÇILIQ SƏNƏTİ

105032

Nərgiz NƏŞRİYYATI
BAKI-2016

Azərbaycan Milli
Kitabxanası

Ш313(2А)-8

REDAKTORLAR: ***RAMİZ ZÖHRABOV***
Xalq artisti, sənətşünaslıq elmlər doktoru, professor

FİDAN NƏSİROVA
Musiqişünas,
Ü.Hacıbəyli adına BMA-nın elmi işçisi

MƏSLƏHƏTÇİLƏR: ***VAQİF KƏRİMOV***
Əməkdar mədəniyyət işçisi

MİRVARİ ZEYNALOVA
Şəki şəhər Mədəniyyət və Turizm şöbəsinin müdiri

Səadət Təhmirazqızı "Şəkidə ifaçılıq sənəti". Bakı, ***"Nərgiz"*** nəşriyyatı, 2016, - 224 səh.

Kitabda qədim tarixi olan Şəkinin ifaçılıq sənətindən bəhs olunur. Belə ki, Azərbaycan musiqi tarixində adı hörmətlə çəkilən bir çox bəstəkar, musiqişunas, xanəndə və instrumental ifaçılar Şəkidə doğulub boya-başa çatıblar. Onların Azərbaycan milli və profesional musiqisinin inkişafında mühim xidmətləri olub. Kitabda həmin sənətkarların əksəriyyəti haqqında geniş məlumat verilir.

$T\frac{742000000}{079}888-2016$ © «Nərgiz», 2016

ÖN SÖZ

Qədim diyarımız olan Şəki tarixin bütün dövrlərində elm, maarif, sənət məbədgahı olmuşdur. Azərbaycan ədəbiyyatı və incəsənəti tarixində özünəməxsus layiqli yer tutan ən görkəmli sənətkarların bir çoxu soykökü ilə Şəki torpağına bağlıdır.

Milli dramaturgiyamızın banisi, maarifçi-demokrat Mirzə Fətəli Axundov, görkəmli pedaqoq və yazıçı Rəşidbəy Əfəndiyev, Azərbaycan ədəbiyyaştşünaslığının inkişafında böyük xidmətləri olan Salman Mümtaz, Azərbaycanın xalq yazıçısı, XX əsr komediyasının banisi dramaturq Sabit Rəhman, Dövlət mükafatı laureatı, xalq şairi, "İstiqlal" ordenli Bəxtiyar Vahabzadə, Dövlət mükafatı laureatı, xalq rəssamı, heykəltəraş Fuad Əbdürrəhmanov, xalq artisti İsmayıl Osmanlı, Azərbaycan Dövlət mükafatı laureatı, xalq artisti Lütfəli Abdullayev, xalq artisti, kinorejissor Rasim Ocaqov, Şərqdə qadınlar arasında ilk opera yazan bəstəkar, Azərbaycan Respublikasının xalq artisti, "Şöhrət" ordenli Şəfiqə Axundova, xalq artisti, "Şöhrət" ordenli, bəstəkar Emin Sabitoğlu, xalq artisti, Dövlət mükafatı laureatı, bəstəkar Cövdət Hacıyev, əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev, görkəmli muğam ustası Ələsgər Abdullayev, xalq musiqisinin nəzəriyyəsi sahəsində Ü.Hacıbəylinin davamçısı, Azərbaycan xalq musiqisi nəzəriyyəsinin əsaslarının bütöv bir sistemini yaradan professor Məmmədsaleh İsmayılov, Opera və Balet Teatrının solisti Əliövsət Sadıqov, görkəmli alim, professor Şirməmməd Hüseynov, ictimai xadim Məmmədsadıq Əfəndiyev, sənətşünaslıq elmlər doktoru, əməkdar incəsənət xadimi, professor İmruz Əfəndiyeva, sənətşünaslıq elmlər doktoru, professor Fərəh Əliyeva və başqa bu kimi incəsənət xadimləri Şəkinin yetirmələridirlər. Sözsüz ki, bu gün onların davamçıları da yetişməkdədir.

Sıx meşəli dağları, lələli dərələri, dadlı-duzlu lətifələri, məzəli deyimləri, maraqlı milli ənənələri ilə dolu zəngin tarixə malik

füsunkar Şəki, həm də özünəməxsus dialekti və şirin ləhcəsi ilə fərqlənir. Xüsusi zarafat etmək istedada malik şəxslərin yaratdığı lətifələr isə bütün Azərbaycanı dolaşır.

Təbiət öz gözəlliklərini Azərbaycanın bu qədim guşəsindən əsirgəməmişdir.

Şair Bəxtiyar Vahabzadə öz doğma diyarının gözəlliklərini belə ifadə edir:

Elə bil yenicə sığal vurmusan,
Sanki gül bağısan, çiçəksən Şəki.

Qeyri-adi əsrarəngiz təbiəti olan Şəki bütün səyyahları heyran etmişdir. Fransız yazıçısı Aleksandr Düma Şəkidə olarkən, buradakı dağlara, bulaqlara, şəhərdə küçənin ortası ilə axan çınqıllı çaya, onun şairanə mənzərəsinə vurğun qaldığını gizlətməmişdi. O, "Qafqaz səfəri"ndə yazır: "Bərqərar olduğu Qafqaz sıra dağlarının dilbər bir guşəsinə qısılan Nuxa, onu yaşıllığa qərq edən, qoynunda gizlədən ağacların arasından güclə görünür".

Nuxanı tərk edərkən belə Aleksandr Düma bu mənzərələrə aşiq olduğunu vəcdə gələrək bu sözlərlə ifadə etmişdi: "Biz Nuxadan uzaqlaşdıqca onun görünüşü daha da gözəlləşir və bütün fusunkarlığı ilə gözümüzün qabağında canlanırdı".

Rus yazıçısı Lev Tolstoy "Hacı Murad" əsərində Şəki mənzərələrini, onun gözəl bitkilər aləmini, xoş təravətli axşamlarını özünəməxsus bir tərzdə qələmə almışdır.

Aleksandr Sergeyeviç Puşkinin dostu rus süvari generalı M.M.Rayevski isə Şəkini "Yüksək dərəcəli Baxçasaray" adlandırmışdı.

Türk yazıçısı Nazim Hikmət isə Şəkinin mədəniyyət abidələrinə heyran qalaraq demişdir: "Əgər Azərbaycanın başqa tikililəri olmasaydı, bircə Şəki "Xan sarayı"nı dünyaya göstərmək bəs edərdi".

Şəkinin dəniz səviyyəsindən 650-700 metr aşağıda yerləşən hissəsi subtropik, yuxarı hissəsi isə mülayim qurşağa düşür. Çox məhsuldar torpaqlara malik olan Şəkidə nadir bitkilər, ağaclar bitir. Təbii mənzərəsi və yaşıllığı ilə fərqlənən Şəkini indi "İpək Şəkisi - çiçək Şəkisi" adlandırırlar.

Gözəl təbii landşaft şəhərə xüsusi memarlıq görünüşü vermək üçün geniş imkanlar yaradır.

Şəki Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Onun tarixi, ərazisinin sakinləri minilliklər ərzində yaradılmış zəngin mədəni irs qoyub getmişlər.

Tarixçi Mahmud İsmayılov yazır: "Müasir Şəkinin (şəhərin) əsası b.e.ə VII əsrdə təxminən 2700 il bundan əvvəl saklar tərəfindən qoyulmuşdur." Bu yer vaxtı ilə Sakasena adlanırdı.

Niyazi Rzayev "Şəki və Nuxanın mənşəyi haqqında" məqaləsində belə bir açıqlama verir: "Tarixi mənbələrdən məlum olduğuna görə, Şəki sözü eramızdan əvvəl VIII əsrdə Azərbaycanın şimal-qərb rayonlarına soxulan skiflərin adlandırdığı "Saki" - "Şəki", yaxud "Şake"dən əmələ gəlmişdir." Antik müəlliflər bu şəhəri Sakaşen adı ilə təqdim edirlər. Bu söz müxtəlifdilli mənbələrin tarixi leksikonunda səs dəyişməsinə uğrayaraq, bizə "Şəki" formasında gəlib çatmışdır. Antik dövrün böyük tarixçilərdən biri olan Heredotun fikrincə, Şimali Qafqazda yaşayan skiflər - saklar e.ə. VII əsrdə Zaqafqaziyaya və kiçik Asiyaya hücum edərək, həmin ərazidə "Skif çarlığı"nı yaratmışlar. Bu hadisədən bəhs edən Strabon isə skifləri saklar adlandıraraq belə yazır: "Saklar Zaqafqaziyada ən yaxşı torpaqları tutdular və bu yerləri öz adlarına uyğun Sakasena adlandırdılar."

K.V.Trever I minilliyin sonunda alban ittifaqını yaratmış qəbilələrdən bəhs edərkən sak qəbilələri nəsillərinin və Sakasenanın da adını çəkir və qeyd edir ki, saklar Şəki ərazisində məskunlaşdılar. O, eyni zamanda həmin rayonun coğrafi koordinatlarını da verir ki, bunlar da indiki Şəki rayonunun yerləşdiyi əraziyə uyğun gəlir.

Sak tayfaları ilə bağlı Q.Qeybullayev "Azərbaycanlıların etnik tarixinə dair" tədqiqat işində bir qədər başqa səpkidə açıqlamalar verir. Onları Orta Asiya və Qazaxıstan köklü türkmənmənşəli tayfalar adlandırır və Şimali Azərbaycan ərazisində məskunlaşdıqlarını qeyd edir. Onlar Sakasin adlı yerdə yaşayırdılar. Sonra tədqiqatçı Sakasin adlı bir neçə yaşayış məskəninin olması fərziyyəsini irəli sürür. (Türkiyənin şərqində, Xəzərin cənub-qərbi, indiki Gəncəbasar bölgəsində).

Nəhayət, tədqiqatçı belə bir fikrə də istinad edərək göstərir ki: "Asur mənbələrində e.ə.VII əsrdə Manna ərazisində Saka adlı bir əyalət qeyd olunur." Lakin bu ərazini Gəncə ilə bağlayır. Bizim fikrimizcə, tədqiqatçının fikirlərindən belə bir nəticəyə gəlmək olar ki, saklar, ümumiyyətlə, qədim azərbaycanlıların etnogenezində mühüm rolu olan tayfa kimi müxtəlif qollara malik idilər və hər yana səpələnmişdilər. Buna görə də saklarla bağlı bir neçə yaşayış yerinin adları mövcuddur.

Beləliklə, əksər mənbələrdə "Şəki" sözü vaxtı ilə burada məskən salmış sak (Saka etnonimi) tayfaları ilə əlaqədardır. Zaman keçdikcə "Saka" sözü fonetik qanunauyğunluqlar əsasında "Şaka-şake-şaki-şəki" şəklində dəyişikliklərə uğramışdır. Orta əsrlərə dair mənbələrdə Şəkinin adı Şəkə, Şaki, Şaka, Şakki, Şakke, Şekən, Şakkan, Şəkin kimi müxtəlif şəkillərdə işlənilir.

Çox maraqlı bir məlumatı isə "Azərbaycan tarixi" dərsliyinin (I cild-ən qədim dövrdən b.e. III əsrinə qədər. B, 1998) müəllifləri verir. Buradakı mülahizəyə əsasən qədim yunan astronomu və coğrafiyaşünas Ptolomeyin xəritəsində lokallaşdırılan yaşayış məntəqəsi Osika - müasir Şəkidir. (bax: həmin dərslikdə, səh. 366-367).

Bir çox tarixçilərin (K.V.Trever, A.Krımski) qeyd etdiyinə görə, Şəki Albaniya çarlığının mühüm şəhərlərindən biri olmuşdur.

Monsey Kalankatuklu "Albaniya tarixi"ndə göstərir ki, I-VII əsrlərdə Albaniya şimalda Qafqaz sıra dağlarından cənubda Araz çayına, Qərbdə İberiyadan şərqdə Xəzər dənizinədək geniş bir ərazini tutmuşdur. Təbii sərhədlər bu ərazini çoxsaylı bölgələrə ayırırdı. İnzibati-ərazi baxımından Albaniya vilayətlərə - qavarlara və ərazilərə - nəhənglərə bölünürdü. Albaniya Kürün sol sahilini tutmuş ərazisi inzibati baxımdan qavarlara - vilayətlərə bölünürdü. Sol sahil Albaniyası 11 vilayətdən ibarət idi. Burada ərazi və siyasi baxımdan əhəmiyyətli Qəbələ, Şəki, Kanbisena və Eceri idi. Şəki Albaniyanın şimal-qərbində, Qafqaz sıra dağlarının ətəyində, Qəbələ vilayətinin şimal-qərbində yerləşirdi.

Tədqiqatçıların qeyd etdiyinə görə, antik dövrdə Ay-Selena ilahəsinin məbədi Şəki vilayətində yerləşirdi.

Tarixdən mövcuddur ki, 1772-ci ildə Kiş çayının daşması nəticəsində qədim Şəki şəhəri tamamilə məhv olmuşdur, şəhər əhalisinin bir qismi indiki şəhərin yerləşdiyi ərazidə məskən salmışdır. "Kavkaz" qəzeti yazırdı: "O vaxtdan nuxalılar dərənin şərqində olan dağ ətəklərinə köçdülər və indiki Nuxanı saldılar. ("Kavkaz" qəzeti, 1846-cı il 15 iyun).

Şəki və Nuxa ayrı-ayrı coğrafi koordinatlarda yerləşən yaşayış məskənləri olmuşdur. Bu haqda müxtəlif tarixi faktlar Kərim ağa Fatehin "Şəki xanlarının müxtəsər tarixi" və Hacı Seyid Əbdülhəmidin "Şəki xanları və onların nəsilləri" əsərlərində açıqlanır.

Şəki və Nuxa lap qədim vaxtlardan müxtəlif yerlərdə yerləşmişdir. Şəki vilayətinə daxil olan Nuxa öz ilk yerini dəyişməmişdir. Şəki şəhərinin isə Kiş çayının Əyriçaya töküldüyü yerdə, Alazan-Həfitəran dağarası düzənliyində, indiki Qaradağlı kəndi rayonundakı düzənlikdə Nuxanın cənub-qərbində yerləşə bilməsini güman etmək olar.

Tarixi mənbələrdən məlumdur ki, Nuxa Azərbaycanın ən qədim yaşayış məntəqələrindən olmuşdur. 1772-ci ildə Kiş çayının daşması nəticəsində güclü sel Şəkini dağıtdıqdan sonra Şəkinin əhalisi indiki

əraziyə - Nuxaya köçürülür. Sel Şəkini dağıdana qədər isə əhali Kiş çayı vadisində yaşayırdı.

XVIII əsrin II yarısından 1968-ci ilə qədər Şəki Nuxa adlanırdı. 1968-ci ildə isə yenidən Şəkiyə öz adı qaytarıldı.

1840-cı il inzibati islahatı ilə bütün əyalətə Nuxa qəzası, qəzanın mərkəzinə isə Nuxa adı verilir. Lakin bu o demək deyil ki, Nuxa adının mənşəyi yalnız XIX əsrlə bağlıdır, Nuxa hələ X əsrdə məlum idi.

Çox maraqlıdır ki, bəzi tədqiqatçılar Nuxa şəhərini Ptolomeyin (II əsr) "Coğrafi təlimnamə" əsərində adı çəkilən alban şəhəri Niqa ilə eyniləşdirirlər. Lakin bu, bir qədər mübahisəli məsələdir.

Hətta Azərbaycan tarixçisi Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində Nuxa şəhərini Naxiya və ya Nağiya adlı qədim Şirvan şəhəri ilə əlaqələndirir.

Əlbəttə, belə bir qədim diyarın tarixi barədə kifayət qədər yazılı mənbələr var. Biz "Şəkinin musiqi folkloru" adlı tədqiqat işi üzərində işləyərkən bir xeyli tarixi faktlara istinad etmişik. Topladığımız məlumatları eyni adlı "Şəkinin musiqi folkloru" monoqrafiyasına da daxil etmişik. Bu kitabda isə əsas məqsədimiz Şəkinin ifaçılıq sənətindən bəhs etməkdir. Çünki belə bir qədim tarixi olan zəngin diyarın təbii ki, sənətkarlığı da özünəməxsusdur.

Ümumiyyətlə, Şəkidə sənətkarlıq çox inkişaf etmişdir. Tarixə nəzər salanda 18-ci əsri Şəkinin xüsusi inkişaf dövrü hesab etmək olar. Ən qədim memarlıq abidələrinin tikilməsi, müxtəlif sənət növlərinin yaranıb formalaşması məhz bu əsrə təsadüf edir. 18-ci əsrin nadir incisi kimi Şəki Xan Sarayı buna əyani misaldır. Sənətkarlığa gəlincə isə Şəkidə zərgərlik, ipəkçilik, memarlıq, şəbəkə, dabbaqlıq və bu kimi sənət növləri movcud olub.

Təbii ki, bu məişət sənətkarlığı ilə yanaşı insanların mənəvi dünyasına sirayət edən sənətkarlar da az olmayıb. Bu mənada ilk olaraq Şəki poeziyasının nümayəndələrindən Zari təxəllüslü şair, şair

Nəbi, XIX əsrin II yarısı və XX əsrin əvvəllərində yaşayan şair İsmayıl Nakam (1841-1904), onunla təxminən bir dövrə təsadüf edən Molla Cümə (1854-1920) və bu kimi görkəmli simaların adını çəkə bilərik. Təbii ki, poeziyanın olduğu yerdə musiqinin mövcudluğu labüddür. Şəkinin musiqi həyatı xalqın mədəniyyətinin təşəkkül tapdığı dövrlərdən formalaşıb. Elə yuxarıda adı çəkilən Molla Cümə aşıq şeirinin görkəmli nümayəndəsi olmaqla həm də sözünü telli sazla qovuşduran bir el sənətkarı idi.

Molla Cümə aşıq yaradıcılığının bütün formalarına müraciət etmişdir. Onun yaradıcılığında həcvlər də geniş yer tutur. Molla Cümə özü haqqında belə yazır:

Aşıq anasıyam, şairlər kökü,
Gəzərəm dünyada divanə təki.
Mahalım Görnükdür, şəhərim Şəki,
Layiski kəndinin binasıyam mən.

Musiqişünas Faiq Çələbinin yazdığına görə, "Molla Cümə yalnız şeir qoşmurdu, həm də onları çaldığı sazın müşayiəti ilə oxuyurdi."

Faiq Çələbi Şəkidə ekspedisiyada olarkən Şəki zurnaçısı Həbibullah Cəfərovun ifasında "Sərçələr" havasını dinləmişdir. Bu havanın adı ifaçının fikrincə, Molla Cümənin "Sərçələr" qoşması ilə bağlıdır. Musiqişünas Baş Layiski kəndində zurnaçı Ramazan Abdullayevin çaldığı "Molla Cümə müxəmməsi"ni də dinləmişdir. Deməli, Molla Cümə tək şairlik etməmiş, həm saz ustası olmuş, həm də melodiyalar bəstələmişdir.

Unudulmaz müğənni Baba Mirzəyevin ifasında Molla Cümənin "Bala gəlin" mahnısı dinləyicilərə yaxşı tanışdır. Bu, Molla Cümə sənətkarlığı haqqmda deyilənlərə daha bir sübutdur.

XIX əsrin son rübü XX əsrin əvvəllərində Şəkidə muğam sənəti də inkişaf etmişdi. Məlum olduğu kimi, muğam sənəti daim şəhər mədəniyyəti, saray professional incəsənəti ilə sıx bağlı olmuşdur.

Şəkidə muğam sənətinin inkişafı üçün belə labüd şərait mövcud idi. Tarixən bizə məlum olan şəkili xanəndələrdən Ələsgər Abdullayevin (şəkili Ələsgər) adı muğam sənəti tarixinə qızıl hərflərlə yazılmışdır.

Xanəndə Ələsgər Abdullayev 1866-cı ildə Şəkidə anadan olmuşdur. O, xanəndə Keştazlı Haşımdan dərs almışdır. Ələsgər Abdullayev Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da tanınırdı.

1902-1903-cü illərdə o, Bakıda Şərq konsertlərində çıxış etmişdi.

1913-1914-cü illərdə Tiflisdə və Kiyev şəhərlərində onun ifasında "Çahargah", "Rast", "Mahur-hindi", "Zabul Segah", "Rahab", "Şüştər" muğamları "Sport-Rekord" və "Ekstrafon" firmaları tərəfindən vala yazılmışdır.

Şəkili Ələsgərin adı Azərbaycan muğam məktəbini bütün Qafqaz və Yaxın Şərqdə şöhrətləndirən Hacı Hüsü, Səttar, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski ilə bir sırada durur.

Onu da qeyd etməliyik ki, şəkili Ələsgərin ikinci sənət müəllimi bakılı xanəndə Ağa Seyid oğlu Ağabala olmuş və o, Ələsgəri Bakıya dəvət etmişdi.

Ələsgər Abdullayev bütün muğamların, xüsusən,"Rahab"ın əvəzsiz və təkrarsız ifaçısı idi. O, vəfat edərkən Cabbar Qaryağdıoğlu onun məzarı üstündə belə demişdir: "Biz bu gün Ələsgəri deyil, "Rahab"ı dəfn edirik." Bu tarixi sözlər şəkili Ələsgərin muğam sənətindəki əbədiyaşarlığının ifadəsidir.

Şəkidə doğulub boya-başa çatan və Azərbaycan xanəndəlik sənətində adı hörmətlə çəkilən növbəti ifaçı Əliövsət Sadıqovdur. 2006-cı ildə sənətkarın anadan olmasının 100 illiyi ilə əlaqədar olaraq onun həyat və yaradıcılıq yolu haqqında geniş araşdırmalar apararaq Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Sənətin Əliövsət zirvəsi" adlı kitab nəşr olundu. (müəllif Səadət

Təhmirazqızıdır) Həmin kitabdan sənətkar haqqında bəzi fikirləri bu monoqrafiyaya da daxil edirik.

Əliövsət Şirəli oğlu Sadıqov 1906-cı il dekabr ayının 22-də qədim Şəki torpağında sadə zəhmətkeş ailəsində anadan olub.

Deyilənə görə atası Şirəli kişinin də çox gözəl səsi var imiş. El şənliklərində çıxışlar edərmiş. O, məsciddə moizə oxuyanda böyüklü-kiçikli bütün Şəki əhli Şirəli kişinin avazına heyran kəsilərmiş. Amma buna baxmayaraq o, ailəsini Şəki ipək fabrikində çalışmaqla dolandırarmış. Tanrı Əliövsətdən də öz səs payını əsirgəmədi. Odur ki, atasından eşitdiyi muğam avazlarını, xalq mahnılarını öz-özünə zümzümə edərmiş. Beləcə, erkən yaşlarından qəlbində musiqiyə böyük məhəbbət yaranır. 1926-27-ci illər – gənc Əliövsətin sənət eşqi ilə çağlayan dövrləridir. Bu illərdə o, Şəki ipək fabrikində fəhlə işləyirdi. Dəzgah arxasında şirin-şirin nəğmələr oxuyan Əliövsətin səsi ətrafdakıların da diqqətini cəlb edir və beləliklə onun sorağı bütün Şəkiyə yayılır.

1926-cı ildə məşhur xanəndə Hüseynqulu Sarabski Şəki ipək fabrikində zəhmətkeşlərin qonağı olur. Bu hadisə Əliövsətin həyatında önəmli bir dönüş yaradır. Belə ki, həmən görüşdə fabrikin rəhbərliyi 20 yaşlı usta Əliövsəti də təqdim edir və o, özünəməxsus tərzdə "Bəh-bəh" xalq mahnısını ifa edir. İfaçının səsi və oxusu Hüseynqulu Sarabskinin xoşuna gəlir və onu Bakıya dəvət edir. Elə Əliövsətin sənət yolu da bu tarixdən başlayır. O, Şəki ipək fabrikinin rəhbərliyi tərəfindən Bakıya göndərilir. Çünki Əliövsət Sadıqov bu fabrikin özfəaliyyət ansamblında dəfələrlə çıxışlar etmişdir. Odur ki, inanırdılar ki, bu gəncin çox parlaq gələcəyi var.

Bəli, Bakı mühiti onun parlaq gələcəyinə işıq salır. Əliövsət Sadıqov Hüseynqulu Sarabskinin tövsiyyəsi ilə operaya gəlir. Respublikamızın müxtəlif şəhər və rayonlarından gəlmiş gəncləri münsiflər heyətinin üzvləri ustad sənətkarlar M. Maqomayev, C.

Qaryağdıoğlu və B. Mansurov imtahan edirlər. Səhnəyə böyük həyəcanla çıxan Əliövsət "Ay qız" xalq mahnısını məharətlə ifa edir. Onun zahiri görünüşü və səs diapozonu opera sənəti üçün məqbul sayıldığından o, 1928-ci ildə adı çəkilən ustadların rəyi ilə opera və balet teatrına qəbul olunur. Görkəmli bəstəkarımız M.Maqomayev onun səsini və ifasını çox bəyənir və deyir: "Onun gələcəyinə inanıram. Səhnə hərəkətlərindən elə bil Şah İsmayıldır. Onu operaya qəbul edə bilərik. Əminəm ki, Əliövsət bizim etimadımızı doğruldacaq."

Böyük bəstəkarın sözü alqışla qarşılanır. Əliövsətin opera və balet teatrına qəbul olunması xəbərini eşidən Şəki əhli çox sevinir və deyirlər ki, Şəkili Ələsgərdən (Ələsgər Abdullayevdən) sonra Şəki torpağı Azərbaycan xanəndəlik sənətinə daha bir övladını bəxş etdi. O, yüksək zirvələrə çatacaq.

Onu da qeyd edək ki, Əliövsət Sadıqov operaya gələnə qədər artıq səhnəyə bələd idi. Belə ki, Bakıya gəldiyi ilk günlərdən o, həm operanın, həm də dram teatrının tamaşalarına gedərmiş. Bu onun opera səhnəsində bir aktyor kimi yetişməsinə müsbət təsir göstərib. O, müxtəlif səhnələrdə ara-sıra çıxışlar da edərmiş. Əliövsət Sadıqov musiqi təhsili almağı da vacib sayır və 1927-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında 2 il professor Sferonskidən dərs alır.

Beləliklə, məlahətli və qüdrətli səsi, professional ifaçılığı onu məşhur opera müğənnisi səviyyəsinə yüksəldir. Opera səhnəsinə xor kollektivinin üzvü kimi daxil olan sənətkara az müddətdən sonra solo obrazlar həvalə edilir. İlk rolları "Leyli və Məcnun" operasında Zeyd və İbni Səlam, "Aşıq Qərib"də Vəli, "Nərgiz"də Əliyar, "Koroğlu"da Eyvaz obrazları olmuşdur.

1930-cu ildən etibarən isə o, muğam operalarında baş rolların mahir ifaçısına çevrildi. İlk baş qəhrəman kimi çıxışı Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operasında Qərib obrazı olur. O dövrün "Kommunist" qəzeti bu barədə belə yazır:

"Qərib rolunun ifaçısı Əliövsət Sadıqov yüksək və məlahətli səsi ilə seçilir. O, bu obrazı real boyalarla açıb göstərir. Qəribin mürəkkəb təbiətini, psixoloji anlarını, sevgilisi Şahsənəmlə səhnələri məharətlə oynadı. Biz inanırıq ki, o, gələcəkdə də yeni rollarla pərəstişkarlarını sevindirəcək." ("Kommunist" qəzeti 1930-cu il.)

Bu uğurlu çıxışdan sonra Əliövsət Sadıqova daha məsuliyyətli bir obraz tapşırılır. Belə ki, 1931-ci ilin teatr mövsümündə M.Maqomayevin "Şah İsmayıl" operası yeni quruluşda tamaşaya hazırlanır. Müəllifin təklifi ilə Şah İsmayıl obrazı Əliövsətə həvalə edilir. Bu gənc ifaçıya ən böyük etimad idi. Bildiyimiz kimi Şah İsmayıl muğamlar oxuyan, qılınc vuran, qəddar atanın əmri ilə kor olmamaq üçün acı-acı yalvaran bir aşiqdir. Odur ki, belə bir obrazı yaratmağın məsuliyyəti böyük idi. Əliövsət Sadıqov öz axtarışlarının, qocaman sənətkarların və xüsusən də Müslüm bəyin tövsiyyələri ilə bütün çətinlikləri dəf edərək Şah İsmayıl rolunu böyük sənətkarlıqla ifa edir. Hətta tamaşadan sonra müəllif – "Mən əsl Şah İsmayılı tapdım_ - deyərək onu ürəkdən təbrik edir. Bu obraz Əliövsət Sadıqovun yaradıcılığında mühüm yer tutur. O, 20-cu ilə qədər bu rolu eyni həvəslə və ustalıqla oynamışdır. Yalnız Bakıda deyil, müxtəlif şəhər və rayonlarda, Zaqafqaziya, Orta Asiya ölkələrində də onun Şah İsmayılı böyük uğurla qarşılanmışdır.

Dağıstandan bir musiqi həvəskarı "Sovet Özbəkistanı" qəzetində belə yazır:

"Şah İsmayıl" obrazını qüdrətli sənətkar Əliövsət Sadıqov son dərəcə gözəl yaratdı. O, öz rolunu dərindən mənimsədiyinə görə səhnədə sərbəst hərəkət edir, aydın və məlahətli oxuyur. Aktyorun sənəti çox yüksəkdir. Əliövsətlə fəxr edir, onu alqışlayır və deyirik – sağ ol, yüz yaşa " ("Sovet Özbəkistanı" qəzeti)

Sanki bu müğtədir obrazlarla Əliövsət Sadıqov özünü Şərq operasının şah əsəri olan "Leyli və Məcnun"a hazırlayırdı. Sözsüz ki, Sarabskidən sonra Məcnunu oynamaq çox çətin idi. Amma, tükənməz sənət eşqi və yaradıcılıq həvəsi Əliövsəti bu qənaətə gətirir ki, o,

Məcnunu oynamağa qadirdir. Doğrudan da bu obrazı da layiqincə yaradır.

Belə ustad sənətkarlar haqqında düşünürsən ki, nə yaxşı kifayət qədər onların səsini qoruyub saxlaya bilmişik. Bu mənada həmən lent yadigarlarını mühafizə edənlərə minnətdarıq. Hansı ki, onların içərisində Əliövsət Sadıqovun da səs yadigarları var. Baxmayaraq ki, onunla bağlı yazılı mənbələr çox azdır və yox dərəcəsindədir. Amma, oxusunu dinləyəndə sənətkarlığı da burada ehtiva olunur. Ölməz Bülbülün təbirincə desək: "Sənətkarın tərcümeyi halı onun yaradıcılığında əks olunub." Bəli ölməz sənətkar bu fikirləri elə məhz Əliövsət haqqında demiş və qeyd etmişdir ki, onun səsi qüvvətli olmaqla bərabər həm də dolğundur. Tarın şah pərdəsindən axırıncı pərdəyə qədər bu səs dinləyicidə xoş təsir yaradır. Əliövsət Sadıqov muğamlarımızın, el havalarının gözəl ifaçılarındandır.

Qeyd etdik ki, sənətkarın yaradıcılığında Məcnun obrazı xüsusi mərhələni təşkil edir. Bu obrazı o, öz axtarışlarının, sənətkarlıq üslubunun sayəsində özünəməxsus yaratmışdır. Onun Məcnununda xallar və zəngulələr daha çoxdur. O, Məcnunun ilk oxusunu əvvəlcə öz avazları ilə ifadə edir yəni bərdaştla deyil, mayəyi-mahurda bir qədər zəngulələrdən sonra Füzulinin eşq dünyasından soraq verən "Yandı canım hicr ilə vəsli-ruxi yar istərəm" - qəzəlini Məcnun obrazında məharətlə ifa edir.

Əliövsət Sadıqovun opera səhnəmizdə yaratdığı obrazlarda belə özünəməxsus cəhətlər çoxdur. Ü.Hacıbəylinin "Əsli və Kərəm" operasında oynadığı Kərəm obrazı da bu qəbildəndir.

1938-ci ildə Moskvada keçirilən ongünlükdə R. Qliyerin "Şahsənəm" operasından iki aşıqdan birini Əliövsət Sadıqov, digərini Şirzad Hüseynov ifa ediblər. Burada da o, öz ifa manerasını nümayiş etdirib.

1963-cü ilə qədər Əliövsət Sadıqov Azərbaycan operasının səhnəsində görkəmli sənətkarlarımız Həqiqət Rzayeva, Rübabə

Muradova, Gülxar Həsənova, Xanlar Haqverdiyev, Şirzad Hüseynov və başqaları ilə çiyin-çiyinə çalışaraq opera sənətimizi inkişaf etdirmiş və gənc nəslə örnək olmuşdur. Əksəriyyət sənətkarlar ondan çox şey öyrənmişlər. Gülxar Həsənova öz xatirələrində qeyd edir ki, Əliövsətdə elə bir qüdrət vardı ki, onunla tərəf müqabili olan hər kəs səhnədə sərbəst olur və uğurla çıxış edirdi.

Əliövsət Sadıqovun yüksək sənətkarlığını bu günün ustadları da heyranlıqla vurğulayırlar. Bu mənada xalq artistləri Əlibaba Məmmədov, Canəli Əkbərov, Arif Babayev, əməkdar artist, tarzən Firudin Ələkbərov sənətkarı böyük hörmət və ehtiramla yad edir, onun sənətindən bir çox yaxşı cəhətlər əxz etdiklərini söyləyirlər.

Əlbəttə, yaxşı sənətkar heç vaxt ölmür. Əliövsət Sadıqov 1971-ci ildə dünyasını dəyişsə də, o, bu günə qədər xalqın, sənətkarların qəlbində yaşayır və yaşayacaq.

* * *

Sonrakı illərdə Daşdəmir oğlu Məhəmməd, Ələsgər Sadıqov, Şəmsəddin Abdullayev, İsmayıl Mustafayev, Lütfəli Məmmədov, Nəsib İbrahimov, Abdurəşid Məcidov, Mürşüd Məmmədov, Nazim İlyasov, Nurəddin Həmzəyev, Əliosman Hacıyev, Ənvər Əbdülhəmidov kimi xanəndələr yetişmişlər.

Şəkidə tar ifaçılığı da geniş inkişaf etmişdir. Bu istiqamətdə görkəmli sənətkarlardan biri Əhmədbəy Tahirov Şəkidə uşaq musiqi məktəbinin açılmasının əsas təşkilatçılarından biri olmuşdur. Müəllimlik fəaliyyətinə görə ona 1943-cü ildə Əməkdar müəllim fəxri adı verilmişdir.

Digər tar ifaçısı İbad Rəhmətullayevin təşəbbüsü ilə 1937-ci ildə Şəkidə uşaq musiqi məktəbi açılmışdır. Sonrakı illərdə Samavar oğlu Çələbi, Məhərrəm İsmayılov, İbad Salmanov, Əbdürrəşid Seyidov, Nemət Məmmədov, Ramiz Məhərrəmov, Məmməd Nəsrullayev, Nuyvər Avdullayev, Fazil Əliyev kimi tarzənlər yetişmişlər.

Kamançа ifaçılarından Məşədi Yusif, Nurəddin Bədəlov, Fərrux Məcidov, Hikmət Hacıyev, Kamal Məmmədov, Loğman Məhərrəmov laynız Şəkidə deyil, respublikada tanınmış sənətkarlardırlar.

Nurəddin Bədəlov 1937-1947-ci illərdə Ağdaş musiqi məktəbində Xalq Artisti Habil Əliyevin müəllimi olmuşdur.

Qarmon ifaçılarından Ələkbər Abbasov və Ramiz Sadıqov da mahir el sənətkarları olmuşlar.

Nəfəsli alətlərdən zurna, klarnet, balaban, tütək ifaçılığı sahəsində Şəki respublikada ən geniş inkişaf etmiş sənətkarlar diyarıdır. Şəkidə zurnaçılar dəstəsi əsasən 4 nəfərdən (zurna, zilçi, kos, bala nağara) ibarət olur.

Həbibullah Cəfərov və Ələfsər Şəkili Azərbaycanda zurna ifaçılığının baniləridirlər. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan İncəsənət Dekadasında Həbibullah Cəfərov öz dəstəsi ilə Oxud kəndindən olan Alxasovlar ailə rəqs ansamblını müşayiət etmişdir.

Sonralar Qaçay Mustafayev, Əjdər Yusifov, Ələfsər Rəhimov, Rəcəbalı Əliyev, Ağasəf Musayev, Zeynal Qasımov, Əyyub Məhəmmədov, Oqtay Həmidov, Rəhman Qurbanov, Nəriman Məhərrəmov kimi mahir ifaçılar da yetişib.

Təbii ki, instrumental sahədə zərb alətlərinin mahir ifaçılarının da öz yeri var. Adışirin Mustafayev, Yaqub Məmmədrəhimov, Bəşarət Kərimov, Vaqif və Akif Əbdürrəhimovlar əvəzsiz sənətkarlar olmuşlar.

Zərb alətlərinin mahir ifaçısı Akif Əbdürrəhimov 1979-cu ilin aprel ayında Bolqarıstanda keçirilən Beynəlxalq Gənclər Festivalında Azərbaycanı təmsil etmişdir.

Ümumiyyətlə, Şəkidə yaşayan xanəndələrdən - Abit Hümmətov, Fərman Xəlilov, Əmir Rüstəmov, Rasif Abdullayev, tar ifaçıları - Seyran Zülfüqarov, Aydın Cəbrayılov, İsmayıl Əliyev, Əsabəli Salamov, Yaşar Babayev, Namiq Həmidov, İbrahim Rəsulov,

Eldar Rəcəbov, kamançа ifaçıları - Vaqif Rəhimov, Telman Suleymanov, Vaqif Heydərov, Kamil Çələbiyev, Rüstəm Xəlilməmmədov, Sərvər Əzimov, Elşən Bağırov, qarmon ifaçıları – Şamil Mustafayev, Zair Mustafayev, Tahir Məmmədov, Faiq Məmmədov, Aydın Yəhyayev, Qüdrət Abdullayev, Sabir Mustafayev, Eldəniz Məmmədov, nəfəs alətləri ifaçıları - Bünyad Kərimov, Məcnun Əliyev, Nurəli Hacıyev, Baxşəli Abdurəhmanov, Rövşən Kərimov, İlham və Xurşad İbrahimxəlilovlar, zərb alətlərinin ifaçıları - Vasif və Faiq Əbdürrəhmanovlar, Azər İskəndərov, Ayaz Məcidov, aşıqlardan İsmayıl Allahverdiyev, İlyas Əsədov,Vaqif Cavadov öz sənətkarlıqları ilə xalq arasında hörmət qazanıblar.

Şəkidə doğulub boya-başa çatan, mədəni həyatında xüsusi xidmətləri olan Respublikanın Xalq Artistləri Könül Xasıyeva, Gülyaz və Gülyanaq Məmmədovalar, Əməkdar Artist Nüşabə Ələsgərli, tar ifaçıları - Əbülfət Məmmədrəhimov, Mübariz Əliheydərov, qarmon ifaçısı – Rövşən Mustafayev, zərb alətləri ifaçıları - Elşad Əbdürrəhmanov, Taleh Qafarov Bakı şəhərində professional səhnələrdə uğurlu çıxışlar edirlər. Onlar xarici ölkələrdə keçirilən Festivallarda, Olimpiadalarda, Dövlət tədbirlərində, həmçinin qastrol səfərlərində Azərbaycanımızı təmsil edirlər.

Şəkinin musiqi kollektivləri və ifaçıları Beynəlxalq və Respublika əhəmiyyətli tədbirlərdə, bayramlarda, müxtəlif televiziya kanallarında müntəzəm olaraq iştirak edirlər. Belə tədbirlərdən Azərbaycan İncəsənət Olimpiadası (1955-ci il), Azərbaycan Gəncləri Respublika Festivalı (1956, 1957, 1962-cı illər), Azərbaycan Mədəniyyət və İncəsənəti Ongünlüyü (1959-cu il), Ümumittifaq Xalq Yaradıcılığı Festivalı (1967-ci il), Zəhmətkeşlərin Bədii Yaradıcılıq Festivalı (1977-ci il), Gülüş Bayramı (1983-cü il), "Xarı bülbül" Beynəlxalq Musiqi Festivalı (1989-cu il), Moskvada SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində keçirilən Böyük Oktyabrın 50 illiyinə həsr olunmuş Azərbaycan SSRİ Günləri (1967-ci il), Türkiyənin Bursa şəhərində keçirilmiş Beynəlxalq Folklor Festivalı

105032

Azərbaycan Milli Kitabxanası

(1995-ci il), Türkiyənin Eşme şəhərində keçirilmiş Beynəlxalq Kilim və Sənət Festivalı (1996-cı il), böyük xanəndə Ələsgər Abdullayevin xatirəsinə həsr edilmiş Respublika Muğam Festivalları (Şəki - 1991-1996-cı illər), İpək Bayramı (2006-cı il), Sənətkarlar Günü (2007-ci il), Şəki qədim sivilizasiyalar diyarı (2008-ci il), Kulinariya Bayramı (2009-cu il), Milli nəfəs alətləri Respublika Festivalı (2010-cu il), "İpək yolu" Beynəlxalq Musiqi Festivalı (2010-ci ildən başlayaraq hər il), Beynəlxalq Novruz Festivalı (2010-cu ildən başlayaraq), 1978-ci ilin mart ayından başlayaraq hər ilin mart ayında 37 il keçirilən "Novruz təranələri" baxış –müsabiqəsi, 2006-cı ildən başlayaraq hər ilin may ayında Respublika Atçılıq Mərkəzində keçirilən Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş Atüstü Oyunlar Festivalı, hər ilin dekabr ayında keçirilən Prezident Kuboku uğrunda Milli "Çövkən" Oyunları Yarışları Şəkinin mədəni həyatında xüsusi əhəmiyyət kəsb edir. Bu tədbirlərdə 2012-ci ilin Türksoy çərçivəsində Şəki şəhərinin Qeyri-Maddi Mədəni İrs Paytaxtı elan edilməsi ilə əlaqədar Şəkinin 2700 illik Yubileyi, şəhər günü bayramı, Şəki Xan Sarayının 250 illik Yubileyi, M.F.Axundzadənin 200 illik Yubileyi qeyd olunmuşdur.

Şəkidə ifaçılıq sənətinin yüksək səviyyədə formalaşmasında 1937-ci ildən fəaliyyət göstərən 1 saylı Şəki şəhər uşaq musiqi məktəbinin (indi İncəsənət Məktəbi), 1970-ci ildən 2 saylı uşaq musiqi məktəbinin, 1978-ci ildən 4 saylı uşaq musiqi məktəbinin, 1981-ci ildən "Turan" qəsəbə musiqi məktəbinin, 1985-ci ildən 3 saylı uşaq musiqi məktəbinin, həmçinin 1958-ci ildən fəaliyyət göstərən Şəki orta ixtisas musiqi məktəbinin (indi Musiqi Kollecidir) böyük rolu olmuşdur. Eyni zamanda Ümumittifaq Festivalının Layreatları "Zirvə" xalq instrumental və "Səbuhi" xalq çalğı alətləri ansambllarının, "Qala", "Marxal", "Nuxa", "Xəzinə", "Şəlalə" instrumental ansambllarının və digər bədii özfəaliyyət kollektivləri və dərnəklərinin musiqi ifaçılığı sahəsində böyük xidmətləri var.

Şəkidə ifaçılıq sənətinin inkişafında mədəniyyət şöbələrinin də mühüm fəaliyyəti olub. 1953-cü ildən 2006-cı ilədək Respublika Mədəniyyət Nazirliyinin tərkibində Şəki şəhər Mədəniyyət şöbəsi, 2006-cı ildən Respublika Mədəniyyət və Turizm Nazirliyi adlanandan sonra isə Şəki şəhər Mədəniyyət və Turizm şöbəsi fəaliyyət göstərir ki, bu təşkilat da Şəkidə ifaçılıq sənətinə geniş yer verir.

Şəkidə ifaçılıq sənəti ilə bağlı tədqiqatlar apararkən mədəniyyət sahəsində çalışan neçə-neçə insanların xidmətləri ilə tanış olduq. Onların bir çoxu Şəkidə mədəniyyət şöbə müdiri işləyirlər. Onlardan Cövdət Qədirli (1953-1955-ci illər), Maqsud İsrafilov (1955-1960-cı illər), Kərim Kərimli (1960-1980-cı illər), Hikmət Əbdülhəlimov (1980-1988-ci illər) və daha bir neçələrinin adını çəkə bilərik. Hal-hazırda Şəki şəhər Mədəniyyət və Turizm şöbəsinin müdiri Mirvari Zeynalovadır. O, Şəkidə keçirilən şəhər Respublika və Beynəlxalq səviyyəli tədbirlərin hazırlanmasında Şəki ifaçılarının fəal iştirakını təmin edir və bununla da yeni ifaçı nəslinin də meydana gəlməsinə nail olur.

Şəkinin ifaçılıq sənətinin inkişafında şəhərdə fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin və başlıca olaraq Şəki şəhər orta ixtisas Musiqi Kollecinin (vaxtilə Şəkili Ələsgər adına Orta İxtisas Musiqi Texnikumu olub) mühüm xidmətləri var. Demək olar ki, Şəkidə yaşayıb-yaradan mahir ifaçılar bu təhsil ocaqlarında formalaşıblar. Hal-hazırda Şəki şəhər Orta İxtisas Musiqi Kollecinin direktoru Sərdar Şərifov yeni ifaçı nəslinin yetişməsində bu təhsil ocağına böyük maraq olduğunu, hətta ətraf bölgələrdən də buraya tələbələrin üz tutduğunu xüsusi qeyd edir.

Bir sözlə Şəkidə zəngin ifaçılıq sənəti formalaşıb, inkişaf edib və bu gün də inkişaf etməkdədir. Şəkinin qocaman sakinləri keçmiş ifaçıları daim xatırlayır və onların bu gün üçün bir məktəb olduğunu söyləyirlər. Geniş dünyagörüşünə, zəngin biliyə malik olan yaddaşında ötən illərn sənətkarları haqqında xatirələr yaşadan, Əməkdar Mədəniyyət İşçisi – Vaqif Kərimov bizə Şəkinin ifaçılıq

sənəti barədə çox dəyərli məlumatlar verdi. Şəkinin tanınmış ziyalılarından olan Vaqif Kərimov 1978- 2012-ci illərdə M.F.Axundzadə adına şəhər Mədəniyyət Evinin, 2013-cü ildə isə şəhər Mədəniyyət Mərkəzinin direktoru vəzifəsində işləmişdir.

Vaqif Kərimov simasında Şəkidəifaçılıq sənəti ilə bağlı topladığımız materialların əldə olunmasında bizə köməklik göstərən hər bir şəkiliyə minnətdarlığımızı bildiririk.

Beləliklə təqdim olunan "Şəkidə ifaçılıq sənəti" monoqrafiyasında neçə-neçə sənət fədaisinin həyat və yaradıcılıq yolu işıqlandırılır. Hətta bəzi sənətkarların ifasından lentə alınan musiqi nümunələrinin not yazıları da təqdim olunur. (not yazılarının müəllifi Səadət Təhmirazqızı – S.T.q) Belə bilirik ki, bütün bunlar Şəkinin zəngin mədəniyyət tarixinin müəyyən bir hissəsidir ki, bu da qiymətli tarixi yadigarlardır.

FƏRRUX ABDURƏHMANOV
1920-2014

Həmişə üzündə səmimi təbəssüm olan Fərrux dayını Şəkidə tanımayan az adam tapılar. Vaxtı ilə kiminsə toyunda tar çalıb, kiminsə tarını, kiminsə də faytonunu təmir edib Fərrux dayı... Bəli, onu Şəkidə hamı belə çağırır. Yaşı 90-ı haqlayan bu qocaman tarzəni Şəkidə hamı çox sevir.

Görkəmli el sənətkarı Fərruz Abdurəhmanov 1920-ci ildə Şəkidə anadan olub. Tarın ilk sirlərini ona Məhərrəm İsmayılov öyrədib. 1936-1940-cı illərdə Şəkidə tibb texnikumunda təhsil alıb, feldşer ixtisasına yiyələndikdən sonra iki il 1940-42-ci illərdə İkinci Dünya Müharibəsinin iştirakçısı olub. Cəbhədə yaralandıqdan sonra Şəkiyə qayıdıb və öz sevimli - tar çalmaq peşəsini davam etdirib.

1942-1948-ci illərdə Fərrux Abdurəhmanov Sabir adına Nuxa Dövlət Dram Teatrının xalq çalğı alətləri orkestrində tar çalıb. Orkestrə Şəkidə tanınmış musiqiçi İbad Rəhmətullayev rəhbərlik edirdi. Dövlət Teatrında işlədiyi illərdə Fərrux Abdurəhmanov Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "O olmasın, bu olsun", "Arşın mal alan", Səid Rüstəmovun "Durna", Səməd Vurğunun "Vaqif" və digər tamaşaların musiqi hissəsində tarda solo ifa etmişdir.

O, 1948-51-ci illərdə Şəki müəllimlər institutunda, 1951-53-cü illərdə Şəki Pedaqoji texnikumunda, 1953-56-cı illərdə isə Şəki İpək kombinatının klubunda bədii özfəaliyyət kollektivlərinin rəhbəri işləmişdir.

Onun rəhbərlik etdiyi özfəaliyyət kollektivləri dəfələrlə Respublika olimpiadalarında uğurla çıxış etmişdir.

Fərrux Abdurəhmanov uzun illər Şəki şəhər mədəniyyət evində işləyib və 1958-ci ildə Yerli Sənaye kombinatında musiqi alətləri üzrə təmir sexinə rəhbərlik edib.

O, dəfələrlə respublika olimpiadalarında, festivallarda, baxış-müsabiqələrində uğurlu çıxışlar edib.

Fərrux dayı həm də Şəkidə məşhur faytonçudur. İndiyədək o, 30 fayton düzəltmişdir. Şəkidə çox adam onun özünəməxsus faytonunu görüb və valeh olub. Xüsusən də bayramlarda musiqiçilər onun al-əlvan qotazlarla bəzədilmiş faytonunda gəzər və şəhəri musiqi sədaları altında fırlanardılar.

O, kütləvi tədbirlərdə və el şənliklərində unudulmaz sənətkarlarımız Əliövsət Sadıqov, Yaqub Məmmədov, Gülağa Məmmədov, Yavər Kələntərli, Sahib Şükürov, İldırım Həsənov, Mürşüd Məmmədov, Veyis Hacıyev və başqalarını müşayiət edib.

Fərrux kişinin dörd oğlu var. Onların da hamısı istedadlı musiqiçidirlər. Böyük oğlu Vaqif uzun illər uşaq incəsənət məktəbində qarmon dərsi demişdir. İkinci oğlu Akif mahir nağaraçalandır. O, 1979-cu ildə Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən Beynəlxalq folklor festivalında iştirak etmişdir. Üçüncü oğlu Vasif tarda və nağarada çalır. Kiçik oğlu Faiq də nağara çalandır. Fərrux müəllim bu musiqiçiləri bir yerə yığaraq ailə ansamblı yaradıb. 1980-cı ildə Abdurəhmanovların ailə ansamblı Respublika müsabiqəsinin qalibi olmuş və Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində Azərbaycanı tərənnüm etmişlər.

Qocaman tarzən 1989-cu ilin mayında Ağdamda keçirilən "Xarı Bülbül" Beynəlxalq festivalında iştirak etmişdir. Daha sonra Şuşada ustad xanəndə Seyid Şuşinskinin anadan olmasının 100 illik yubileyində Ələsgər Abdullayev adına muğam üçlüyünə rəhbərlik edərək Fərrux Məcidov (kamança) və Abdurrəşid Məcidov da (xanəndə) uğurlu ifa nümayiş etdirmişlər.

Ömrünün müdrik çağında da qocaman sənətkar tarı köksünə sıxaraq hərbi hissələrdə, uşaq evlərində, el şənliklərində və digər yerlərdə keçirilən mədəni-kütləvi tədbirlərdə çıxışlar edib.

Bu gün onun vaxtı ilə tarın sirlərini öyrətdiyi şagirdləri respublikamızın müxtəlif rayon və şəhərlərində çalışırlar.

Bu hörmətli el sənətkarının 60, 70, 80 və 90 illik yubileyləri Şəkidə xüsusi təntənə ilə keçirilmişdir. Bu tədbirlərin bir neçəsində biz də iştirak etmişik. Nə yaxşı ki, belə bir sənətkarı tanıyıb onunla ünsiyyətdə ola bildik. Fərrux dayı 2014-cü ildə dünyasını dəyişsə də o, mahir bir sənətkar və gözəl insan kimi həm bizi, həm də şəkililərin əbədi yaddaşında qalacaq.

Biz bu monoqrafiyaya Fərrux Abdurəhmanovun ifasından nota saldığımız "Şəki rəqsi", "Zabul rəngi" və "Marş" musiqi nümunələrini daxil etmişik.

QƏDİM ŞƏKİ RƏQSİ

İfaçı: Fərrux Abdürəhimov
Not yazısı: Səadət Təhmirazqızı



MARŞ

İfaçı: Fərrux Abdürəhimov
Not vazısı: Səadət Təhmirazazızı

Marcia



ZABUL RƏNGİ

İfaçı: Fərrux Abdürəhimov
Not vazısı: Səadət Təhmirazazızı

Andante





MƏMMƏD NƏSRULLAYEV
1927-1968

Şəkinin unudulmaz el sənətkarlarından biri də bütün həyatını Azərbaycan xalq musiqisinin inkişafına həsr edən, fitri istedad sahibi Məmməd Əli oğlu Nəsrullayev olmuşdur.

O, milli musiqi alətlərinin ən mahir ifaçısı kimi tarın, kamançanın, udun, sazın, nağaranın ustad sənətkarlarından biri idi.

Məmməd Nəsrullayev 1927-ci il sentyabrın 23-də Şəkidə anadan olmuşdur. Onun ilk müəllimi unudulmaz sənətkarımız, tarzən İbad Salmanov olub. İlk vaxtlar tar çalmağa həvəs göstərən balaca Məmməd, sonralar başqa musiqi alətlərinə də meyl salmışdır. 5 saylı orta məktəbi bitirdikdən sonra 1943-47-ci illərdə Şəki Pedaqoji məktəbində təhsil almışdır. Tələbəlik illərində məktəbin özfəaliyyət kollektivinin üzvü olmuşdur. Əsgərlik illərində qulluq etdiyi hərbi hissədə azərbaycanlılardan ibarət milli özfəaliyyət kollektivi təşkil etmişdir.

1950-1965-ci illərdə Şəki ipək kombinatında tornaçı işləyən Məmməd Nəsrullayev kombinatın klubundakı xalq çalğı alətləri ansamblının ən fəal üzvü olub.

Məmməd Nəsrullayev 1956, 1959 və 1962-ci illərdə keçirilən Respublika gənclərinin festivalında çıxış edərək laureat adına layiq görülmüşdür. O, dəfələrlə el şənliklərində və konsertlərdə Respublikanın xalq artistləri Əliövsət Sadıqov, Həqiqət Rzayeva, Seyid Şuşinski, Yaqub Məmmədov, əməkdar artistlərdən Məmmədkəbir Hacıoğlu, Bilqeyis Ələsgərova kimi xanəndələri müşayiət etmişdir.

Respublikanın xalq artistləri Əhsən Dadaşov, Hacı Məmmədov, Həbib Bayramov kimi ustad tarzənlər Məmməd Nəsrullayevin ifasına dəfələrlə qulaq asaraq onu Bakıya Azərbaycan Dövlət Fılarmoniyasına işləməyə dəvət etmişlər.

1968-ci ilin martında Məmməd Nəsrulayev 41 yaşında qəflətən vəfat etmişdir.

Şəki şəhərində sənətkarın adı əbədiləşdirilib, şəhərin ən qabaqcıl klub müəssisələrindən biri bu gün Məmməd Nəsrullayevin adını daşıyır.

Milli mənəvi mədəniyyətimizin dəyərləndirilməsində zəruri xidməti olan ustad el sənətkarımız Məmməd Nəsrullayevlə Şəki musiqiçiləri daim fəxr edir, onun əziz xatirəsini həmişə yad edirlər.

RƏCƏBALI ƏLİYEV
1897-1983

Rəcəbalı Mirzə oğlu Əliyev 1897-ci ildə Oğuz rayonunun Qozlubucaq kəndində dünyaya göz açmışdır. Hələ uşaq ikən balaca Rəcəbalıda zurna, balaban, tütək çalmağa meyl oyanır.

Sonralar Qozlubucaq kəndi güclü sel təhlükəsinə məruz qalır. Rəcəbalı ailəsi ilə birlikdə Şəkiyə gəlir. O, burada ustad sənətkarlar Həbibullah Cəfərov və Qaçay Mustafayevlə yaxından tanış olur və onlardan qara zurnanın sirrlərini öyrənir. Gənc və istedadlı zurnaçı Ələfsər Rəhimovun məsləhəti ilə Şəki rayon Mədəniyyət Evinin zurnaçılar dəstəsinə daxil olur.

1955-ci ildə görkəmli bəstəkarlarımız Soltan Hacıbəyov, Səid Rüstəmov və mahir baletmeyster Əlibaba Abdullayev qədim folklor nümunələri toplamaq məqsədi ilə Şəkiyə gəlirlər. Onlar burada yeni təşkil olunmuş "Şəki toyu" rəqs kollektivinin ifasında bir neçə qədim rəqslərə baxırlar. Rəqqasları zurnaçılar dəstəsi müşayiət edirdi. Bu dəstənin tərkibində Rəcəbalı Əliyev də vardı. Kollektivin ifaları bəyənildiyi üçün onlar 1955-ci ilin aprel ayında Bakıda Opera və Balet Teatrında konserta dəvət olunurlar. Rəcəbalı Əliyevin ifalarını eşidən görkəmli bəstəkarlarımız Niyazi, Fikrət Əmirov, Əfrasiyab Bədəlbəyli və başqaları onun sənətkarlığını yüksək qiymətləndirmişlər. Sonralar Rəcəbalı Əliyev 1956, 1957, 1962-ci illərdə Bakıda keçirilən respublika olimpiadalarında laureat adına layiq görülmüşdür.

Həmin illərdə o, məşhur el sənətkarları Əli Kərimov (Ağsu), Həsrət Hüseynov (Kürdəmir), İzzətalı Zülfüqarov (Qobustan), Nurağa Rəhmanov (Dəvəçi), Manaf Məmmədovla (Salyan) yaxından tanış olmuşdur. Onlar Rəcəbalı Əliyevin ifasından bir neçə xalq havalarını əxz etmişlər. O, 1959-cu ilin may ayında Moskvada keçirilən Azərbaycan Mədəniyyəti və İncəsənəti Ongünlüyündə, 1968 və 1969-cu illərdə isə Ümumittifaq Həmkarlar İttifaqları Şurasının təşkil etdiyi tədbirlərdə doğma Azərbaycanı təmsil etmişdir.

Rəcəbalı Əliyev dəfələrlə qonşu Gürcüstanda, Dağıstanda respublikamızın bir çox şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur.

O, 1969, 1972, 1977-ci illərdə Azərbaycan Televiziyasında çıxışlar etmişdir.

Ələfsər Rəhimov unudulmaz el sənətkarımız Rəcəbalı Əliyev haqqında xatirələrində həmişə deyərmiş ki, mən Rəcəbalının çaldığı oyun havalarına vurğunam.

Rəcəbalı Əliyev 1983-cü ilin iyul ayında vəfat etmişdir.

Şəkidə fəaliyyət göstərən klublardan biri el sənətkarının adını daşıyır. Hətta Rəcəbalı Əliyevin sənətkarlığı poeziyanın dili ilə də tərənnüm olunur.

RƏCƏBALI

Böyük Neyzən Həbillahdan
Dərsin aldı Rəcəbalı
Dəstəsilə məclislərdə
Neyin çaldı Rəcəbalı.

Dilləndirib ney-tavarı
Gah "Şur" çaldı, gah "avarı"
Rəqs eyləyən cavanları
Razı saldı Rəcəbalı.

Neçə-neçə gəlinə, bəyə
Səadət bəxş etdin deyə
Eldə ən xoş xatirəyə
Dönüb qaldı Rəcəbalı.

Rəcəbalı Əliyevin sənət yadigarları Üzeyir Hacıbəyli adına BMA-nın Xalq Musiqi Kabinetində qorunur. 1970-ci ildə Şəkiyə olunan ekspedisiyalar zamanı onun ifaları lentə yazılmışdır. (lentdə ekspedisiyanın müəllifi qeyd olunmayıb) Həmin lent yazılarından "Bulud çıxdı", "Zamagur", "Daşbulağı-Qozağacı", "Gilan qız", "Haray ellərindən", "Camış bağa girdi, gəl", "Gözəlləmə", "Tünd Koroğlu", "Avar ləzginkası", "Koroğlu-zorxana", "Dilavər", "Zopu-zopu", "Dəhnə", "Kömürü", "Ovşarı", "Kəndiri", "Kəkliyi", "Samux", "Kooperativi", "Bəy tərifi" və "Gəlin atlandı" xalq havalarını nota salmışıq. Sənətkarın ifaçılığının sübutu kimi həmin musiqi nümunələrindən bir neçəsinin not yazısını təqdim edirik.

CAMIŞ BAĞA GİRDİ GƏL



GÖZƏLLƏMƏ (OYUN HAVASI)

Allegro moderato

İfaçı: Rəcəbalı Əliyev
Not yazısı: Səadət Təhmirazqızı





TÜND KOROĞLU

İfaçı: Rəcəbalı Əliyev
Not vazısı: Səadət Təhmirazqızı

Presto







AVAR LƏZGİNKASI

İfaçı: Rəcəbalı Əliyev
Not yazısı: Səadət Təhmirazqızı

Presto



KOROĞLU (ZORXANA)

İfaçı: Rəcəbalı Əliyev
Not yazısı: Səadət Təhmirazqızı

Presto





DİLAVƏR

Moderato

İfaçı: Rəcəbalı Əliyev
Not yazısı: Səadət Təhmirazqızı



ZOPZOPU (AŞIRMA)

Moderato

İfaçı: Rəcəbalı Əliyev
Not yazısı: Səadət Təhmirazqızı





DƏHNƏ

İfaçı: Rəcəbalı Əliyev
Not vazısı: Səadət Təhmirazqızı

Allegro







KÖHNƏ AVARI (AĞIR AVARI)

İfaçı: Rəcəbalı Əliyev
Not yazısı: Səadət Təhmirazqızı

Moderato







KÖMÜRÜ

İfaçı: Rəcəbalı Əliyev
Not vazısı: Səadət Təhmirazqızı





OVŞARI

İfaçı: Rəcəbalı Əliyev
Not vazısı: Səadət Təhmirazqızı

Moderato





KƏNDİRİ

İfaçı: Rəcəbalı Əliyev
Not vazısı: Səadət Təhmirazqızı

Allegro





KƏKLİYİ

İfaçı: Rəcəbalı Əliyev
Not vazısı: Səadət Təhmirazqızı

Allegro moderato





SAMUX

İfaçı: Rəcəbalı Əliyev
Not vazısı: Səadət Təhmirazqızı

Moderato







KOOPERATİVİ

İfaçı: Rəcəbalı Əliyev
Not yazısı: Səadət Təhmirazqızı

Andante





BƏY TƏRİFİ

İfaçı: Rəcəbalı Əliyev
Not yazısı: Səadət Təhmirazqızı

Moderato





GƏLİN ATLANDI

Moderato

İfaçı: Rəcəbalı Əliyev
Not yazısı: Səadət Təhmirazqızı





BULUD QALXDI (AY DUMAN, GƏL, GET)

İfaçı: Rəcəbalı Əliyev
Not vazısı: Səadət Təhmirazqızı



ZAMAGUR (TƏKTƏK)

İfaçı: Rəcəbalı Əliyev
Not vazısı: Səadət Təhmirazqızı







DAŞBULAĞI QOZ

İfaçı: Rəcəbalı Əliyev
Not yazısı: Səadət Təhmirazqızı





GİLAN QIZ

Moderato

Rəcəbalı Əliyev (zurna)



HARAY ELLƏRİMDƏN

Rəcəbalı Əliyev (zurna)



NURƏDDİN BƏDƏLOV
1914-1985

Azərbaycanın ən dilbər guşəsi olan qədim Şəkidə dünyaya göz açan bir sənət fədaisinin ömür kitabından bəzi məqamları diqqətinizə çatdırırıq. Söhbət Nurəddin İbrahim oğlu Bədəlovdan gedir. Azərbaycan musiqi mədəniyyətində özünəməxsus yer tutan Şəki muğam məktəbinin nümayəndələrindən biri Nurəddin Bədəlov 1914-cü ildə Nuxanın (indiki Şəki) "Gilahlı" məhəlləsində anadan olmuşdur.

O, kiçik yaşlarından incəsənətin bütün sahələrinə meylli olub. Nurəddin Bədəlov tək kamançada yox, başqa alətlərdə də öz məharətini göstərmişdir. Belə ki, tar, kamança, qarmon, skripka kanon, fortepiano kimi alətləri məharətlə ifa etmək qabiliyyətinə malik olub. O həm də, rəssam, şair, bəstəkar və foks nümunələri göstərmək bacarığı ilə də musiqiçilərdən seçilirdi.

Qızı İradə xanımın dediyinə görə, bəstəboy, ağbəniz, gülərüz, mehriban bir insan idi. Hələ 15-16 yaşında ikən Şəkinin muğam ustadları tarzənlər Əhmədbəy Tahirovdan, Samavar oğlu Çələbidən, kamança çalan Məşədi Yusifdən muğamı öyrənərək, yaşca özündən xeyli böyük olan Şəki xanəndələrini Daşdəmir oğlu Məhəmmədi, kiçik Ələsgəri və bəıqalarını öz çalğısı ilə müşayiət edərmiş. Bununla da, Nurəddin Bədəlov tədricən əsl muğam bilicisinə çevrildi.

Musiqi dünyasında hər an ölməzliyi ilə qəlblərdə yaşayan Üzeyir Hacıbəyli bir gün Şəkiyə səfər edir. Qocaman Şəki musiqiçilərinin xatirələrində qeyd olunur ki, bu səfər zamanı Üzeyir bəy Nurəddin Bədəlovu görür və onu özü ilə Bakıya aparır. Beləliklə də, o, 1930-cu ildə Azərbaycan Dövlət Konservatoriyasının Şərq şöbəsinə daxil olaraq burada kamança ixtisası üzrə təhsil alır və həmin illərdə Bakının musiqi həyatı ilə qovuşur. Nurəddin Bədəlov Bakıya gələndə onun hələ uşaqlıq illərindən yaxşı tanıdığı muğam sənətinin klassiki Şəkili Ələsgər (Ələsgər Abdullayev) artıq dünyasını dəyişmişdi (1929). Ancaq meydanda Cabbar Qaryağdıoğlu, Seyid Şuşindki kimi böyük ustadlar vardı və gənc Nurəddin Bədəlov onların bütün çıxışlarını izləyərək, onlardan çox şey görüb-götürmüş və hətta müşayiət də etmişdi. Üzeyir bəy onu həmişə Nuru deyə çağırarmış. Şəkinin qocaman insanları Nurəddin Bədəlovdan yadlarında qalan xatirələrə onu da əlavə edərək deyirlər ki, dəfələrlə Şəkiyə gəlmək

istəyəndə Üzeyir bəy Nurəddinin yol xərcini ödəyərək onu özü yola salırmış. Məhz Üzeyir bəyin qayğısı ilə Bədəlov da xalq çalğı alətləri orkestrinə daxil edilir. O vaxtlar hamı orkestrdə kostyum geyinib oturarmış. Birdən Üzeyir bəyin gözü kiçik Nurəddinə sataşır görür ki, o, ağ şalvarla oturub. Ona heç nə demir. Səhəri gün ona kostyum alır və deyir: "Mən bunu sizin ailə vəziyyətinizə görə almıram. Axı sən hamıdan kiçiksən, balacan, qoy bu sənə hədiyyə olsun". Əslində, Üzeyir bəy onun ailəsinin kasıblığını üzünə vurmayaraq, ona həmişə atalıq edib. Sonralar Nurəddin Bədəlov Seyid Şuşiski ilə bir müddət sənət yoldaşlığı etməli olur. Azərbaycan kamança ifaçılığı çox maraqlı təşəkkül yolu keçmişdir. Əgər biz XX əsrin ilk rübünün sonlarında meydana gələn və həmin əsrin ortalarında ustadlıq dərəcəsinə yetən kamanzənlər dəstəsinə nəzər salsaq, oradakı birincilər sırasında şəkili musiqiçi Nurəddin Bədəlovun da adına rast gələrik.

Nurəddin Bədəlovun ifasında bir sıra muğamlar, yaxud ifaçılıq priyomları xüsusilə gözəl, əvəzolunmaz və ecazkar idi. Onun kamançada çaldığı "Çoban bayatı"nı unutmaq mümkün dyil. Kamançaçıların az-az istifadə etdiyi "züylü çalğı" (züylə çalmaq) xüsusi texniki baxımdan çətin bir ifadə vasitəsidir.

Züylü çalğıda kamança, eyni zamanda iki simin üstündə gəzir və bir simdə çalınan melodiyaya digər simin səslənməsi züy tutur. Azərbaycan musiqisində züy, Avropa musiqisində isə burdon adlanan bu səs çalınan muğamın mərkəzi istinad pərdəsinə uyğun olur. "Züylü çalğı" üsulundan köhnə sənətkarlardan İsmayıl Talışınski və müasirlərdən Habil Əliyev istifadə etmişlər. Məhz həmin üsul Nurəddin Bədəlovun ifasında son dərəcə effektli, cəlbedici idi və olduqca təbii alınırdı. Bu fikri biz onun lent yazılarına əsasən deyirik.

Nurəddin Bədəlovun gözəl bəstəçilik istedadı olub və bir sıra dəyərli havaların müəllifidir.

Üzeyir Hacıbəylinin sevimli şagirdi və lad nəzəriyyəsi üzrə onun ən böyük davamçısı Nurəddin Bədəlovun uşaqlıq dostu olan şəkili professor Məmmədsaleh İsmayılov həmişə deyərdi ki, Nurəddin böyük istedad sahibi idi. Heyif ki, onu ağır ailə şəraiti Bakıdan ayırdı. Məmmədsaleh müəllim söyləyirdi ki, bizim yeniyetmə çağlarımızda Şəkidə səssiz filmlər göstərirdilər. Mən və Nurəddin özümüzlə bir çalan da götürüb, muğam üçlüyü şəklində həmin filmlərin nümayişi zamanı zalda müxtəlif el havaları çalar, lal filmləri "dilləndirərdik" . Professor filmlərin içərisində "Gilan qızı" filminin adını çəkmişdi ki, Nurəddin müəllimin də ifasında belə bir havaya rast gəldik. Köhnə Şəki musiqiçiləri arasında yaxşı bəlli olan "Gilan qızı" adlı rəqs havası əvvəllər başqa ad daşımış, sonra isə həmin filmin nümayişi zamanı çalındığından onun adı ilə bağlanmışdır. "Gilan qızı" filmi

ilə əlaqədar onun meydana gəldiyini söyləmək bir qədər çətindir. Çünki melodik üslubuna görə həmin nümunəni daha əvvəlki dövrə aid etmək olar.

Nurəddin Bədəlovun ömür kitabını vərəqləyərkən onun pedaqoji fəaliyyəti ilə rastlaşdıq.

Nurəddin Bədəlovun başqa rayonlardakı fəaliyyətinə qısa səyahət edək.

Bəzi mənbələrə əsaslanıb deyə bilərik ki, o, 1937-1947-ci illər ərzində Ağdaş rayonunda işləyərək müsiqi təhsili verib. O vaxtlar Azərbaycanın görkəmli kamança ustası Habil Əliyev 10-15 yaşında kiçik uşaq idi. O, ilk kamança dərslərini də məhz Nurəddin müəllimdən alıb.

Nurəddin Bədəlov Ağdaşda işlədiyi vaxtlarda 1947-ci ildə əmək fəaliyyətinə görə "Şərəf" medalı ilə təltif edilmişdir. (15 iyun 1947 AÜ № 375733). Dəfələrlə dövlət medalı və diplomlarına layiq görülən Nurəddin Bədəlovun kamançasının fusunkar səsi hələ də yaşlı nəslin qulağında səslənməkdədir.

O, indiki Oğuz rayonunda da işləmişdir.

İstər el şənliklərində, istərsə də kütləvi tədbirlərdə Nurəddin Bədəlov qonşu şəhər və rayonların da qonağı olub. O, respublikamızın ən gözəl musiqiçiləri ilə sənət yolu keçib. Onlardan Seyid Şuşinski ilə, Veyis Hacıyevlə Ağdamda, Şəkidə istirahət evində İslam Rzayevlə, Mürşüd Məmmədovla, Əbülfət Əliyevlə, Qulu Əsgərovla, Şövkət Ələkbərova ilə, Mütəllim Mütəllimovla, Rübabə Muradova və bu kimi görkəmli ifaçılarla olan çıxışlarını qocaman Şəki sakinləri bu gün də çox yaxşı xatırlayırlar. Hətta deyirlər ki, Bülbül Şəkiyə və bu ətrafda olan rayonlara gələrkən özü ilə tar çalan Nüsrət Mikayılovu və kamançaçı Nurəddin Bədəlovu apararmış.

Nurəddin Bədəlov 1950-ci illərdə Şəki Teatrında fəaliyyətini davam etdirib. O vaxtlar Şəkidə xalq teatrı açılmışdı, musiqi hissəsinə Nurəddin Bədəlov başçılıq edirdi. O, Şəki teatrında oynanılan "Beş manatlıq gəlin", "Durna", "O olmasın, bu olsun", "Əsli və Kərəm", "Ər və arvad" və başqa tamaşaların musiqi tərtibatçısı və müşayiətçisi idi.

Nurəddin Bədəlov 1960-1965-ci illərdə yerli xanəndələrdən Mürşüd Məmmədov, Yunis Qarabağlı, Lütvəli Məmmədov, Əlövsət Hacıyev, Abit Hümmətov, Nurəddin Həmzəyev, Rasif Abdullayev, Abdurrəşid Məcidov və başqaları ilə yaradıcılığının son məqamlarını yaşamışdır. O, 1985-ci il, fevralın 19-da vəfat etmişdir. Amma sənətkardan qalan xatirələr və yadigar lent yazıları onu əbədi yaşadır. Belə ki, Moskvada nəşr olunan "Azerbaydjanskaya İnstrumentalnaya Muzıka" (Moskva - Narodnoye Tvorçestvo – 1990) kitabın kamançaya aid olan hissəsində onun ifasından

"Azərbaycan", İnnabı", "Şalaxo", "Turacı", "Şur" dəramədi, "Bayatı-Şiraz" dəramədi, "Müşgü"" rəqsi, "Nuxa" rəqsi nota köçürülmüşdür. Nurəddin Bədəlovun lent yazıları Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının xalq musiqisi kabinetində də qorunub saxlanılır. Biz "Şəkinin musiqi folkloru" tədqiqat işində həmin lent yazılarını nota salmışıq. Həmin nümunələri bu monoqrafiyaya da daxil edirik. Bunlar Nurəddin Bədəlovdan bizə qalan yadigarlardır.

RƏNG

İfaçı: Nurəddin Bədəlov
Not vazısı: Səadət Təhmirazqızı

Marşvari

GİRDİM YARIN BAĞÇASINA

İfaçı: Nurəddin Bədəlov
Not vazısı: Səadət Təhmirazqızı

Moderato cantabile

1.

2.

tar

kamança



Müşgü rəqsi

İfaçı: Nurəddin Bədəlov
Not yazısı: Səadət Təhmirazqızı





Züleyxa rəqsi

İfaçı: Nurəddin Bədəlov
Not yazısı: Səadət Təhmirazqızı



Allegro moderato

Allegro

MARŞ

İfaçı: Nurəddin Bədəlov
Not yazısı: Səadət Təhmirazqızı

Marşvari

ŞAHİD ƏBDÜLKƏRİMOV
1938-2003

Həvəskar bəstəkar, xor dirijoru, aktyor, müğənni, tarzən Şahid Qədir oğlu Əbdülkərimov 30 oktyabr 1938-ci ildə Şəki şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini 1948-ci ildə şəhər pionerlər evində tar müəllimi işləyən ustad sənətkar İbad Salmanovdan almışdır.

Şahid hələ şagird ikən təhsil aldığı orta məktəbdə bədii özfəaliyyət kollektivinin ən fəal üzvlərindən biri olub. 1956-cı ildə respublikanın əməkdar artisti Məmmədkəbir Hacı oğlu Şahidi şəhər mədəniyyət evində fəaliyyət göstərən dram dərnəyinə qəbul edir. Beləliklə, o, konsertlərdə tar çalmaqla bərabər, aktyorluq məharəti də göstərə bilir.

Şahid Əbdülkərimov 1957-ci ildə 12 saylı şəhər orta məktəbində təhsilini başa vurub, Bakı Mədəni-Maarif texnikumunun "xor dirijorluğu" şöbəsinə daxil olur. Müəllimləri arasında Qulu Əsgərovun onun yaradıcılığına xüsusi rəğbəti olmuşdur. Belə ki, o, Şahidin musiqi qabiliyyətinə yüksək qiymət vermiş, onunla bir neçə mahnı bəstələmişdir. 1960-cı ildə Şahid Əbdülkərimov təhsilini başa vurduqdan sonra Bakıda - Xırdalandakı 1 saylı orta məktəbdə musiqi müəllimi işləməklə əmək fəaliyyətinə başlamışdır.

O, 1961-ci ildə M.A.Əliyev adına Dövlət Teatr İnstitutunun (indiki - Mədəniyyət və İncəsənət Universitetinin) Mədəni-Maarif fakültəsinin axşam şöbəsinə daxil olur.

Tələbəlik illərində bir çox görkəmli müəllimlərdən dərs alır. Onların arasında unudulmaz bəstəkarımız Şəfiqə Axundovanın Şahidin yaradıcılığına mühüm təsiri olmuşdur. 1966-cı ildə ali təhsilini başa vuran Şahid uzun illər Xırdalan qəsəbəsində yaşamışdır.

Onun yüzdən çox mahnısı vardır. Radio və televiziyada ilk dəfə səslənən "Hanı bəs vəfan sənin?" mahnısı olub. Həmin mahnı unudulmaz sənətkar İslam Rzayevin ifasında ümumittifaq səsyazma fondunda vala yazılmışdır. "Naxçıvanım", "Ana torpağım mənim", "Bakı", "Təzə il", "May", "Xoş gəldin" mahnıları isə Azərbaycan Televiziyasının "Qırmızı qərənfil" uşaq xorunun ifasında lentə yazılmışdır. Unudulmaz bəstəkar Əfsər Cavanşirov həmişə deyərdi ki, Şahidin mahnılarını uşaqlar tez öyrənirlər. Çünki bu mahnıların musiqisi axıcı, ürəyə yatımlıdır, xalq ruhludur.

Sonralar Şahid "Sevgilimə könül açdım", "Təki sən səslə məni", "Ana məhəbbəti", "Biləydin kaş", "Gözəlim", "Sarı sim", "Nişan üzüyü", "Yurdumun qoynunda", "Heç küsməyin yeridirmi?", "Sevincim", "Azərbaycan", "Günüm keçməsin sənsiz", "Dayağım ol", "Niyə belə oldu",

"Sağıcı bacım mənim", "Gecələr" və b. mahnılarını bəstələmişdir. Bu mahnıları İslam Rzayev, Arif Babayev, Baba Mahmudoğlu, Məmmədbağır Bağırzadə, Rəhilə Həsənova, Nəzakət Məmmədova, Rövşən Behcət, Təhmiraz Şirinov, Gülyaz və Gülyanaq Məmmədovalar, Nüşabə Ələsgərli, Mənsum İbrahimov, Könül Xasıyeva və başqaları ifa etmişlər.

1974-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti, akademik Həsən Abdullayevin təşəbbüsü ilə Azərbaycan Televiziyasında Şəkinin özfəaliyyət kollektivlərinin konserti təşkil olunmuşdu.

Xatırladaq ki, o illərdə akademik Həsən Abdullayev Şəki şəhərindən Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdi. Sözügedən konsertdə "Zorxana" rəqs kollektivi, ümumittifaq laureatı Ələfsər Rəhimovun rəhbərliyi ilə zurnaçılar ansamblı, "Səbuhi" xalq çalğı alətləri ansamblı və digər bədii özfəaliyyət kollektivləri iştirak edirdi.

Onların arasında Şahid Əbdülkərimov da var idi. O, "Səbuhi" ansamblının müşayiəti ilə özünün bəstələdiyi "Təki sən səslə məni" və "Ana məhəbbəti" mahnılarını ifa etmişdi, ilk dəfə idi ki, Şahid Əbdülkərimovun mahnısı Azərbaycan Televiziyasında onun öz adı ilə səslənmişdir.

Həmin il Bakı rayonlararası xalq yaradıcılığı evində "Sən nəğmələr qoş" devizi ilə mahnı müsabiqəsi də keçirilmişdir. Müsabiqədə həvəskar bəstəkarlardan Qafar Namazəliyev, Bəhram Nəsibov, Şahid Əbdülkərimov və başqaları iştirak etmiş. Şahid müsabiqədə birinci yeri tutmuş, diplom və hədiyyə ilə mükafatlandırılmışdır.

1976-cı ildə o, Şəkiyə dəvət olunmuş və tibb işçiləri mədəniyyət evinin direktoru vəzifəsinə təyin edilmişdir. Burada o, "Şəfa" mahnı və rəqs ansamblı təşkil etmişdir. Yorulmadan çalışan sənətkar dəfələrlə "Səbuhi" xalq çalğı alətləri ansamblı ilə Moskvada, Gürcüstanda, respublikamızın şəhər və rayonlarında qastrollarda olmuş, bütün gücünü musiqimizin təbliğinə həsr etmişdir.

Şahidin yazdığı mahnıların sözləri tanınmış şairlərdən Əliağa Kürçaylı, Bəxtiyar Vahabzadə, Süleyman Rüstəm, Cabir Novruz, Ramiz Məmmədzadə, Arif Abdullazadə və başqalarına məxsusdur.

1988-ci ildə Abşeron rayonunda və Şəkidə bəstəkarın 50 illik yubileyi qeyd edilmişdir. Həmin ildən ömrünün sonunadək Şahid Şəkidə yaşamış, 2003-cü ilin iyul ayının 17-də 65 yaşında vəfat etmişdir.

Son dərəcə istedadlı musiqiçi olan Şahid Əbdülkərimov gözəl lirik səsə malik idi. Odur ki, yazdığı mahnıların ilk ifaçısı məhz özü olmuşdur.

Biz bu monoqrafiyaya Şahid Əbdülkərimovun bir neçə mahnısının not yazılarını daxil etmişik. Onlar lirik xalq mahnı növünə aiddir. Onu da qeyd etməliyik ki, ilk dəfədir ki, Şahid Əbdülkərimovun mahnıları nota köçürülür. Bunlar Azərbaycan Dövlət Radiosunun fondundan köçürülmüş Nəzakət Məmmədovanın ifasında "Təki sən səslə məni", Arif Babayevin ifasmda "Könül açdım" və Təhmiraz Şirinovun ifasında "Gözəlim" mahnılarıdır.

KÖNÜL AÇDIM





2. Eşqi etmə bəyan dedi (2)
Hələ tezdir dayan dedi (2)
Üzəyində can-can dedi (2)
Bəyənmədi dildə məni (2)

Nəqərat: təkrar

GÖZƏLİM

Sözləri: Süleyman Rüstəm
Not yazısı: Səadət Təhmirazqızı

Allegretto





2. Varlığım, xoş əmələlim,] 2 dəfə
Güllü baharım sənsən.
Bu ürək sözlərimə] 2 dəfə
Şübhə əbəsdir, gözəlim.
Sevməyirsənsə əgər] 2 dəfə
Qəlmə uzaqdan (3).
Səni görmək yenə də (2)] 2 dəfə
Rüstəmə bəsdir, gözəlim.

TƏKİ SƏN SƏSLƏ MƏNİ

Sözləri: Əliağa Kürçaylı
Not yazısı: Səadət Təhmirazqızı



Eşqə yurd olsa sinəm,
Qocalıb gəlsəm əgər,
Dönərəm, gəncləşərəm.
Təki səs səslə məni.] 2 dəfə

Nəqərat:

Sənsən eşqim, əməlim,
Gəlsə bir gündə qəmim,] 2 dəfə
Vermərəm can ay gülüm,
Təki sən səslə məni.] 2 dəfə

YUNİS MƏMMƏDOV (QARABAĞLI)
1909-1985

Yunis Şükür oğlu Məmmədov (Qarabağlı) 1909-cu il fevralın 8-də Ağdam şəhərində anadan olmuşdur. Hələ 10 yaşında ikən balaca Yunisin ecazkar səsi Əhməd Ağdamskini heyrətə gətirir. O, 1923-1928-ci illərdə Ağdam barama toxumu zavodunda işləyir. Eyni zamanda konsertlərdə və el şənliklərində çıxış edir. 1927-ci ildə Əhməd Ağdamskinin təklifinə əsasən Yunis Ağdam Teatrında Üzeyir Hacıbəylinin "Şah Abbas və Xurşud Banu" operasında Şah Abbas, "Leyli və Məcnun" operasında isə Məcnun rolunda çıxış etmişdir. 1928-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyli, Bülbül və Seyid Şuşinski Ağdamda olarkən Yunis Qarabağlının ecazkar səsi onların da xoşuna gəlir və onu Bakıya dəvət edirlər. O, 1929-1933-cü illərdə Azərbaycan Dövlət Dram Teatrında işləyir. Burada teatr studiyasında Cəfər Cabbarlı, Hüseyn Cavid, Əbdürrəhimbəy Haqverdiyevdən dərs alır.

1933-cü ildə Şəkidə Sabir adına Dövlət Dram Teatrı açılır. Rejissor Həsən Əliyevin rəhbərliyi ilə 35 nəfərdən ibarət aktyor qrupu Şəkiyə gəlir. Beləliklə, Yunis də həyatını Şəki torpağı ilə bağlayır. Şəki Teatrında Yunis Məmmədov Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Arşın mal alan", "Məşədi İbad", Z.Hacıbəyovun "Aşıq Qərib", C.Cabbarlının "Solğun çiçəklər", M.İbrahimovun "Toy", S.Vurğunun "Vaqif" S.Rüstəmovun" "Durna", A.Məşədibəyovun "Toy kimindir" və digər əsərlərdə Yusif Vəliyev, Məmməd Burcəliyev, Sədayə Mustafayeva, Kamil Qubuşov, Baxşəli Axundov, Zahid Məmmədov, Musa Əhmədzadə, Məmməd Xaliqov, Məmmədkəbir Hacıoğlu, Bilqeyis Ələsgərova, İsabala Mustafayev kimi aktyorlarla birlikdə əsas rollarda çıxış etmişdir. Həmin illərdə Şəki Teatrının rejissoru vəzifəsində Həsən Əliyev, Yusif Yulduz, Mikayıl Ağayev, Heydər Şəmsizadə çalışmışlar.

1942-ci ildə Şuşada qastrolda olarkən Yunis Məmmədov Ü. Hacıbəylinin "Leyli və Məcnun" operasında Məcnun rolunda çıxış edir. Orada istirahət edən qocaman opera artisti Hüseynqulu Sarabski Yunisin Məcnun rolunu yüksək qiymətləndirirərək onu Bakıya Opera və Balet Teatrına dəvət etmişdir.

Hüseynqulu Sarabskidən sonra Məcnun rolunun mahir ifaçıları içərisində Yunis Məmmədovun da adını çəkə bilərik.

1948-ci ildə Sabir adına Şəki Teatrı bağlanır. Yunis Məmmədov 1948-1968-ci illərdə Şəki İpək Kombinatında klub müdiri vəzifəsində çalışır. Şəki camaatının böyük sevgisinə layiq olan Yunis Məmmədov şəkililər

tərəfindən "Qarabağlı" ləqəbi ilə çağırılır. Odur ki, onun adı Şəki ifaçılıq sənətində də Yunis Qarabağlı kimi qalıb.

1949-1952-ci illərdə onun təşəbbüsü ilə Seyid Şuşinski, Xan Şuşınski, Mütəllim Mütəllimov, İldırım Həsənov, Sahib Şükürov, Veyis Hacıyev kimi xanəndələr Şəkiyə dəvət olunmuş və zəhmətkeşlər qarşısında konsertlər vermişlər. Həmin illərdə Yaqub Məmmədov, Mürşüd Məmmədov, Nəsib İbrahimov, Abdurrəşid Məcidov, Nazim İlyasov kimi xanəndələr Yunis Qarabağlıdan muğamın sirrlərini öyrənmişlər. Şəkidə gənc xanəndələrdən Abid Hümmətovun, Ənvər Əbdülhəmidovun, Fərman Xəlilovun, Əliosman Hacıyevin və başqalarının yetişməsində də sənətkarın böyük rolu olmuşdur.

O, 1968-1975-ci illərdə Şəkidə Xalq Teatrında rəssam, 1975-1985-ci illərdə isə S.Rəhman adına Dövlət Dram Teatrında budafor vəzifələrində çalışmışdır.

Yunis Qarabağlı C.Cabbarlı adına "Azərbaycanfilm" studiyasmda çəkilmiş "Səbuhi", "Leyli və Məcnun", "Dəli Kür", "Yenilməz batalyon", "Ögey ana", "Arxadan vurulan zərbə" filmlərində də epizodik rollarda çəkilmişdir. Sözün əsl mənasmda, Yunis Qarabağlı opera artisti, təkrarsız xanəndə, mahir gülüş ustası, rejissor, rəssam və el sənətinin gözəl bilicilərindən biri olmuşdur.

O, 1985-ci ilin noyabr aynın 3-də 76 yaşında vəfat etmişdir.

Şəki şəhər Mədəniyyət şöbəsi tərəfindən dəfələrlə sənətkarın xatirə gecələri keçirilib. Eyni zamanda uzun illərdir ki, şəhərdə onun adını daşıyan klub fəaliyyət göstərir.

Yunis Qarabağlının 100 illik yubileyi ərəfəsində şəhərdə fəaliyyət göstərən klub müəssisələrində müxtəlif tədbirlər həyata keçirilmişdir. Onun şəninə bir neçə şeirlər də yazılıb. Onlardan bir neçə nümunə:

YUNIS DAYI, YUNİS DAYI

Ölməz el sənətkarımız, muğam sənətimizin misilsiz ifaçısını Şəki mədəniyyətinin fəxri, Məcnun və Kərəm surətlərinin təkrarsız yaradıcısı Yunis Qarabağlının 100 illiyinə.

Səsi eşqin sədasıdır
Tarixlərdə qalasıdır
Qarabağın balasıdır
Yunis dayı, Yunis dayı.

Şəki ona meydan idi
Sənətinə heyran idi
Nur sifətli insan idi
Yunis dayı, Yunis dayı.

Ağdamda açdı gözünü
Leyliyə dedi sözünü
Məcnun etdi öz-özünü
Yunis dayı, Yunis dayı.

Füzulini yada saldın
Ölməz səsinlə ucaldın
Tarixlərdə Məcnun qaldın
Yunis dayı, Yunis dayı.

Kərəm oldu, Sərvər oldu
Adı dildə əzbər oldu
Səsiylə bəxtəvər oldu
Yunis dayı, Yunis dayı.

Muğama nəfəs gətirdi
Yetmiş altı yaş bitirdi
Gözəl övladlar yetirdi
Yunis dayı, Yunis dayı.

Zirvələrdə qaldı izi
Səslə vurğun etdi bizi
Ruhlandırdı qəlbimizi,
Yunis dayı, Yunis dayı.

Mürşüd, Abid tələbəsi
Ənvər, Fərman qələbəsi
"Qarabağın şikəstəsi"
Yunis dayı, Yunis dayı.

Haqq içində dönməz oldun
Günəş kimi sönməz oldun
Yüz yaşında ölməz oldun
Yunis dayı, Yunis dayı.

Qurtuluşam, səni andıq
Səni ölməz ustad sandıq
Yoxluğuna yaman yandıq
Yunis dayı, Yunis dayı.

Qurtuluş Süleymanlı
Şəki şəhəri, 22 fevral 2009-cu il

Ağdamın

Göz açıbdı dünyaya
Qucağında Ağdamın
Dönüb şeyda bülbülə
Gül bağında Ağdamın.

Səs qüvvəti-dağ zoru
Səs alovu-səs qoru.
Məhəbbəti səs nuru
Çırağında Ağdamm.

Zərləşib səs aləmi,
Xoş bir nəfəs aləmi.
Səslənib nəğmə kimi
Dodağında Ağdamın.

Şəki bir ana kimi

Ruhunu oxşayıbdı
Şəki bir ana kimi
Yoluna nur yayıbdı
Şəki bir ana kimi.

Səs rübabın çalıbdı
Qəlbində yurd salıbdı
Qayğısına qalıbdır
Şəki bir ana kimi

Boynuna qol keçirib
Səs şərbəti içirib
Ürəyinə köçürüb
Şəki bir ana kimi

Tutuşar səs oduna,
Dönər nəğmə notuna
Çələng bağlar adına
Şəki bir ana kimi.

Elə bağlı sənətkar
Elinə qəlbən yanar.
İsa, Yunisi anar
Şəki bir ana kimi.

İsa Şuşalı
Şəki şəhəri

Üzeyir Hacıbəyli adma Bakı Musiqi Akademiyasının "Xalq musiqisi" kabinetində Yunis Qarabağlının bir neçə lent yazısına rast gəldik. Bunlar 1970-ci illərdə Şəkiyə olunan eskpedisiyalar zamanı yazılmışdır. Həmin lent yazılarından xanəndənin oxuduğu qədim xalq mahnılarını nota yazaraq onları "Şəkinin musiqi folkloru" tədqiqat işinə daxil etdik. Şəkinin qocaman sənətkarları bu mahnıların Yunis Qarabağlı tərəfindən qoşulduğunu söylədilər. Həmin mahnıların not yazılarını təqdim edirik.

NAZƏNİN

İfaçı: Yunis Məmmədov (Qarabağlı)
Not yazısı: Səadət Təhmirazqızı



Süzülüb xallar düzülüb
Qadan allam, sənin ay,
Qadan allam, sənin.
Gülgəz yanaq xal bəzənib
Qadan allam, sənin ey,
Qadan allam, sənin.
Bir gün gəl bizə
Qadan allam, sənin ay,] 2 dəfə
Qadan allam, sənin.

XALABACI

İfaçı: Yunis Məmmədov (Qarabağlı)
Not yazısı: Səadət Təhmirazqızı



Apar məni bəndə vur (2)
Zülfünlə kəməndə vur. (2)
Aləm gözələ dönsə (2)
Mənim gözüm səndədir.
Mənim balam lap qəşəngdir,
Özü də balam lap göyçəkdir.] 2 dəfə

AĞ DƏVƏ DÜZDƏ QALDI və ya LƏLLİ

İfaçı: Yunis Məmmədov (Qarabağlı)
Not yazısı: Səadət Təhmirazqızı



2. Oğlanı hal apardı yar,
Ləlli, qurbanın olum.] 2 dəfə
Dərmanı qızda qaldı yar, ləlli,
Ay ləli, yar ləlli, yar ləlli. (2)

3. Təbi düşdü marağa yar,
Ləlli, qurbanın olum.] 2 dəfə
Telim gəlməz darağa yar, ləlli,
Ay ləli, yar ləlli, yar ləlli. (2)

4. Yar yarı qonaq eylədi,
Ləlli, qurbanın olum.] 2 dəfə
Bir stəkan şəraba, ay ləlli,
Ay ləli, yar ləlli, yar ləlli. (2)

DİL HƏBƏŞİ VƏ YA BAĞDA GÜLLƏR

İfaçı: Yunis Məmmədov (Qarabağlı)
Not yazısı: Səadət Təhmirazqızı



2. Dil həbəşi, dil həbəşi
Xeyli mətin yarın istər — 2 dəfə
Amma ki, bil cavandır,
Sevdiyim bir canandır,
Canımı, könlüm istər. — 2 dəfə

ƏHMƏDBƏY TAHİROV
1872-1958

Əhmədbəy Mahmud oğlu Tahirov 1872-ci ildə Şəkidə anadan olmuşdu. Hələ uşaq yaşlarından tarın ecazkar sirrlərinə yiyələnmişdi. Onun ilk müəllimi dövrünün ustad sənətkarlarından biri Samavar oğlu Çələbi olmuşdur. Əhmədbəy hələ gənc yaşlarında böyük xanəndələr Ələsgər Abdullayevi, Cabbar Qaryağdıoğlunu, Seyid Şuşiskini el şənliklərində müşayiət etmişdi.

1937-ci ildə Əhmədbəy Tahirov unudulmaz el sənətkarlarından biri olan İbad Rəhmətullayevlə birlikdə uşaq musiqi məktəbini təşkil etmişlər. Uşaq musiqi məktəbində tar sinfi açan və uzun illər tarın ecazkar sirrlərini şagirdlərə öyrədən ustadın, Məhərrəm İsmayılov, İbad Salmanov, Fərrux Abdurəhimov, Abdurrəşid Seyidov, Nemət Məmmədov və Ələfsər kimi sənətkarların yetişməsində əvəzsiz xidməti olmuşdur.

Əhmədbəy Nurəddin Bədəlov, Fərrux Məcidov kimi kamança ifaçıları ilə el şənliklərində və kütləvi tədbirlərdə Yunis Qarabağlı, Şəmsəddin Abdullayev, İsmayıl Mustafayev, Veyis Hacıyev kimi xanəndələri müşayiət etmişdir.

1955-ci ildə respublikanın xalq artistləri, bəstəkarlar Soltan Hacıbəyov, Səid Rüstəmov və baletmeyster Əlibala Abvdullayev folklor nümunələri toplamaq məqsədi ilə Şəkiyə gəlirlər. Onlar burada istedadlı musiqi bilicisi, xalq musiqisi folklorunun təbliğatçısı Əhmədbəylə tanış olurlar.

Elə həmin vaxt Səid Rüstəmovun təklifi ilə Əhmədbəyin ifasında "Segah", "Orta Mahur", "Çahargah" muğamları, eləcə də "Üç barmaq", "Müşgü" , "Şəki" və b. Mahnılar və rənglər lentə alınır.

Əhmədbəy 1934-48-ci illərdə Sabir adına Dövlət Teatrının xalq çalğı alətləri orkestrinin tərkibində çıxış etmişdir. Eyni zamanda Şəki Pedaqoji Texnikumunda uzun illər musiqi müəllimi işləmişdir. Əhmədbəy Tahirov 1958-ci ildə 86 yaşmda vəfat etmişdir

NÜSRƏT MİKAYILOV

Mikayılov Nüsrət Zahid oğlu 1933-cü ildə Şəkidə anadan olmuşdur. Kiçik yaşlarından tar çalmağa olan xüsusi həvəsi onu uşaq musiqi məktəbinə gətirir. İlk tar müəllimi məşhur tarzən Əhməd bəy Tahirov olur. 1952-ci ildə musiqi məktəbində təhsilini tamamlayır. Bu məktəbdə oxuyan zaman o, həm də pionerlər evinin xalq çalğı alətləri ansamblında çıxış edirdi.

Ordu sıralarında hərbi xidmətini başa vurduqdan sonra 1955-1958-ci illərdə rayon mədəniyyət evində xalq çalğı alətləri ansamblının rəhbəri vəzifəsində çalışmışdır.

1958-ci ildə Şəkidə ilk dəfə orta ixtisas musiqi məktəbi açılır. Məktəbin direktoru istedadlı musiqiçi Maqsud Şirinzadənin təklifi ilə həmin məktəbə daxil olan Nüsrət Mikayılov 1962-ci ildə bu məktəbin 9 məzunundan biri olur. Həmin məktəbdə onun tar müəllimi Nemət Məmmədov olub.

Nüsrət Mikayılov 1956, 1957 və 1962-ci illərdə keçirilən Respublika gənclərinin festivallarında uğurla çıxış etmişdir.

1960-cı ilin may ayı onun yaradıcılığı üçün əlamətdar olub. Belə ki, SSRİ xalq artisti Bülbül bir qrup incəsənət xadimləri ilə bərabər Şəki, Qax, Zaqatala, Balakən rayonlarına, həmçinin Gürcüstan SSRİ-nin azərbaycanlılar yaşayan bölgələrinə qastrol səfərinə çıxıblarmış. Onlar Şəkiyə gələndə Bülbülü tarda müşayiət edən məşhur tarzən Həbib Bayramovu xaricə qastrol səfərinə getmək üçün Bakıya çağırırlar. Onu əvəz etmək üçün Şəkinin tanınmış üç tarzənini dinləyən Bülbül gənc Nüsrətin ifasını bəyənmişdi. Beləliklə o, Bülbülü, Tükəzban İsmayılovanı və başqa müğənniləri kamançа ustası Tələt Bakıxanov və dəf çalan Paşa Ələkbərovla birlikdə müşayiət etmişdir. Qastrol səfərindən qayıtdıqdan sonra Bülbül Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən Nüsrət Mikayılova təşəkkür məktubu göndərmişdi.

O, 1962-1965-ci illərdə uşaq musiqi məktəbində, 1965-1981-ci illərdə isə Şəki orta ixtisas musiqi məktəbində tar müəllimi vəzifəsində işləmişdir. 1981-1983-cü illərdə Turan qəsəbəsində uşaq musiqi məktəbinin, 1983-1986-cı illərdə şəhər 1 saylı uşaq musiqi məktəbinin direktoru olmuşdur. 1986-cı ildən 2005-ci ilədək musiqi texnikumunda, 2005-ci ildən isə uşaq incəsənət məktəbində işləyib.

Nüstər Mikayılov dəfələrlə Bakıda Respublika əhəmiyyətli tədbirlərdə, respublikamızın bir çox şəhər və rayonlarında zəhmətkeşlər qarşısında verilən konsertlərdə uğurla çıxışlar etmişdir.

İBAD SALMANOV
1904-1989

İbad Yusif oğlu Salmanov 1904-cü ildə Şəkidə anadan olmuşdur. Uşaq yaşlarından onda musiqiyə böyük maraq yaranır. Onun ilk sənət müəllimi Samavar oğlu İdris olsa da mahir tarzən Əhmədbəy Tahirovdan da bu sənətin sirlərini öyrənmişdir. Artıq 20 yaşında ikən İbad Salmanov toylarda və el şənliklərində iştirak edir.

1933-cü ildə Şəkidə Sabir adına Dram Teatrının açılması İbad Salmanovun həyatında əlamətdar bir hadisəyə çevrilmişdir. Belə ki, İbad Salmanov o zaman məşhur musiqiçilərdən hesab edilən Şəki uşaq məktəbinin ilk banisi İbad Rəhmətullayevin rəhbərlik etdiyi orkestrdə işə düzəlir. 1933-1937-ci illərdə, yəni İbad Salmanov teatrda işlədiyi müddətdə Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Arşın mal alan", O olmasın, bu olsun", Z.Hacıbəyovun "Aşıq Qərib", S.Rüstəmovun "Durna", S.Vurğunun "Vaqif", C.Cabbarlının "Solğun çiçəklər", S.Rəhmanın "Xoşbəxtlər" və s. əsərlərdə respublikanın xalq artistləri Yusif Vəliyev, Məmməd Burcəliyev, Sədayə Mustafayeva, əməkdar artistlərdən Kamil Qubuşov, Məmmədkəbir Hacıoğlu, Bilqeyis Ələsgərova, artistlərdən Yunis Qarabağlı, İsabala Mustafayev, Mustafa Əhmədzadə kimi aktyorlarla çiyin-çiyinə çalışmışdır.

Həmin dövrlərdə İbad Salmanov, Ələvsət Sadıqov, Hacıbala Məmmədov, Şəmsəddin Abdullayev, zərgər Məmməd, Ələsgər Sadıqov kimi xanəndələri toylarda və el şənliklərində müşayiət etmişdir.

1937-ci ildə İbad Salmanovun təşəbbüsü ilə Şəkidə Pionerlər evi təşkil olunmuşdur. O, ömrünün 30 ilini gənc musiqiçilər nəslinin yetişdirilməsinə həsr etmişdir.

İbad Salmanov 1950-1960-cı illərdə Məhərrəm İsmayılov, Fərrux Abdurrəhmanov, Nurəddin Bədəlov, Fərrux Məcidov kimi sənətkarlarla birlikdə Yaqub Məmmədov, Mürşüd Məmmədov, Lütvəli Məmmədov, Əbdürrəşid Məcidov, Nəsib İbrahimov, Abid Hümmətov kimi xanəndələri müşayiət etmişdir. Şəkinin ən istedadlı musiqiçilərindən Məmməd Nəsrullayev, respublikamızın tanınmış həvəskar bəstəkarlarından Şahid Əbdulkərimov, folklorçu, musiqişünas-alim Faiq Çələbiyev, gözəl tarzən Seyran Zülfüqarov və başqaları İbad Salmanov məktəbinin yetirmələridirlər.

İbad Salmanov uzun müddət Şəki şəhər mədəniyyət evində təşkil olunmuş konsert briqadalarının tərkibində Gürcüstanda, Dağıstanda, respublikamızın şəhər və rayonlarında zəhmətkeşlər qarşısında çıxışlar etmişdir. Onun şövqlə çaldığı "Mahur", "Bayatı- Şiraz", "Rast", "Qatar", "Segah" muğamları bu gün də bizim üçün əvəzsizdir.

İbad Salmanov sözün əsl mənasında işgüzar, son dərəcə tələbkar, qayğıkeş, unudulmaz müəllim, gözəl müşaiyətçi, qədim xalq musiqisinin

dərin bilicilərindən biri olub. Əfsuslar olsun ki, onun lent yazıları o qədər də çox deyil.

İbad Salmanov 1989-cu il aprel ayının 10-da 85 yaşında ikən vəfat etmişdir. Şəkidə onun xatirəsi əbədiləşdirilniiş, şəhər klublarının birinə İbad Salmanovuıı adı verilmişdir. Şübhəsiz İbad Salmanov kimi sənətkarların xatirəsi heç zaman unudulmur. Elə sənətkar haqqında yazılan şeirlər də deyilənlərə əyani misaldır və ustadın xatirəsinə bir töhfədir. Həmin şeirlərdən bir neçəsini təqdim edirik.

RUHU OLSUN ŞAD

Bu şeiri tarzən İbad Salmanova ithaf edirəm.

Bu gülşən Şəkidə rəhmətlik İbad,
Gözəl tar çalmaqda qazanmışdı ad
O, böyük ustada şer etdim, inşad
Qoy olsun hər bir an onun ruhu şad.

İbad bir müqtədir sənətkar idi
Tarı ən müqəddəs bir şey sanırdı
Hərdən vəcdə gəlib muğam çalanda
Nurlanıb məşəl tək qəlbən yanırdı.

Yolçunu saxlardı tarın sədası
Çaldığı sanki hər qəlbin səsiydi
Desəm yanılmaram İbad müəllimin
Sinəsi nəğmələr xəzinəsiydi.

O, tarda çalanda "Yetim segahı"
Elə bil yarpaqlar pıçıldaşırdı.
Mizrabı vuranda hərdən kök simə
Qəlbində duyğular coşub daşırdı.

O,"Şur"da çalardı, "Rast"da çalardı.
Gah zildə, gah da ki, pəsdə çalardı
Musiqi bilən kəs, hiss eyləyən kəs
Bilərdi ki, hansı rəngdə çalardı.

Sədəfli tarını köksünə sıxıb,
Arabir mahnı da bəstələyirdi.
Həzin nəğmələri aramla çalıb,
Bülbülü susdurub məst eyləyirdi.

Mən elə sanıram o böyük insan
Ölməyib a dostlar o yenə sağdır.
Anamız torpağa qonaq getsə də
Duyan ürəklərdə yaşayacaqdır.

Ey Mahir, Şəkidə o böyük ustad
Gözəl tar çalmaqla qazanmışdı ad
Mən də sənətkara şeir yazdım ki,
Qoy onun pak ruhu daim olsun şad

Yaqub Mahir 30.07.1993-cü il.

USTAD İBAD TAR ÇALANDA

Həsrət buzu əriyərdi,
Ağlar könül kiriyərdi.
Aləmi nur bürüyərdi,
Ustad İbad tar çalanda.

Eşq ocağı alışardı,
Ah ürəkdən sovuşardı.
Yar-yarına qovuşardı,
Ustad İbad tar çalanda.

Coşdurardı qəlbi qürur,
Haqq deyərdi şər boynun vur.
Süzülərdi ürəyə nur,
Ustad İbad tar çalanda.

"Segah" qəlbdə gül açardı,
"Şur" körpə tək dil açardı.
"Rast" zirvəyə yol açardı,
Ustad İbad tar çalanda.

Göz nurlanar, qəlb gülərdi,
Tar sədası dağ dələrdi.
Şəkidə el sevinərdi,
Ustad İbad tar çalanda.

"Xan yaylağı"n seyrinə dal,
"Marxala" da yolunu sal.
Şeyda bülbül olardı lal.
Ustad İbad tar çalanda.

İsa olar elə gərək,
El eşqiylə vurar ürək.
Çağlardı tar bir çeşmə tək,
Ustad bad tar çalanda.
Ustad İbad tar çalanda.

İsa Şuşalı. 26.07.1993-cü il

dərin bilicilərindən biri olub. Əfsuslar olsun ki, onun lent yazıları o qədər də çox deyil.

İbad Salmanov 1989-cu il aprel ayının 10-da 85 yaşında ikən vəfat etmişdir. Şəkidə onun xatirəsi əbədiləşdirilmiiş, şəhər klublarının birinə İbad Salmanovun adı verilmişdir. Şübhəsiz İbad Salmanov kimi sənətkarların xatirəsi heç zaman unudulmur. Elə sənətkar haqqında yazılan şeirlər də deyilənlərə əyani misaldır və ustadın xatirəsinə bir töhfədir. Həmin şeirlərdən bir neçəsini təqdim edirik.

RUHU OLSUN ŞAD

Bu şeiri tarzən İbad Salmanova ithaf edirəm.

Bu gülşən Şəkidə rəhmətlik İbad,
Gözəl tar çalmaqda qazanmışdı ad
O, böyük ustada şer etdim, inşad
Qoy olsun hər bir an onun ruhu şad.

İbad bir müqtədir sənətkar idi
Tarı ən müqəddəs bir şey sanırdı
Hərdən vəcdə gəlib muğam çalanda
Nurlanıb məşəl tək qəlbən yanırdı.

Yolçunu saxlardı tarın sədası
Çaldığı sanki hər qəlbin səsiydi
Desəm yanılmaram İbad müəllimin
Sinəsi nəğmələr xəzinəsiydi.

O, tarda çalanda "Yetim segahı"
Elə bil yarpaqlar pıçıldaşırdı.
Mizrabı vuranda hərdən kök simə
Qəlbində duyğular coşub daşırdı.

O,"Şur"da çalardı, "Rast"da çalardı.
Gah zildə, gah da ki, pəsdə çalardı
Musiqi bilən kəs, hiss eyləyən kəs
Bilərdi ki, hansı rəngdə çalardı.

Sədəfli tarını köksünə sıxıb,
Arabir mahnı da bəstələyirdi.
Həzin nəğmələri aramla çalıb,
Bülbülü susdurub məst eyləyirdi.

Mən elə sanıram o böyük insan
Ölməyib a dostlar o yenə sağdır.
Anamız torpağa qonaq getsə də
Duyan ürəklərdə yaşayacaqdır.

Ey Mahir, Şəkidə o böyük ustad
Gözəl tar çalmaqla qazanmışdı ad
Mən də sənətkara şeir yazdım ki,
Qoy onun pak ruhu daim olsun şad

Yaqub Mahir 30.07.1993-cü il.

USTAD İBAD TAR ÇALANDA

Həsrət buzu əriyərdi,
Ağlar könül kiriyərdi.
Aləmi nur bürüyərdi,
Ustad İbad tar çalanda.

Eşq ocağı alışardı,
Ah ürəkdən sovuşardı.
Yar-yarına qovuşardı,
Ustad İbad tar çalanda.

Coşdurardı qəlbi qürur,
Haqq deyərdi şər boynun vur.
Süzülərdi ürəyə nur,
Ustad İbad tar çalanda.

"Segah" qəlbdə gül açardı,
"Şur" körpə tək dil açardı.
"Rast" zirvəyə yol açardı,
Ustad İbad tar çalanda.

Göz nurlanar, qəlb gülərdi,
Tar sədası dağ dələrdi.
Şəkidə el sevinərdi,
Ustad İbad tar çalanda.

"Xan yaylağı"n seyrinə dal,
"Marxala" da yolunu sal.
Şeyda bülbül olardı lal.
Ustad İbad tar çalanda.

İsa olar elə gərək,
El eşqiylə vurar ürək.
Çağlardı tar bir çeşmə tək,
Ustad bad tar çalanda.
Ustad İbad tar çalanda.

İsa Şuşalı. 26.07.1993-cü il

HƏBİBULLAH CƏFƏROV
1902-1985

Həbibullah Cəfərov 1902-ci ildə Şəkinin Kiçik Dəhnə kəndində anadan olmuşdur. Uşaqlıqdan çobanlıq edən Həbibullahın musiqiyə böyük həvəsi varmış. Qarğıdan tütək düzəldib çalardı. Sonralar qoşa sümsüdə də çalmağı öyrənmişdi. İfaçılığını təkmilləşdirən Həbibullah qara zurnanın mahir ustası olmuşdu. Beləliklə, o, nəinki Şəkidə, eləcə də qonşu rayonların el şənliklərində və toy-düyünlərində zurnanı şövqlə çalardı.

Onun barəsində məlumatlar hətta Bakıya çatmış və dahi bəstəkar Üzeyir Hacıbəylinin dəvəti ilə o, dövlət əhəmiyyətli tədbirlərdə iştirak etmişdir.

Həbibullah Cəfərov üçün ən unudulmaz hadisə 1938-cı ildə baş vermişdi. Belə ki, məşhur rəqqasə Əminə Dilbazi həmin il Şəkinin Oxud kəndinə gəlmiş və bu kənddə Alxasovlar ailə ansamblını təşkil etmişdir. Rəqs qrupu 6 nəfərdən ibarət olmuş və onları Həbibullah Cəfərovun zurnaçılar dəstəsi müşayiət etmişdi. Bu qrup həmin il Moskvada keçirilən incəsənət Dekadasında uğurla çıxış edərək yekun konsertində də Kremlin Qurultaylar sarayında alqışlarla qarşılanırlar.

Həbibullah Cəfərov 1945-ci ilin may ayının 9-da Moskvada keçirilən qələbə bayramında Qızıl meydanda öz dəstəsi ilə çıxış etmişdir. Bundan başqa o, 1959-cu ildə Moskvada keçirilən Azərbaycan mədəniyyət və incəsənət ongünlüyündə, 1967-ci ildə SSRİ-nin yaradılmasının 50 illiyi yubileyinə həsr edilmiş yubiley şənliklərində Azərbaycan mədəniyyət və incəsənət nümayəndələrinin tərkibində olmuşdur.

Bu uğurlarına görə, Həbibullah Cəfərov SSRİ Ali Sovetinin fərmanına əsasən "Əmək igidliyinə görə" medalı ilə təltif edilmişdir.

O, uzun illər özünün təşkil etdiyi zurnaçılar dəstəsində Zeynal Qasımov, Abdurrəhman Məmmədov, Məmmədiyyə Sadıqov, Cəfərxan Cəfərov, Məmməd Hacıyev, Həsən Süleymanov, Nurəhməd Bəkirov, Yaqub Səlimov kimi el sənətkarları ilə birlikdə çıxışlar etmişdir. Onun qədim folklor nümunələrinin, xalq rəqslərinin toplanmasında mühüm əhəmiyyəti olub. Ümumittifaq "Melodiya" firması sənətkarın bir neçə ifasını qrammafon valına köçürmüşdür.

Həbibullah Cəfərov dəfələrlə qonşu Gürcüstanda, Dağıstanda, Orta Asiya respublikalarında keçirilən mədəni-kütləvi tədbirlərdə, eləcə də Azərbaycan televiziyasında, Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə uğurla çıxışlar etmişdir.

Onun Ələfsər Rəhimov, Rəcəbalı Əliyev, Bünyad Kərimov, Bəhram Məmmədov, Əhməd Qafarov kimi sənətkarların yetişməsində xüsusi xidməti olmuşdur.

O, dəfələrlə Azərbaycan SSR Ali Sovetinin, Mədəniyyət Nazirliyinin, Şəki şəhər partiya komitəsinin fəxri fərmanları ilə mükafatlandırılmışdır.

Sağlığında, 1962-ci ildə 60 illik, 1972-ci ildə 70 illik, 1982-ci ildə 80 illik yubileyləri keçirilmişdir.

Ustad sənətkar 1985-ci ildə vəfat etmişdir. Kiçik Dəhnə kənd klubuna Həbibullah Cəfərovun adı verilmişdir. 2002-ci ildə Şəkidə sənətkarın 100 illik yubileyi keçirilmişdir.

Onun oğulları Əşrəf, Əkrəm və nəvəsi Laçın da mahir zurna ifaçılarıdır.

Laçın Bayramovun rəhbərlik etdiyi zurnaçılar dəstəsi Həbibullah Cəfərovun adını ləyaqətlə qoruyur və Şəkidə keçirilən tədbirlərdə yaxından iştirak edirlər. Ustadın xatirəsi daim əziz tutulur və şairlər ona şeirlər ithaf edirlər. Həmin şeirlərdən nümunə:

HƏBİBULLAH ÇALANDA

Daşan çayın səsiydi
Bülbülün nəğməsiydi.
Sevənlərin bəsiydi
Həbibullah çalanda.

Səhər muğam çalardı
Hər qəlbə od salardı.
Xatirədə qalardı
Həbibullah çalanda.

Qovardı qəmi, dərdi.
Eli sevindirərdi.
Şən bülbülə dönərdi
Həbibullah çalanda.

"Bağda gül"lər açardı
Aləmə nur saçardı
Bülbül güldən uçardı
Həbibullah çalanda.

Xalqın mərd aşığıydı
Toyun yaraşığıydı.
Kor gözün işığıydı
Həbibullah çalanda.

Çalıb-çalıb coşardı
Bulaq kimi daşardı
Həyata yaraşardı
Həbibullah çalanda.

Nə kamandı, nə tardı
Həsən züyü tutardı
Məmməd kosa yatardı
Həbibullah çalanda.

Çox yerlərə gedərdi
Xalqa xidmət edərdi
Salonu titrədərdi
Həbibullah çalanda

Qara zurnanı çaldı,
Hamı xəyala daldı
Sanki şəkərdi, baldı
Həbibullah çalandı.

Mahir, bu da bir işdi
Ürək sözün genişdi
Əcdadlar yada düşdü
Həbibullah çalanda.

Mahir Yaqub. Şəki şəhəri 18.07.1994-cü il

ŞAMİL MUSTAFAYEV

Musiafayev Şamil Rəsul oğlu 17 fevral 1934-cü ildə Şəkidə anadan olub. Ailə vəziyyətləri ağır olduğundan 1942-1950-ci illərdə Şəki 1 saylı uşaq evində tərbiyə almışdır. 12 yaşından əvvəlcə nağara, sonra qarmon çalmağı həvəskar kimi özü öyrənib. Hələ uşaq ikən pionerlər evinin rəqs dərnəyində rəqqasları qarmonda müşayiət edib. 1947-ci ildə pionerlər evinin rəqs kollektivi ilə Bakıda keçirilən uşaq olimpiadasında uğurlu çıxışı da olub.

1958-ci ilin may ayında Şamil Mustafayevin həyatında maraqlı bir hadisə baş verir. Belə ki, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının konsert brıqadası İ5 günlüyə Şəki, Qax, Oğuz, Balakən rayonlarına qastrol səfərinə gəlirlər. Bu briqadanm Şəkiyə səfəri zamanı onların qarmon ifaçısı Bakıya qayıtmalı olur. Ona görə ansamblda qarmonçalanı əvəz etmək üçün Şamil müəllim dəvət olunur. O, Rübabə Muradova, Elmira Rəhimova, Mütəllim Mütəllimov və bu kimi məşhur xanəndələri müşayiət edir. Həmin ildən müntəzəm olaraq şəhər mədəniyyət evində xalq çalğı alətləri ansamblnın üzvü olmuş, kütləvi tədbirlərdə və konsertlərdə iştirak etmişdir. Dəfələrlə respublikamızın şəhər və rayonlarında, eləcə də qonşu Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrdə qastrol səfərində olub.

Şamil Mustafayev Azərbaycan gənclərinin 1962-ci ildə keçirilən 3-cü Respublika festivalında, 1967-ci ildə keçirilən Ümumittifaq Festivalında, 1977-ci ildə keçirilən Zəhmətkeşlərin Birinci Bədii Yaradıcılıq festivalında uğurla çıxışlar etmişdir. Onun qarmonda ifa etdiyi muğamlar və rəqslər ürəyəyatımlıdır. Şamil müəllimin çoxlu sayda pərəstişkarları və şagirdləri var. Bu gün Şəkinin məşhur qarmon ifaçıları Zahir Mustafayev, Faiq Məmmədov və başqaları hələ də ustad sənətkardan bilmədiklərini öyrənirlər.

Sənətkarın oğlu Kamil də son dərəcədə fıtri istedada malik bir musiqiçidir. O, tarda, kamançada, qarmonda və skripkada gözəl ifa edir. Şəki Musiqi texnikumunun skripka şöbəsində oxuduqdan sonra, Azərbaycan Dövlət Konservatoriyasının skripka şöbəsinə daxil olmuş və oranı da müvəffəqiyyətlə bitirmişdir.

Qocaman sənətkar Şamil Mustafayev bu gün də gənclik eşqi ilə çalışır. Şəkidə yeganə sənətkardır ki, qarmonu əsaslı təmir edir. "Şəkinin musiqi folkloru" mövzusunda dissertasiya üzərində işləyərkən Şamil müəllimlə görüşüb, onun ifasından bir neçə oyun havasını lentə alıb nota köçürdük. Onlardan nümunələr:

SEVİNC RƏQSİ

İfaçı: Şamil Mustafayev
Not yazısı: Səadət Təhmirazqızı

Moderato



"BƏS NİYƏ DEMİRSƏN" təsnifi

Musiqi: Abdulrrəşid Məcidov
İfaçı: Şamil Mustafayev
Not yazısı: Səadət Təhmirazqızı

Andante





"BİR DAYAN DUR" təsnifi

Musiqi: Tislisli zərgər Məmməd
İfaçı: Şamil Mustafayev
Not yazısı: Səadət Təhmirazqızı





TƏSNİF

Musiqi: Nəsib İbrahimov
İfaçı: Şamil Mustafayev
Not yazısı: Səadət Təhmirazqızı

Moderato



YERLİ HAVA rəqsi

İfaçı: Şamil Mustafayev
Not yazısı: Səadət Təhmirazqızı

Allegro





FƏRRUX MƏCİDOV
1926-1993

Fərrux Musa oğlu Məcidov 1926-cı ildə Şəkidə dünyaya göz açmışdır. Uşaqlıqdan musiqiyə böyük həvəs göstərən Fərrux 13 yaşından başlayaraq unudulmaz sənətkar Nurəddin Bədəlovdan kamançanın sehrli sirlərini öyrənməyə başlayır. 1947-1950-ci illərdə Fərrux Məcidov fabrik-zavod şagirdliyi məktəbində bədii özfəaliyyət kollektivinə rəhbərlik etmişdir. Eyni zamanda Sabir adına Şəki Dram Teatrında Ağası Məmmədbəyovun rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrində çalışmışdır. Həmin illərdə tamaşaya qoyulan C. Cabbarlının "Solğun çiçəklər", S.Vurğunun "Fərhad və Şirin", M.İbrahimovun "Toy" Ü.Hacıbəylinin "Məşədi İbad", "Leyli və Məcnun", Z.Hacıbəyovun "Aşıq Qərib", S.Rüstəmovun "Durna", S.Rəhmanın "Nişanlı qız" və başqa əsərlərdə teatrın görkəmli sənətkarlarından İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı, Yusif Vəliyev, Məmməd Burcəliyev, Sədayə Mustafayeva, Məmmədkəbir Hacıoğlu, Bilqeyis Ələsgərova, Mustafa Əhmədov, Hökumə İsmayılova, Türhüd Qasımov, Məhəmməd Fərzəliyevlə çiyin-çiyinə çalışmışdır. Fərrux Məcidov 1949-1950-ci illərdə Şəki rayon mədəniyyət evində dərnək rəhbəri, 1950-1958-ci illərdə kadrlar klubunda kütləvi işçi vəzifəsində çalışmışdır. Həmin illərdə keçirilən el şənliklərində, toy mərasimlərində, konsertlərdə tanınmış xanəndələrdən Seyid Şuşinski, Zülfü Adıgözəlov, Yaqub Məmmədov, Sahib Şükürov, Veyis Hacıyev, Mürşüd Məmmədov, Şəmsəddin Abdullayev, İsabala Mustafayev, Lütvəli Məmmədov, Abdurrəşid Məcidov, Nəsib İbrahimov, Nazim İlyasov və başqa xanəndələri mahir tarzən Məhərrəm İsmayılovla bir yerdə müşayiət etmişdir.

1958-1960-cı illərdə Fərrux Məcidov Şəki Orta İxtisas Musiqi məktəbində təhsil almışdır. O, 1956, 1962-ci illərdə keçirilən Gənclərin Ümumittifaq festivalında uğurla çıxış etmişdir.

O, 1962-1970-ci illərdə 1 saylı Şəki uşaq musiqi məktəbində, 1970-1980-cı illərdə 2 saylı Şəki uşaq musiqi məktəbində gənc istedadlara kamançanın sirrlərini öyrətmişdir. Bu gün qeyd etmək olar ki, Şəkidə fəaliyyət göstərən Telman Süleymanov, Vaqif Heydərov, Kamil Çələbiyev, Loğman Məhərrəmov, Sərvər Əzimov, Rüstəm Xəlilməmmədov kimi musiqiçilər kamança ifaçılığını Fərrux müəllimdən öyrəniblər.

1955-ci ildə görkəmli bəstəkar Səid Rüstəmov, baletmeyster Əlibaba Abdullayev xalq musiqisi incilərini toplamaq məqsədilə Şəkidə olarkən

Fərrux Məcidovun sənətinə rəğbət bəsləyərək onun ifasından "Bağda güllər", "Ah gülə-gülə", "Həyat bizimdir", "Bu gülzarın eşqinə", "Gülabı", "Müşki", "Üç barmaq", "Beş açılan" kimi qədim el havalarını lentə almışlar.

Fəruux Məcidov 1980-cı ildən ömrünün sonunadək Şəki Orta İxtisas Musiqi Məktəbində işləmişdir.

1988-ci illərdə Fərrux Məcidovun təşəbbüsü ilə böyük xanəndə Şəkili Ələsgər adına Muğam üçlüyü təşkil edilmişdir. Tarzən Fərrux Əbdürrəhmanov, kamançaçı Fərrux Məcidov, xanəndə Abdurrəşid Məcidovdan ibarət muğam üçlüyü 1990-cı ildə Ağdam və Şuşada keçirilən Beynəlxalq musiqi festivalında Şəkini ləyaqətlə təmsil etmişdir. Görkəmli bəstəkarlardan Vasif Adıgözəlov, Süleyman Ələsgərov, musiqişünas Bayram Hüseynli, xanəndələrdən Sara Qədimova, İslam Rzayev, Arif Babayev və başqaları Fərrux Məcidovun sənətkarlığını yüksək qiymətləndirmişlər. Fərrux Məcidov 1991-ci ildə Bakıda keçirilən ailə ansamblarına Respublika baxış müsabiqəsində də uğurla çıxış etmişdir.

1991-1992-ci illərdə Şəkidə keçirilən böyük xanəndə Şəkili Ələsgər Abdullayevin xatirəsinə həsr olunmuş Respublika Muğam Festivalının əsas təşkilatçılarından biri olmuşdur.

Musiqiçilərin rəyinə görə Fərrux Məcidovun sənəti İsmayıl Talışınski, Hafız Mirzəliyev, Habil Əliyev, Şəfiqə Eyvazova, Fəxrəddin Dadaşov, Ədalət Vəzirov kimi sənətkarlarla bir sırada durmağa layiqdir.

Gözəl insan, qayğıkeş müəllim, təvazökar sənətkar Fərrux Məcidov 1993-cü ilin iyul ayında vəfat etmişdir.

MƏMMƏD NƏSRULLAYEV
1927-1968

Məmməd Əli oğlu Nəsrullayev 1927-ci ildə sentyabr ayının 23-də Şəkidə anadan olmuşdur. Balaca Məmməd hələ uşaq ikən musiqiyə maraq göstərmişdir. Onun ilk müəllimi gözəl sənətkarımız, mərhum İbad Salmanov olub. İlk dövrlərdə tar çalmağa başlayan Məmməd Nəsrullayev sonralar digər musiqi alətlərində ifa etməyə də maraq göstərir. O, kamança, qarmon, nağara, saz, tütək, balaban, zurna və digər musiqi alətlərində çalmağı öyrənir. Məmməd Nəsrullayev 1934-1942-ci illərdə 5 saylı şəhər məktəbində təhsil almışdır. 1943-1947-ci illərdə Şəki Pedaqoji məktəbinin tələbəsi olmuşdur. Həmin illərdə məktəb bədii özfəaliyyət kollektivinin ən fəal üzvlərindən biri olan Məmməd Nəsrullayev 1947-1950-ci illərdə hərbidə xidmət etmişdir. Ordudan tərxis olunduqdan sonra 1950-1965-ci illərdə Şəki İpək kombinatının mexaniki emalatxanasında tornaçı vəzifəsində çalışmışdır. İlk ustası şəhərin ən hörmətli və ləyaqətli vətəndaşı Abdusalam Səmədov olmuşdur. Məmməd Nəsrullayev uzun illər Şəki şəhər mədəniyyət evində fəaliyyət göstərən xalq çalğı alətləri ansamblının ən fəal üzvlərindən biri kimi dəfələrlə Bakıda keçirilən Respublika olimpiadasında və Gənclər Festivalında iştirak etmişdir.

1956-cı ildə I Respublika Festivalının laureatı olmuşdur.

Məmməd Nəsrullayev el şənlikləri və konsertlərdə Azərbaycanın görkəmli sənətkarları Həqiqət Rzayeva, Ələvsət Sadıqov, Seyid Şuşinski, Yaqub Məmmədov və başqalarını müşayiət etmişdir.

Şəkinin tanınmış sənətkarı Məmməd Nəsrullayev 1968-ci ildə vəfat etmişdir.

MƏHƏRRƏM İSMAYILOV
1910-1985

Məhərrəm İbrahimxəlil oğlu İsmayılov 1910-cu ildə Şəki şəhərində anadan olmuşdur. Ailədə musiqiçi olmasa da 10 yaşlı Məhərrəm tütək çalmağa meyl etmişdir. Bir neçə ildən sonra, yəni 13 yaşından başlayaraq atası və böyük qardaşı Paşanın məsləhəti ilə tar çalmağa başlayaraq əvvəlcə bu sənəti Samavar oğlu Çələbidən öyrənir. Sonralar isə tanınmış sənətkar Əhməd bəy Tahirovdan dərs alıb. Artıq 20 yaşında ikən Məhərrəm İsmayılov el şənliklərində, toylarda müntəzəm olaraq iştirak edirdi. 1934-cü ildə Şəkidə Sabir adına Dram Teatrı açılarkən Məhərrəm İsmayılov orkestrdə işə düzəlir. Həmin illərdə Şəki Teatrında bütün janrlarda olan əsərlər tamaşaya qoyulurdu. Teatrda işlədiyi illərdə o, S.Vurğunun "Vaqif", C.Cabbarlının "Solğun çiçəklər" dramlarında, Ü.Hacıbəylinin "Arşın mal alan", "Məşədi İbad", Z.Hacıbəyovun "50 yaşında cavan" operettalarında, Ü.Hacıbəylinin "Leyli və Məcnun", Z.Hacıbəyovun "Aşıq Qərib" operalarında respublikanın xalq artistləri Yusif Vəliyev, Məmməd Burcəliyev, Sədayə Mustafayeva, əməkdar artistlərdən Kamil Qubuşov, Məmmədkəbir Hacıoğlu, Bilqeyis Ələsgərova, artistlərdən Yunis Qarabağlı, Hökümə İsmayılova, İsabala Mustafayev, Şirinbacı Əliyeva, Zəhra Hüseynova, Yusif Yulduz, Məmməd Xalıqov, Heydər Şəmsizadə və başqalarını müşayiət etmişdir.

Məhərrəm İsmayılov Böyük Vətən Müharibəsi başlandığı zaman 1941-ci ildə könüllü olaraq orduda hərbi xidmət etmişdir. Burada Çeçen-İnquş Muxtar Respublikasında hərbi hissələrdə 6 ay müddətində öz tarı ilə müntəzəm olaraq Azərbaycan xalq musiqisini səsləndirmişdir. Ordudan tərxis olunduqdan sonra doğma teatra qayıtmış və 1949-cu ilin əvvəllərinədək Şəki İpək Kombinatının klubunda tar dərnəyinin rəhbəri vəzifəsində çalışmışdır. Həmin illərdə kombinatda klub müdiri vəzifəsində işləyən Yunis Qarabağlının dəvəti ilə Seyid Şuşinski, Zülfli Adıgözəlov, Yaqub Məmmədov kimi görkəmli xanəndələr müntəzəm olaraq Şəkiyə dəvət olunmuşdur. Məhərrəm İsmayılov kamança çalan Fərrux Məcidovla birlikdə bu xanəndələri konsertlərdə və el şənliklərində müşayiət etmişdir. Respublikanın xalq artisti, unudulmaz sənətkarımız Habil Əliyev də 1970-ci illərdə Şəkidə olarkən Məhərrəm İsmayılovla birlikdə bir çox xanəndələri müşayiət etmişdir. Məhərrəm İsmayılov gənc musiqiçilərdən Nüsrət

Mikayılov, Əhməd Əhmədov, Nüyvər Abdullayev və başqalarına tarın ecazkar sirrlərini öyrətmişdir.

O, 1955-1970-ci illərdə Şəki şəhər mədəniyyət evində işləmişdir.

1959-cu ildə Azərbaycan Gənclərinin 2-ci Respublika Festivalında Məhərrəm İsmayılovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblı uğurla çıxış etmiş, kollektivin ifa etdiyi "Şəki", "Müşgü", "Üç barmaq" rəqsləri Radio üçün lentə alınmışdır. Respublikamızın görkəmli incəsənət xadimlərindən olan Niyazi, Əfrasiyab Bədəlbəyli, Səid Rüstəmov, Şəmsi Bədəlbəyli, Xəlil Cəfərov, Bayram Hüseynli, Bülbül, Ələvsət Sadıqov, Qurban Primov, Həqiqət Rzayeva, Gülxar Həsənova, Xan Şuşinski, Mütəllim Mütəllimov, İldırım Həsənov, Sahib Şükürov və başqaları onun sənətinə yüksək qiymət vermişlər. Məhərrəm İsmayılov "Mahur-hindi", "Rast", "Xaric segah" və digər muğamların əvəzsiz ifaçılarından biri olmuşdur.

O, dəfələrlə Gürcüstanda, Dağıstanda, Azərbaycanın şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur. Şəki orta İxtisas Musiqi məktəbində gənc xanəndələri müşayiət etmişdir. Məhərrəm İsmayılov sözün əsl mənasında bacarıqlı, işgüzar, qayğıkeş bir insan, mədəniyyət fədaisi, el sənətinin ulu bilicilərindən biri olub.

Məhərrəm İsmayılov 1985-ci il sentyabrın 6-da 75 yaşında uzun sürən xəstəlikdən sonra vəfat etmişdir. Şəki Şəhər Mədəniyyət evlərindən birinə onun adı verilmişdir.

ABDURRƏŞİD MƏCİDOV
1931 - 1998

Abdurrəşid Musa oğlu Məcidov 1931-ci ilin dekabr ayının 30-da Şəki şəhərində anadan olmuşdur. O, ilk dəfə 1946-cı ildə Şəki fabrik-zavod şagirdliyi məktəbində təhsil alarkən musiqi ilə məşğul olmuşdur. Onda musiqiyə həvəsi Şəkidə məşhur xanəndə Şəmsəddin Abdullayev oyatmışdır. 1947-ci ildə Abdurrəşid Məcidov Bakı şəhərində keçirilən gənclərin Respublika olimpiadasında iştirak etmişdir. 1948-1950-ci illərdə tar çalan Fərrux Əbdürrəhmanovla birlikdə Şəki istirahət evində işləmişdir, 1950-1951-ci illərdə isə Şəki korlar klubunda kütləvi işçi vəzifəsində çalışmışdır.

1951-ci ildə Seyid Şuşinski Şəkiyə dəvət olunaraq zəhmətkeşlər qarşısında konsertlər vermişdir. Həmin konsertlərdə Abdurrəşid Məcidov da iştirak etmişdir.

1951-1984-cü illər ərzində Abdurrəşid Məcidov Gürcüstanın azərbaycanlılar yaşayan Marneuli, Bolnisi, Qardabani, Dmanisi, Telavi və digər rayonlarında, eləcə də respublikamızın Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ, İsmayıllı və sairə rayonlarının əməkçiləri qarşısında maraqlı konsert proqramları ilə çıxış etmişdir.

Abdurrəşid Məcidov uzun illər Şəki xanəndələrindən Yunis Qarabağlı, İsabala Məmmədov, Nəsib İbrahimov, Lütfəli Məmmədov, Nurəddin Həmzəyev, Abid Hümmətov, Fərman Xəlilov, tar çalanlardan Əhmədbəy Tahirov, Məhərrəm İsmayılov, İbad Salmanov, Məmməd Nəsrullayev, Nüyvər Abdullayev, Maqsud Şirinzadə , Fərrux Abdurrəhmanov, Nüsrət Mikayılov, İsmayıl Tağı oğlu, kamança çalanlardan Nurəddin Bədəlov, Fərrux Məcidov, Nüsrət Hüseynov, Hikmət Hacıyev, Telman Süleymanov kimi sənətkarlarla birlikdə el şənliklərində, toylarda çalıb çağırmışlar. Onun eyni zamanda SSRİ xalq artistləri İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı, respublikamızın xalq artistləri Ələvsət Sadıqov, Lütfəli Abdullayev, Yusif Vəliyev, Cahan Talışinskaya, Məmməd Burcəliyev, Sədayə Mustafayeva, Yaqub Məmmədov, əməkdar artistlərdən Məmmədkəbir Hacıoğlu, Bilqeyis Ələsgərova, Səməd Tağızadə, artistlərdən Əşrəf Orucov, İsa Əlimov, Şirəli İlyasov, Niyazi Əhmədov kimi sənətkarlarla birlikdə Şəki şəhərinin, eləcə də qonşu rayonların zəhmətkeşləri qarşısında çıxışları olmuşdur.

Abdurrəşid Məcidovun yaradıcılığı çoxşaxəlidir. O, həm də Şəki Teatrında mərhum rejissorumuz Məmmədkəbir Hacıoğlu tərəfindən tamaşaya qoyulmuş S.Rüstəmovun "Durna", Ü.Hacıbəylinin "Məşədi İbad",

Z.Hacıbəyovun "Əlli yaşında cavan", S.Vurğunun "Vaqif", "Fərhad və Şirin" və başqa əsərlərdə müxtəlif xarakterli obrazlar yaratmışdır. Abdurrəşid Məcidov 1986-cı ildən özünün ailə ansamblını təşkil etmişdir.

1989-cu ilin fevral ayında Bakıda keçirilən ailə ansambllarına Respublika baxış müsabiqəsində Məcidovlar ailə ansamblı laureat adına layiq görülmüşdür. O, 1989-cu ilin may ayında Ağdamda keçirilən "Xarı bülbül" 1-ci Beynəlxalq Musiqi Festivalında, 1990 və 1991-ci illərin may aylarında isə Şəkidə keçirilən musiqi festivallarında uğurla çıxış etmiş, tamaşaçılar qarşısında "Rast", "Mahur", "Zabul" muğamlarını şövqlə oxumuşdur.

O, şifahi xalq ədəbiyyatı nümunələrindən məharətlə istifadə edərək bir neçə təsniflər yazmışdır. Belə təsniflərdən "Ah gülə-gülə", "Bağda güllər", "El bizimdir", "Qəşəngdir", "Bu gülzarın eşqinə", "Elçilərin yol üstündədir" və başqalarını göstərmək olar.

Respublikamızın görkəmli bəstəkar və musiqişünasları Tofiq Quliyev, Vasif Adıgözəlov, Bayram Hüseynli, Həsən Adıgözəlzadə, Polad Bülbüloğlu, Cavanşir Quliyev onun sənətkarlığını yüksək qiymətləndirmişlər. 1989-cu il may ayının 25-də Şuşada görkəmli xanəndəmiz Seyid Şuşinskinin anadan olmasının 100 illiyinə həsr olunmuş musiqi bayramında unudulmaz bəstəkarımız Vasif Adıgözəlov bütün iştirakçılar qarşısında öz təəssüratlarını belə söyləmişdir: "Ağdamda keçirilən "Xarı bülbül" muğam festivalında yer ayrılarsa xanəndə Abdurrəşid Məcidova birinci yer veriləcək".

Onu da qeyd etməliyik ki, Arif Babayev, Alim Qasımov, Ağaxan Abdullayev kimi görkəmli xanəndələrimiz Abdurrəşid Məcidovun yazdığı təsnifləri böyük şövqlə ifa edirlər. Bu unudulmaz xanəndəni şəkililər indi də belə xatırlayırlar:

"Şəkidə bir usta yaşayırdı. Bu, Şəki camaatının, bütün musiqiçilərin qeyd etdikləri kimi usta Abdurrəşid idi. O, xanəndəlikdə usta, qəzəl bilməkdə usta, qaval çalmaqda usta olmaqla yanaşı, musiqi alətlərini təmir etməkdə də usta idi". Abdurrəşid Məcidov 1984-cü ildən Şəki Əhaliyə Məişət Xidməti İstehsalat İdarəsində musiqi alətləri üzrə təmir ustası kimi də tanınmışdır.

Ustanın təşəbbüsü ilə 1988-ci ildə Şəkidə M.F.Axundov adına mərkəzi mədəniyyət evində Ələsgər Abdullayev adına muğam üçlüyü təşkil olunub. Qeyd etdiyimiz kimi, üçlüyün sorağı çox yerlərdən gəlib.

1991-ci ilin əvvəlində onun təşəbbüsü ilə Şəkili Ələsgər Abdullayevin anadan olmasının 125 illiyinə həsr olunmuş bir sıra mədəni-kütləvi tədbirlərlə yanaşı, "Şəkili Ələsgər" adına Respublika Muğam Festivalı da keçirilmişdir.

Abdurrəşid Məcidovun 5 övladı var. 3 qızı və 2 oğlanları Ayaz və Ələddin uşaq incəsənət məktəbində musiqi müəllimləridir. Ustad sənətkarın əsas amalı xalqımızın ulu muğamlarını qoruyub saxlamaq olmuşdur. Odur ki, ömrünün son illərində öz bildiklərini gənclərə öyrədərək Elxan Rəsulov, Məmmədcamal Süleymanov, Bəsti Yusifova kimi xanəndələrin püxtələşməsində xeyli zəhmət çəkmişdir.

Şəkinin musiqi həyatında öz yeri, öz dəst-xətti olan xanəndə Abdurrəşid Məcidov 1998-ci ildə vəfat etmişdir. Ustaddan bizə onun məlahətli səsi və bəstələdiyi bir neçə mahnılar qalıb. Qarmınçalan Şamil Mustafayev onlardan "Bəs niyə demirsən" mahnısının melodiyasını ifa etmiş və biz də həmin melodiyanı nota salmışıq. (Bax: Ş.Mustafayev) Bəzi mənbələrdən həmin mahnının bir neçə misrası bəlli oldu.

Bağında yeməli üzüm var,
Ay qız səndə mənim gözüm var.
Dərdimi bilirsən, bəs niyə demirsən.

Abdurrəşid Məcidovu Şəki camaatı bir insan və bir sənətkar kimi çox sevmiş, ona yüksək qiymət vermişlər. Xalqın bu sevgisini şairlər öz şeirlərində qələmə almışlar. Şəkidə yazıb-yaradan Qurtuluş Süleymanovun xanəndənin 60 illik yubileyində ona həsr etdiyi şeirini təqdim edirik:

ABDURRƏŞİD

Yığılıb məclisinə çoxlu qonaq Abdurrəşid
Oxu el nəğmələrin, xoş-hal olaq Abdurrəşid
Sən Şəki yurdumuzun ustadı, xanəndəsisən
Sinən üstündə açıb güllücə bağ Abdurrəşid
Qarabağlı Yunusun ruhuna rəhmət olsun
Sən onun varisisən qəlbi çıraq Abdurrəşid
Fərruxun, İsabalanın sən İbadın öz canısan
Qaval çalmaqda sənə yoxdu ortaq Abdurrəşid
"Rast" oxu, "Mahur" oxu qəlbimizə nəşə gətir
Aç muğam dəftərini varaq-varaq Abdurrəşid
Nütünü, Məhərrəmi, Şəmsəddini sal yadına
Yarat el sənətinə bu gün maraq Abdurrəşid
Cabbara, Ələsgərə layiq olan övladsan
Şəkinin Xan əmisi qəlbi mayaq Abdurrəşid
60 illik yaşını sevinclə bayram edirik
İstərik sən olasan həmişə sağ Abdurrəşid

Qurtuluş Süleymanov

AĞASƏF MUSAYEV
1932-2006

Şəkidə bir çox el sənətkarları yaşayıb yaratmışlar. Qara zurnanın, balabanın, tütəyin məşhur ifaçıları olan Həbibullah Cəfərov, Qaçay Mustafayev, Ələfsər Şəkili, Rəcəbalı Əliyev Şəkini nəinki doğma Azərbaycanda, habelə bir çox xarici ölkələrdə lazımınca təmsil etmişlər.

Hazırda Şəkidə yaşayıb-yaradan Ağasəf Musayev el sənətini yaşadanlardan biridir. Ağasəf Musayev 1932-ci ildə Şəkinin Oraban kəndində anadan olub. 0,ustad sənətkarımız Həbibullah Cəfərovun el şənliklərində zurnada çaldığı muğam, təsnif, mahnı və rəqslərdən ilham almışdır. 1945-ci ildə 13 yaşlı balaca Ağasəf artıq zurnada sərbəst çalmağa başlayıb. O, 1951-54-cü illərdə orduda hərbi xidmət edib. 1954-1965-ci illərdə Şəkinin tanınmış sənətkarları Ələfsər Şəkili, Rəcəbalı Əliyev, Bünyad Kərimov, Bəhram Məmmədov, Zakir Məmmədov, Əhməd Qafarov, Bəşarət Kərimov və başqaları ilə birlikdə el şəliklərində, respublika əhəmiyyətli kütləvi tədbirlərdə iştirak edib.

O, 1956, 1957, 1962-ci illərdə keçirilən Respublika gənclərinin hər üç festivalında unudulmaz sənətkarımız Ələfsər Şəkilinin rəhbərlik etdiyi zurnaçılar dəstəsinin tərkibində uğurla çıxış etmişdir.

Ağasəf Musayev 1965-1969-cu illərdə Şəki orta ixtisas musiqi məktəbinin nəfəs alətləri şöbəsində, mərhum bəstəkarımız Xəlil Cəfərovdan dərs almışdır. Musiqi məktəbini bitirdikdən sonra, 1970-1984-cü illərdə təyinatla Oğuz rayon uşaq musiqi məktəbində müəllimlik etmişdir. 14 il ərzində Oğuz rayonunda keçirilən mədəni kütləvi tədbirlərin əsas təşkilatçılarından biri olub. 1984-cü ildə Ağasəf Musayev doğma Şəkiyə qayıtmış və 2 saylı uşaq musiqi məktəbində nəfəs alətləri üzrə müəllimlik fəaliyyətini davam etdirmişdir.

O, 1990-1992-ci illərdə daim cəbhə bölgələrində, hərbçilər qarşısında çıxış etmişdir. 1990-cı ildən M.F.Axundov adına Şəki şəhər Mərkəzi mədəniyyət evində, Ağasəf Musayevin rəhbərliyi ilə Ələfsər Şəkilinin xatirəsinə zurnaçılar dəstəsi təşkil olunmuşdur.

Ələfsər Şəkili adına zurnaçılar dəstəsi dəfələrlə Bakıda və respublikanın şəhərlərində keçirilən tədbirlərdə çıxış etmişdir. Ağasəf Musayevin təşəbbüsü ilə görkəmli el sənətkarları Həbibullah Cəfərovun

anadan olmasının 100 illik yubileyi 2002-ci ilin may ayında, Zeynal Qasımovun xatirə gecəsi 2002-ci ilin noyabr ayında keçirilmişdir.

Şəkinin musiqisevərləri Ağasəf Musayevin 1997-ci ildə anadan olmasının 65 illik, 2002-ci ildə isə 70 illik yubiley gecələrini qeyd etmişlər. Ağasəf Musayev dəfələrlə diplom, fəxri fərman və pul mükafatlarına layiq görülmüşdür. Sənətkar 2006-cı ildə vəfat edib.

Qocaman sənətkarla qədim el havalarının biricisi kimi görüşüb biz də ustadın ifasından bir neçə el havalarını lentə alıb onları nota köçürdük. Bu not yazılarında Ağasəf Musayevin ifasına xas olan cəhətlər də öz əksini tapır. Ağasəf müəllimin ifa etdiyi qədim rəqsləri onun sənət dostları qocaman sənətkarlar müşayiət edirdilər. Həmin el havalarından Ağasəf Musayevin balabanda ifa etdiyi "Mirvari" rəqsinin not yazısını təqdim edirik.

MİRVARİ RƏQSİ

İfaçı: Ağasəf Musayev
Not yazısı: Səadət Təhmirazqızı






tr
9:12
3


tr

İSMAYIL ALLAHVERDIYEV (USTAD AŞIQ)
1929-2015

Molla Cümə, Əhmədiyyə Qədirov, Sirac Həbibullayev, Nəzir Abbasov... Bu məşhur aşıqlar Şəkidə doğulmuş və bütün Azərbaycan sənəti üçün yaşayıb-yaratmışlar. Onlardan biri də ustad aşıq İsmayıl Allahverdiyevdir.

İsmayıl Nəzir oğlu Allahverdiyev 1929-cu ildə Şəkinin Baş Göynük kəndində anadan olub. 1940-cı ildən hələ 11 yaşı olarkən şeir yazmağa başlayan İsmayıl Allahverdiyev görkəmli saz və söz ustası Molla Cümə sənətinin layiqli davamçılarından biridir.

1950-ci ildə Ordu sıralarından tərxis olunan İsmayıl Bakının tikinti idarələrində və başqa sahələrdə çalışa-çalışa telli sazı ilə öz yaxın ətrafına, yığcam konsert salonlarına sənət işığı saçmışdır. Xalq yazıçısı Süleyman Rəhimov, xalq şairləri Səməd Vurğun, Rəsul Rza və başqaları onun saz və söz sənətini yüksək qiymətləndirmiş, müxtəlif söhbət və yığıncaqlarda onunla həmsöhbət olmuşar.

1953-cü ildən bu günədək aşıq İsmayıl doğma Baş Göynük kəndində yaşayıb-yaradır. Azərbaycanın bir çox aşıqları ilə yaxından dostluq edən aşıq, artıq 50 ildən çoxdur ki, el şənliklərində, bayramlarda, müxtəlif tədbirlərdə fəal iştirak edir. Bu el sənətkarı 10 aşıq havasının, 50-dən çox şeirin müəllifidir. Əsasən Molla Cümə, Əhmədiyyə Qədirov, Sirac Həbibullayev, Nəzir Abbasov kimi güclü aşıqlardan sənətin sirrlərini öyrənən İsmayıl Allahverdiyev öz səsi, öz nəfəsi, orijinal yolu olan aşıqlar səviyyəsinə yüksələ bilmişdir.

Dəfələrlə Respublika festivallarında uğurla çıxış etmiş İsmayıl Allahverdiyev Şəkidə keçirilən bütün xalq bayramlarında, məşhur el sənətkarları Həbibullah Cəfərov, Ələfsər Şəkili, Eyvaz Abbasov, Rəcəbalı Əliyev, Zeynal Qasımov kimi sənətkarların yubiley tədbirlərində tamaşaçıların daim gördüyü və ürəkdən alqışladıqları sənətkarlardandır. Aşığın həyat yoldaşı Elmira Allahverdiyeva qəhrəman anadır. O, yeddi qız, üç oğlan böyüdüb tərbiyə etmişdir. Oğlanlarının üçü də sazda çalıb-oxuyur.

Azərbaycan Aşıqlar Birliyinin üzvü aşıq İsmayılın Gürcüstanda, Dağıstanda, Rusiyanın bir çox şəhərlərində, respublikamızın əksər şəhər və rayonlarındakı çıxışları gözəl, rəngarəng bir xatirələr dastanıdır.

1999-cu ilin sentyabr ayında doğma kəndi Baş Göynükdə aşıq İsmayıl Allahverdiyevin 70 illik yubileyi keçirilmişdir. Yubiley ərəfəsində BDU-nin Şəki filialında, pedaqoji, musiqi, tibb texnikumlarında, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində aşıq İsmayılla görüşlər təşkil olunmuşdur.

Onun yaxından köməkliyi sayəsində şəhər və kənd klub müəssisələrində ustad aşıq Dədə Şəmşirin anadan olmasının 110 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilmişdir. Ustad aşıq 2015-ci ildə vəfat edib. "Şəkinin musiqi folkloru" mövzusunda tədqiqat işi ilə əlaqədar olaraq bu qocaman el sənətkarı ilə biz də şəxsən görüşüb, onun sazlı- sözlü ifalarına qulaq asmış və onları lentə almışıq.

ƏLƏFSƏR RƏHİMOV (ŞƏKİLİ)
1930-1984

Qəh-qəhə çəkib taqqıldadı qara zurna,
Uçub gəldi qatarına,
Qatarından əyri düşən bala durna
Bu səs düşmən qulağında
Bir qəhqəhə, bir gülüşdü.
Qəniminə divan tutan,
Hüdudlardan çölə atan,
Oğuz babam yada düşdü.

Unudulmaz xalq şairimiz Bəxtiyar Vahabzadənin ifaçılığına heyran olduğu və xüsusi şeir həsr etdiyi görkəmli el sənətkarı Ələfsər Məmmədrəhim oğlu Rəhimov (Şəkili) 1930-cu il may ayının 5-də Şəki şəhərində anadan olmuşdur. Hələ kiçik yaşlarından musiqiyə həvəsi olan Ələfsər balaban çalmağı öyrənmiş, oyun havalarını sərbəst ifa etmişdir. Ələfsərdə zurna çalmaq meylini yaradan Həbibullah Cəfərov və Qaçay Mustafayev olmuşlar. O, muğam və xalq mahnılarını Ələsgər Abdullayevin, Cabbar Qaryağdıoğlunun, Zülfü Adıgözəlovun qrammofon vallarından öyrənmişdir. İstedadı və qabiliyyəti sayəsində tanınan Ələfsər 1946-cı ildə Respublika özfəaliyyət olimpiadasının iştiraçısı olmuş, repertuarını zənginləşdirərək peşəkar zurnaçı kimi çıxış etməyə başlamışdır.

Ələfsər Şəkili klassik aşıq havalarını "Segah", "Şur", "Çahargah", "Bayatı-Kürd" muğamlarını, xalq mahnılarını, "Koroğlu", "Pəhləvani", "Misri", "Cəngi", "Şəki yallısı" kimi xalq rəqslərini ustalıqla ifa edirdi.

Ələfsər Rəhimov 1956, 1957, 1962-ci illərdə keçirilən respublika gənclərinin hər üç festivalında uğurla çıxış edərək birinci dərəcəli diplom və qızıl medalla təltif edilmişdir.

1955-ci ilin mart ayında bəstəkarlardan Səid Rüstəmov, Soltan Hacıbəyov və baletmeyster Əlibaba Abdullayev folklor nümunələri toplamaq məqsədi ilə Şəkiyə gəlmişlər. Qonaqlar Şəkidə olarkən "Şəki toyu" rəqs kollektivinin yeni quruluşda bərpa edilməsinə lazımi köməklik göstərmişlər. Eyni zamanda gənc zurna ifaçısı Ələfsərin çalğısı onları heyran etmişdir. 1955-ci ilin may ayında Bakıda keçirilən özfəaliyyət olimpiadasında Ələfsər Rəhimov uğurla çıxış etmişdir.

1959-cu ilin may ayında Moskvada keçirilən Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyündə Şəkini "Şəki toyu" rəqs kollektivi və zurnaçılar dəstəsi təmsil etmişdir.

Musiqiçilər bilirlər ki, lap qədimdən zurnada yeddi barmaq yeri olub. Özü də bu pərdələrdə yarımpərdələr yaratmaq mümkün deyildi. Buna görə də muğamları istənilən səviyyədə ifa etmək olmurdu. İlk dəfə Ələfsər zurnada səkkizinci barmaq yerini əlavə etməklə bu alətdə muğamlarımızın təsir gücünü artırmağa nail olmuşdur. Ələfsər Şəkili zurnada "Qatar" muğamını məharətlə ifa edən yeganə sənətkardır. O, ifaçılığını püxtələşdirərək 1963-1967-ci illərdə Şəki orta ixtisas musiqi məktəbində təhsil alıb. Ələfsər Rəhimov 1962-1977-ci illərdə şəhər mədəniyyət evinin bədii rəhbəri və direktoru vəzifələrində çalışmışdır.

Ələfsər Şəkili 1968-ci ildə SSRİ Xalq Təsərrüfatının nailiyyətləri sərgisində Moskvada paytaxt zəhmətkeşləri qarşısında çıxış etmişdir. Ələfsər Şəkili 1967-ci ildə ümumittifaq, 1977-ci ildə zəhmətkeşlərin birinci bədii yaradıcılıq festivalların laureatı,Bakıda keçirilən respublika əhəmiyyətli tədbirlərin iştirakçısı olmuşdur.

1974-cü ildə Azərbaycan Televiziya və radiosunun muğam verilişləri şöbəsinin baş redaktoru, əməkdar incəsənət xadimi Cavanşir Quliyevin dəvəti ilə Ələfsər Şəkilinin qızıl fond üçün muğam, xalq mahnıları və rəqslərdən ibarət lentləri yazılmışdır. Ələfsər Şəkili 1983-cü ilin noyabr ayında Fransada keçirilən beynəlxalq folklor festivalında uğurla çıxış etmişdir. Həmin festivalda SSRİ xalq artisti Rəşid Behbudovun rəhbərlik etdiyi Azərbaycan Dövlət Mahnı Teatrı, xalq artistləri Ramiz Quliyev, Mübariz Tağıyev, Səkinə İsmayılova və başqaları Azərbaycanı təmsil ediblər. Dünyanın bir çox ölkələrindən gəlmiş musiqiçilər Ələfsər Şəkilinin zurnada ifa etdiyi "Heyratı", "Qarabağ şikəstəsi" ritmik muğamlarını heyrətlə dinləyiblər. Həmin festivalda Ələfsər Şəkilinin rəhbərlik etdiyi zurnaçılar dəstəsi həm rəqsləri müşayiət edir, həm də Rafiq Babayevin instrumental ansamblı ilə birlikdə solo nömrələri ifa edib. Konsertin bədii rəhbəri əməkdar incəsənət xadimi Həsən Adıgözəlzadə olmuşdur.

1984-cü ilin aprel ayında Ələfsər Şəkili yenidən Rəşid Behbudovun rəhbərlik etdiyi Mahnı Teatrı ilə birlikdə Belçikada qastrol səfərində olmuşdur. Belçikadan qayıtdıqdan sonra görkəmli müğənni Rəşid Behbudov Ələfsəri Bakıya gələrək teatrda işləməyə dəvət etmişdir.

Daha sonra SSRİ xalq artisti Niyazi də Dövlət Simfonik orkestrində işləməyi Ələfsərə təklif etmişdir.O, isə razılıq verməyib, Şəki mühitindən ayrılmaq istəməyib. Ələfsər Şəkili uzun illər məşhur el sənətkarları Həsrət Hüseynov, İzzətalı Zülfüqarov, Manaf Məmmədov, Nurağa Rəhimovla birlikdə dəfələrlə konsertlərdə çıxış etmişdir.

O, zurnaçılar dəstəsi ilə birlikdə C.Cabbarlı adma "Azərbaycanfilm" kinostudiyasında ustehsal olunan "Dəli Kür", "Yeddi oğul istərəm", "Yenilməz batalyon" filmlərinə çəkilmişdir.

Unudulmaz sənətkarlar Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Cabir Novruz, Məmməd Aslan, xalq şairi Fikrət Qoca, şəkidə yaşayan şairlərdən Vaqif Aslan, Qurtuluş Süleymanlı və başqaları Ələfsər Şəkiliyə şerlər həsr etmişlər. Hazırda respublikamızda tanınan el sənətkarlarından Rasim Ələsgərov, Əyyub Məmmədov, İlham İbrahimxəlilov, Baxşəli Əbdürrəhmanov vaxtı ilə Ələfsər Şəkilinin şagirdləri olublar. Ələfsər Şəkilinin təşəbbüsü ilə Şəki şəhər 2 saylı uşaq musiqi məktəbində 1971-ci ildən nəfəs alətləri sinfi açılmış, həmin vaxtdan 1984-cü ilə qədər orada müəllim işləmişdir.

Ələfsər Şəkili sözün əsl mənasında, Şərq dünyasının ən böyük musiqiçilərindən biri idi. Onun sənətini görkəmli bəstəkarlar və müğənnilərdən Niyazi, Bülbül, Rəşid Behbudov, Əfrasiyab Bədəlbəyli, Səid Rüstəmov, Rauf Hacıyev, Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova və başqaları yüksək qiymətləndirmişlər.

Qocaman Şəki musiqiçilərinin dediklərinə görə, Ələfsər Şəkili həyatda sadə, təvazökar olduğu halda, səhnədə ciddi, dəqiqliyi sevən, alicənab şəxsiyyət idi. Öz sənətini daima yüksək tuturdu. O, təbiət vurğunu idi. Güclü yumoru vardı. Lətifələr danışmaqdan həzz alırdı, boş vaxtlarında ovçuluqla məşğul olurdu. Əsas ov yoldaşları xüsusi ilə gənclik dostu Allahyar Əlibalayev, İsmayıl Tağı oğlu, Rəcəbalı Əliyev, Əziz Səmədov olmuşlar.

Zurna, balaban, tütək, klarnetin əvəzsiz ifaçılarından olan Ələfsər Şəkili 1984-cü il noyabr ayının 30-də vəfat etmişdir.

Şəki şəhər mədəniyyət şöbəsi tərəfindən Ələfsər Şəkilinin adı əbədiləşdirilmişdir. Uzun illərdir ki, şəhərdə onun adını daşıyan klub fəaliyyət göstərir. Sağlığında 1980-cı ilin may ayında Şəki Dövlət Dram Teatrında onun 50 illik yubileyi keçirilmişdir. 1990-cı ildə 60 illik, 1995-ci ildə 65 illik, 2000-ci ildə 70 illik, 2005-ci ildə 75 illik yubiley və xatirə gecələri də qeyd edilib. 2010-cu ildə isə anadan olmasının 80 illik yubileyi keçirilib.

Ələfsər Şəkilinin iki oğul yadigarı var. Allahverdi və Rəhim. Onlar musiqiçi deyillər. Ancaq nəvəsi balaca Ələfsər bu gün babasının yolunu davam etdirir. 4 saylı uşaq musiqi məktəbinin nəfəs alətləri sinfini bitirib. Ağasəf Musayev və Əyyub Məmmədov kimi təcrübəli müəllimlərdən dərs alıb. Arzusu babasının davamçısı olmaqdır. Biz də inanırıq ki, illər keçəcək və balaca Ələfsər böyük Ələfsərin yerini tutacaq.

Bu gün Ələfsər Şəkilidən bizə bir neçə lent yazıları yadigar qalıb.

Amma onunla bağlı araşdırmalar apararkən Ələddin Əsədov adlı bir qələm əhlinin ustadla müsahibəsinə də rast gəldik. Diqqətimizi çəkən jurnalistin suallarına ustadın cavabları oldu. Bunu da tarixin bir sənədli yadigarı kimi ustad haqqındakı yazımıza daxil edirik: Çünki bu sual-cavabda, sanki Ələfsər Şəkilinin özü var.

"Sual: Ələfsər dayı, deyirəm söhbətimizə Şəki zurnaçılarından başlayaq. Çünki bu ustad sənətkarlar olmasaydı qara zurna ovsunlamasaydı, bəlkə də bu sənətə bir elə meyl salmazdınız. Elə deyilmi?

Şəkili: Tamamilə doğrudur, Şəkidə ömür-gün sürmək, qədim el sənətlərimizlə nəfəs-nəfəsə durmaq deməkdir. Mənim zurnaçı olmağımın bir səbəbi də elə bundadır. Gözümüzü açanda usta Qaçayın, usta Həbibullahın zurnasının səsini eşitmişəm. Usta Qaçay Aşağı Güngüt kəndində yaşayırdı. Onun dünyadan getməsi sənətimiz üçün böyük itki oldu. Həbibullah dayı qocalıb, daha çalmır. Onların çalğısındakı yüksək zurnaçılıq məharəti hamımıza təsir edirdi. Hələ uşaq yaşlarında harada zurna səsi eşitsəydim ora gedərdim.

Sual: Deməli, çaldığınız muğamları da elə o vaxtlar onlardan öyrənmisiniz?

Şəkili: Bir qədər onlardan öyrənmişəm. Sonra qırxıncı illərdə Şəki pionerlər evindəki zurnaçılıq dərnəyində keçdiyimiz məşğələlərdə mənə böyük dərs olub. Ancaq etiraf edirəm ki, təkcə bunlarla yetkin zurnaçı olmaq mümkün deyildir. Muğam və rəqslərimizin, xalq mahnılarımızın kökünü bilən sevimli xanəndəmiz Zülfü Adıgözəlovun səsi yazılmış valların mənə köməyi çox dəyib. Muğamlarımızdan, xalq mahnılarımızdan bildiyim nə varsa, demək olar ki, hamısı Zülfü Adəgözəlovun, eləcə də Cabbar Qaryağdıoğlunun, Şəkili Ələsgər Abdullayevin, Seyid Şuşinskinin oxumalarından öyrəndiklərimdir.

Sual: Bayaq usta Həbibullahın adını çəkdiniz. Onun Azırbaycan zurnaçıları arasında xüsusi yeri, xüsusi hörməti var. Çox maraqlıdır ki, usta Həbibullahın belə sevilməsinin sirri nədədir?

Şəkili: Bilirsiniz, Həbibullah dayı yaxşı zurna çalmaqla bərabər, toy camaatını ələ almağı bacarırdı. Bir də gördün məslicin ortasında oynayana qoşulur. Elə hərəkətlər eləyirdi, elə mimikalar göstərirdi ki, ona vurulmamaq mümkün deyildi. Əlbəttə, zurna çalmağına da söz ola bilməzdi. Muğamları, eləcə də oyun havalarını onun kimi ifa edən ikinci sənətkar tanımıram...

Sual: Siz özünüz onun şagirdi olmusunuz, yoxsa onun çaldığı havalara qulaq asmaqla zurna sənətinə yiyələnmisiniz?

Şəkili: Onun çaldığı havalar mənə ilham verir, çünki bizim qohum-qardaşımızın çoxunun toyunu o çalıb. Mən də həmişə toylarda ona qulaq

asıb ondan öyrənmişəm. O vaxtlar toylarda "Səhər" muğamı çalınardı. Həbibullah dayı bu muğamı böyük ustalıqla çalırdı. Mən çox istəyirdim ki, o, "Səhər" muğamını onun kimi çalım.

Sual: Bəs bu "Səhər" muğamı indi də kənd toylarımızda çalınırmı? Yoxsa yaddan çıxıb gedib?

Şəkili: "Səhər" muğamı toyun başlandığını el, obaya, camaata bildirir. Əvvəllər düz səhər saat 6-da "Səhər" muğamı çalmağa başlayırdıq. İndi də "Səhər" muğamı var ancaq elə tezdən çalınmır. (ustad "Səhər" muğamı dedikdə toyun başlanğıcına işarə olaraq səhərin erkən çağında səslənən "Mürği-səhər"i nəzərdə tuturmuş - S.T.q)

Sual: Toylarımızda bəzən "Koroğlu" vururlar?

Şəkili: "Koroğlu" iki cürdür, biri rəqs üçün çalınır, biri də toya hörmətli bir şəxsin gəldiyini xəbər verir. Görürsən məclisin şirin yerində ayaqçı gəlir ki, usta bir əl saxla görək, toya filankəs gəlib. Onda əgər ortada oynayan varsa yenə də çalğını dayandırıb, havanı dəyişib, "Koroğlu" vururlar. Buna "Koroğlu qaytarması" da deyirlər. Bu, adətən bəzi kəndlərimizdə indi də qalır.

Sual: Bu, adətən indi də qalır deyəndə mənə elə gəlir bu, əsasən sizin özünüzdən asılıdır. Siz zurnaçı kimi ona əməl edirsinizsə, demək, bu yaşayır və yaşayacaqdır.

Şəkili: Orası elədir, ancaq son vaxtlar bu adətimizə maraq bir qədər azalır. Buna o qədər də əhəmiyyət və diqqət verilmir.

Sual: Ələfsər dayı, sizin özünüzün zurnaya elədiyiniz əlavələr çox maraqlıdır. Deyirlər, siz bu qədim musiqi alətini bir qədər təkmilləşdirmisiniz, yaxşı olar ki, bu barədə danışasınız.

Şəkili: Ata-babadan zurnada yeddi barmaq yeri olub. O vaxtı zurnaçılar bu pərdələrdə çalırdılar. Ancaq bu dəliklərlə yarım pərdə yaratmaq mümkün olmayıb. Buna görə də xalq havaları, muğamlar bu pərdələr vasitəsi ilə yaxşı alınmırdı. Mən zurnaya səkkizinci dəliyi də artırmağı lazım bildim. İndi bütün muğamlar, rəqslər bu pərdənin köməyi ilə çox gözəl sıslınır.

Sual: Son dövrdə gənclərimiz arasında zurnaya həvəs göstərənlərimiz var. Bunların tez-tez televiziya ilə çıxışlarına baxırıq, radioda lent yazılarına qulaq asırıq. Elə biri götürək Rasim Ələsgərovu, şamaxılı Rasimi. Bax belə gənclərə sizin münasibətiniz necədir?

Şəkili: Mən Rasimi yaxşı tanıyıram, hətta o, radio ilə mənim lentlərimə qulaq asdıqdan sonra yanıma gəlib, bəzi məsələləri öyrəndi. O, məni özünə ustad seçib, ondan heç nəyi əsirgəmirəm. İstədiklərini ona öyrədirəm, mən də sevinirəm ki, gənclərimiz arasında Rasim kimi istedadlı musiqiçilərimiz yetişir.

Sual: Bəs bu gənclərin ifaçılıq qabiliyyətlərindən razısınızmı, onların çalğıları nə dərəcədə uğurlu alınır. Onlar zurnada ifası çətin alınan muğamı yaxşı çala bilərlərmi?

Şəkili: İndiki gənc zurnaçılarımız əvvəlcə klarnet çalmağı öyrənirlər. Doğrusunu deyim ki, klarnetdə havalar zurnaya nisbətən asan ifa olunur. Onların klarnetdə asanlıqla çaldıqları hava bəzən zirnada alınmır, mənim özümün də şagirdlərim var. Biliram ki, onların uğurları və uğursuzluqları nədədir. Ancaq bu qədim el alətinə, zurnaya ki, onlarda belə maraq var, həvəs var, bu, çox yaxşıdır.

Sual: Ələfsər dayı, camaat zurnanı necə qarşılayır?

Şəkili: Yaşlı nəsil demək olar ki, elə əvvəlki kimi, ancaq yeniyetmələr, cavanlarımız bir qədər başqa cür baxırlar zurnaya, hamı yox, bəziləri. Bu da ondan irəli gəlir ki, gəncliyin maraq dairəsi genişlənir, zövqlər müxtəlifləşir.

Ancaq doğrusunu deyim ki, yaxşı çalanda yüksək ifaçılıq məharəti göstərəndə zurna həmişə olduğu kimi indi də qəlbləri riqqətə gətirir. İstər yaşlı olsun, istər cavan. Bəzən görürsən ki, zurna səsi toy camaatını cuşa gətirir. Hamı vəcdə gəlib dövrə vurur, rəqs eləyir. Hətta güləşmək istəyənlər ortaya düşürlər. Bütün bunlar zurnanın ecazkar səsindədir. Mən istərdim ki, bu səs toylarımızdan eşidilsin. Ata-babalarımızın ulu yadigarlarımızın ömrü daha da uzansın, gənclərimizin arasmda daha yaxşı ifaçılar yetişsin.

Sual: Xalqımızın ən gözəl adəti toy şənliyi axır vaxtlar qazanc mənbəyinə çevrilib. Sizin müasir toylarımıza münasibətinizi bilmək maraqlı olardı.

Şəkili: Deyirlər, bir vaxt vardı ki, qırx gün, qırx gecə toy çalınarmış, özü də təmənnasız. Toy sahibinin ancaq bir istəyi varmış ki, qoy el-oba eşitsin, bilsin ki, dünyada bir ailənin də sayı artdı, filankəs ev-eşik yiyəsi oldu. Doğrudur, indi qırx gün, qırx gecə toy çaldırmağa nə imkanımız var, nə də vaxtımız. Ancaq toylarımız öz müqəddəsliyini qoruyub saxlamalıdır. Unutmaq olmaz ki, hər kəsin həyatında bircə dəfə olur toy. Buna görə də çalışmalıyıq ki, həyatımızda bircə dəfə baş verən bu hadisə təmiz, saf münasibətlər üzərində qurulsun".

1980-ci illərədə aid olan bu sual-cavabda ustadın maraqlı fikirləri onun daxili elminin saflığını, əsl azərbaycanlı və sənətkar düşüncələrinin ifadəsi olmaqla bərabər bu günün və gələcəyin nəsillərinə də həm örnək, həm də müdrik tövsiyyələrdir.

Ələfsər Şəkilinin mahir ifası şairlərin də ilham mənbəyi olub.Həmin şeirlərdən bir neçəsinə nəzər salaq:

EL SƏNƏTKARI

Yenə də uçurdu ilham pərimi
Dinib xoş səsilə o qara zurna.
Ulu Şəkim deyir Ələfsərimi,
Nəğməsi tanıdıb bütün cahana.

Səndəki naləni, səndəki qəmi
Sözsüz ki, duymayır sönük ürəklər
Qoy unutmasınlar, el məsəlini
Zərin qiymətini zərgərlər bilər.

Nəğməli şəhidi deyirəm sənə
Keçmişi bəlalı Azərbaycanın
Sənə nəfəs verib səsləndirənə
Bu gün hörməti var hər bir insanın.

Bir nakam aşiqin məhəbbətini
Ələfsər zurnası ellərə yayır.
Bir ana qəlbinin övlad dərdini
Ələfsər zurnası özü ağlayır.

Onda igidlikdən min sədalar var,
İstər bəmdə olsun, istərsə zildə.
Onsuz duscıdır belə sənətkar
İstər qəlbdə olsun, istərsə dildə!



ƏLƏFSƏR ZURNASI HAVALANANDA

Elə dayanır ki, qoca dağların,
Deyirsən dünyanın gücü var onda
Bir boyda ucalır uca dağlarım,
Ələfsər zurnası havalananda.

Qurbanı olduğum o qara zurna
Taleyi-taleyə bağlayar indi
Gözləri yol çəkən ağbirçək ana
Bəxtiyar-bəxtiyar ağlayar indi.

Çəkilir qızların göyə insafı,
Qoymurlar hal qala gəncdə, cavanda
Ay zalım, onsuz da yanıram axı,
Ələfsər zurnası havalananda.

"Cəngi"yə yerindən oynayıb bədən.
Dəli "Koroğlu" da qızınmışam mən
Mənə yaxm durma, amandır, qardaş,
Mənki od almışam "Yanıq Kərəm"dən.

Açılır dünyanın qaşı, qabağı,
Yer-göy səadətə bürünür, Allah!
"Şəki yallısı"nda Vətən torpağı,
Nə qədər müqəddəs görünür, Allah

Yetdi, sona yetdi həsrətli aylar,
Çəkir karvanını qəm də, hicran da.
Evə sözlü gəlir, sözlü cavanlar
Ələfsər zurnası havalananda.

Qurtuluş Süleymanlı

ƏLƏFSƏR

Bu mərifət, məharət ki, səndə var,
Müyəssərdi böyük ada, Ələfsər.
Aldığın ad-sana qabil sənətkar
Halal olsun bu dünyada, Ələfsər.

Min bəzək yaraşır bir barmağına,
Haşiyələnə zivər, zər barmağına
Qızıldan don gərək hər barmağına
Durmuşam bu təmənnada, Ələfsər.

Çaldın "Bayatı-Kürd", "Mahur", "Şur", "Qatar"
İnsan gedər gedir, sənət yadigar.
Qayalar dilləndi, əks etdi dağlar
Sən çalanda gör harada, Ələfsər.

Eşitsə sözünü bəhr ilə bər
Olar obaların dilində əzbər
Demirik, öz Vətənidir Kəlbəcər
Düşərəm Şəkidə yada, Ələfsər.

1968-ci ilin iyul ayında Kəlbəcərdə,
İstisuda qastrolda olarkən həsr olunmuşdur.

Aşıq Sakit

Ustad sənətkar Ələfsər Şəkilinin ifaçılıq xüsusiyyətlərini araşdırmaq üçün onun bir neçə lent yazısını nota köçürdük. Bu not yazılarını təhlil edərkən nəfəsli alət olan zurnanın xüsusi spesifik xüsusiyyətləri və bu alətin ifaçılığında Ələfsər Şəkilninin özünəməxsus cəhətləri diqqəti cəlb edir. Həmin not yazılarını təqdim edirik:

ŞƏKİ YALLISI

İfaçı: Əliəfsər Rəhimov (Şəkili)
Not yazısı: Səadət Təhmirazqızı




tr
tr
Maestoso
tr
tr


Largo
3
3
3
3
3





QOCA KƏRƏMİ

İfaçı: Əliəfsər Rəhimov (Şəkili)
Not yazısı: Səadət Təhmirazqızı





















TURACI

İfaçı: Əliəfsər Rəhimov (Şəkili)
Not yazısı: Səadət Təhmirazqızı

Largo (ad libitum)




Allegro
f













ELDƏNİZ MƏMMƏDOV

Məmmədov Eldəniz Məmməd oğlu 1964-cü il sentyabrın 29-da Şəkidə anadan olub. 1975-ci ildə ilk musiqi təhsilini 2 saylı musiqi məktəbində Ramiz Sadıqovdan və Urfan Zeynalovdan alıb. 1986-cı ildə Şəki musiqi texnikumuna daxil olub. Burada Zahir Mustafayev və Rəsul Rəsulovdan təhsil alıb. Eldəniz Məmmədov bir ifaçı kimi, o zamanlar Şəkidə fəaliyyət göstərən ansambllarda çalışıb. Bunlardan "Nur", "Şəms", "Dərya", "Xəmsə" və başqa ansambllların adını çəkə bilərik. O, bir çox qastrol səfərlərində iştirak edərək qarmon alətində qədim xalq rəqslərimizi ifa edib. 1993-cü ildə Tiflis şəhərində "Dostluq körpüsü" festivalının qalibi olub. 1980-cı ildə Bakıda keçirilən müsabiqədə də birinci dərəcəli diploma layiq görülüb. Eldəniz Məmmədovun yaradıcılığında bu cür uğurları çoxdur. O, hal- hazırda müəllimlik fəaliyyəti ilə məşğuldur. Onun ifasından bir neçə qədim xalq havalarını nota yazmışıq. Bunlardan "Sakaşen" rəqsini misal göstərə bilərik.

SAKAŞEN RƏQSİ

İfaçı: Eldəniz Məmmədov
Not yazısı: Səadət Təhmirazqızı



RÖVŞƏN KƏRİMOV

Kərimov Rövşən Bünyad oğlu 1968-ci il oktyabrın 5-də Şəkinin Oxud kəndində anadan olub. Orta təhsillidir. İlk musiqi təhsilini Şəkidəki 1 saylı musqi məktəbində Hətəm Məmmədovun kamançа sinfmdə alıb. Atası Bünyad Kərimov mahir zurna çalan olduğu üçün bu sənətə meyl edərək Rövşən Kərimov da tütək və zurna alətlərində çalmağı öyrənir. Beləliklə, o, bu alətlərdə qədim xalq havalarını məharətlə ifa edir.

Rövşən Kərimov Respublikada keçirilən müxtəlif festivallarda iştirak edib. Hətta 1995-ci ildə Türkiyənin Bursa şəhərində keçirilən Ümumdünya folklor festivalında Azərbaycan Respublikasını təmsil edən kollektivdə o da iştirak etmişdir.

Rövşən Kərimovun ifasından bir neçə qədim rəqs nümunələrini nota salmışıq. Onlardan "Çatladı" və "Beşaçılan" el havalarını qeyd edə bilərik.

ÇATLADI RƏQSİ

İfaçı: Rövşən Kərimov
Not yazısı: Səadət Təhmirazqızı







BEŞAÇILAN

İfaçı: Rövşən Kərimov
Not yazısı: Səadət Təhmirazqızı







ƏLƏDDİN RƏSULOV

Rəsulov Ələddin Ziyəddin oğlu 1954-cü il dekabrın 8-də Şəkinin Baş Zəyzit kəndində anadan olub. 8-ci sinifdən Bakıya gələrək 1 saylı fizika-riyaziyyat təmayüllü orta məktəbdə təhsilini davam etdirib. 1972-ci ildə həmin məktəbi bitirərək Asəf Zeynallı adına musiqi texnikumuna imtahan verir. Lakin müsabiqədən keçə bilmir, amma məlahətli səsi olduğuna görə onu Azərbaycan Dövlət Filarmoniyasının xoruna solist göndərirlər. Bir müddət orada işləyir. Eyni zamanda bu vaxt ərzində o, ustad xanəndə Hacıbaba Hüseynovdan muğam sənətinin sirrlərini öyrənir. 1977-ci ildə Şəkiyə qayıdaraq buradakı musiqi texnikumuna daxil olur.

Ələddin Rəsulov yaradıcı ifaçıdır. Belə ki, o, gənc yaşlarından sözləri və musiqisi özünə aid olan bir neçə mahnılar bəstələmişdir.

Bu mahnıları ilk dəfə özü solisti olduğu "Səbuhi" ansamblının müşayiəti ilə ifa edib. Ələddin Rəsulovun sənətini Şəki camaatı çox böyük rəğbətlə qarşılayır. Demək olar ki, o, bütün el şənliklərinin bəzəyidir. Eyni zamanda Şəkidə keçirilən bütün mədəni və kütləvi tədbirlərdə tez-tez çıx.şlar edir. Ələddin Rəsulov respublikamızda keçirilən müxtəlif müsabiqə və festivallarda da iştirak etmişdir. Onun ifasından sözləri və musiqisi özünəməxsus olan "Ana torpağıma" və "Olar inşallah" mahnılarmı nota yazdıq. Bunlar müasir Şəki folkloruna aiddir.

ANA TORPAĞIMA

Musiqi-Söz: Ələddin Rəsulov
Not yazısı: Səadət Təhmirazqızı



2. Ana torpağıma məndə bağlıyam,
Şəkiliyəm, həm də Qarabağlıyam.
Ürəyim, canımdır Azərbaycanım
Onunla ucalar şöhrətim-şanım.
Dayaqdır elimə o Naxçıvanım,
Bu xalqın şairi, xalqın oğluyam.

3. Ana torpağıma məndə bağlıyam,
Şəkiliyəm, həm də Qarabağlıyam.
Sevinirəm xalqı azad görəndə
Qocanı, cavanı mən şad görəndə.
Doğma Qarabağı abad görəndə
Çətin ki, mən də göz yaşım saxlayam.

OLAR, İNŞALLAH

Musiqi-Söz: Ələddin Rəsulov
Not yazısı: Səadət Təhmirazqızı



2. Ağılda yox düşüncələr.
Boş-boş yaşamağa nə var.
Bizdən də bir söz yadigar.
Qalar inşallah ay aman
Qalar inşallah.

3. Bir şairəm sözüm-düzüm.
Azərbaycan ürək-gözüm.
Şuşaya gedəndə gözüm.
Dolar inşallah ay aman.
Dolar inşallah.

4. Füzuli bizim yurdumuz.
Xocalı ağır dərdimiz.
Torpağı milli ordumuz.
Alar inşallah. ay aman.
Alar inşallah.

AYDIN YƏHYAYEV

Yəhyayev Aydın Fərman oğlu 1960-cı il fevralın 19-da Şəkidə anadan olub. 1 saylı Şəki şəhər orta məktəbini bitirib (1967-77-ci illər). O, ilk musiqi təhsilini Şəkinin görkəmli sənətkarı olan Nurəddin Bədəlovdan alıb. 1978-80-ci illərdə hərbi xidmətdə olub, qayıtdıqdan sonra o zamanlar yeni yaranmış "Səbuhi" ansamblında işləyib. 1975-ci ildə zonalar üzrə müsabiqədən keçərək müəllimlik fəaliyyətinə başlayıb. 1984-cü ildən isə Fuad Əbdürrəhmanov adına Şəki uşaq incəsənət məktəbində çalışır. Demək olar ki, bütün tədbirlərdə yaxından iştirak edir. Hətta 1989 və 1990-cı illərdə keçirilən "Xarı bülbül" festivallarında da uğurla çıxış edib. Ümumiyyətlə, Aydın Yəhyayev müxtəlif müsabiqə və festivalların laureatı olub, Bakıda keçirilən bir çox konsertlərdə iştirak edir.

Qarmon alətini özünəməxsus tərzdə ifa edən Aydın Yəhyayev bir çox qədim havaları bu günkü nəslə aşılayır. Onun ifasında biz də qədim rəqsləri eşitdik, bunlardan "Qədim Şəki" rəqsini nota yazdıq.

QƏDİM ŞƏKİ RƏQSİ

İfaçı: Aydın Yəhyayev
Not yazısı: Səadət Təhmirazqızı



ƏYYUB MƏMMƏDOV
1967-2012

Əyyub Salman oğlu Məmmədov 1967-ci il iyunun 7-də Şəkidə anadan olmuşdur. 1978-ci ildə 2 saylı uşaq musiqi məktəbinə daxil olaraq ilk musiqi təhsilini sənətkar Ələfsər Şəkilidən alıb. 1980-ci ildə Bakıda keçirilən uşaq müsabiqəsində iştirak edərək müxtəlif bölgələrdən yığılmış, "birləşmiş orkestrin" tərkibində çıxış edir. 1982-ci ildə Şəki musiqi texnikumuna daxil olaraq burada musiqi təhsilini davam etdirir. Hərbi xidmətə çağrıldığı üçün təhsili yarımçıq qalır, qayıtdıqdan sonra yenidən təhsilini davam etdirərək sənətin sirrlərini daha dərindən mənimsəyir.

Şəkidə zurna alətinin mahir ifaçısı kimi tanınan Əyyub Məmmədov bir sıra müsabiqə və festivalların qalibi olmuşdur. Dəfələrlə Bakıda keçirilən dövlət əhəmiyyətli tədbirlərdə fəal iştirakına görə diplom, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb. O, 2001-ci ildə dünya azərbaycanlılarının birinci qurultayına həsr olunmuş Heydər Əliyev adına "Respublika" sarayında keçirilən böyük tədbirdə solo ifaçı kimi çıxış etmişdir. O, uzun illər 4 saylı musiqi məktəbində işləyib və özündən sonrakı nəslə sənətin sirlərini öyrədib. Hətta ilk müəllimi Ələfsər Şəkilinin nəvəsi Ələfsər Rəhimov onun yetirməsi kimi Bakı musiqi kollecində təhsil alıb. Əyyub Məmmədov bir çox qədim el havalarını zurna alətində məharətlə ifa edib. Biz Şəkidə olarkən onunla görüşüb bir neçə ifalarını lentə yazmışdıq. İndi həmin lent yazıları Əyyub Məmmədovdan musiqi sənətimizə bəxş olunan yadigarlar kimi qələmə aldığımız not yazılarında və lent yaddaşında öz əksini tapır. Bunlardan "Qazax Kərəmi", "Bənövşə" və "Şirvan bulağı" el havalarını qeyd edə bilərik.

QAZAX KƏRƏMİ RƏQSİ











BƏNÖVŞƏ RƏQSİ

İfaçı: Əyyub Məmmədov
Not yazısı: Səadət Təhmirazqızı




tr
1.
2.




tr


tr

ŞİRVAN BULAĞI

İfaçı: Əyyub Məmmədov
Not yazısı: Səadət Təhmirazqızı

Allegro





FAİQ MƏMMƏDOV

Məmmədov Faiq Yusif oğlu 1948-ci il martın 23-də Şəkidə anadan olub. 1965-ci ildə Nizami adına 7 saylı orta məktəbi bitirdikdən sonra Şəki toxuculuq texnikumuna daxil olub. Oranı 1968-ci ildə "fərqlənmə diplomu" ilə bitirdikdən sonra Gəncədə "Kənd təsərrüfatı" İnstitutunda təhsilini davam etdirərək 1971-ci ildə başa vurub.

Faiq Məmmədov erkən yaşlarından musiqi ilə ciddi məşğul olub. Belə ki, 1963-cü ildən 1968-ci ilə qədər o vaxtkı pionerlər evində qarmon dərnəyində müəllim işləyib. Bu sənəti demək olar ki, o, ustadlardan eşidərək xüsusi qabiliyyəti ilə öyrənib, Özünün etiraf etdiyinə görə Teyyub Dəmirov, Məmmədağa Ağayev kimi sənətkarların ifalarına tez-tez qulaq asıb və bu sənəti onlardan mənimsəyib. 1999-cu ildən Şəki 4 saylı musiqi məktəbində muğam müəllimi işləyən Faiq Məmmədov sənətin sirrlərini yeniyetmələrə aşılayır. O yalnız ifaçı və müəllim kimi deyil, öz yaradıçıhğı üzərində də çalışır. Özünün bəstəsi olan bir neçə rəqslər vardır ki, onları nota salmışıq. Bunlardan "Turalı", "Rəvanı", "Aynuru" rəqslərini qeyd edə bilərik. Faiq Məmmədovun bəstələdiyi bu rəqslər müasir Şəki folkloruna aiddir.

TURALI

İfaçı: Faiq Məmmədov
Not yazısı: Səadət Təhmirazqızı





RƏVANI

İfaçı: Faiq Məmmədov
Not yazısı: Səadət Təhmirazqızı





AYNURU

İfaçı: Faiq Məmmədov
Not yazısı: Səadət Təhmirazqızı



NEMƏT MƏMMƏDOV
1924 – 1993

Nemət Əhmədiyyə oğlu Məmmədov 1924-cü il, mart ayının 2-də Şəki şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini əməkdar müəllim, tanınmış tarzən Əhmədbəy Tahirovdan alıb. Uşaq yaşlarından kütləvi bayram tədbirlərində, el şənliklərində fəal iştirak edən Nemət Məmmədov 1945-1947-ci illərdə Sabir adına Şəki Dövlət Dram Teatrının orkestrində tar çalmışdır. Sonralar təhsilini Bakıda A.Zeynallı adına orta ixtisas musiqi məktəbində davam etdirərək ustad tarzən Əhməd Bakıxanovdan dərs alıb. O, görkəmli sənətkarlar Hacı Məmmədov, Baba Salahov, Əhsən Dadaşov və Sərvər İbrahimovla eyni dövrdə oxumuş və onlarla səmimi dostluq ünsiyyətində olmuşdur.

1958-ci ildə Şəkidə orta ixtisas musiqi məktəbi açılır. Həmin məktəbə rəhbərlik edən Baxşəli Axundovun dəvəti ilə Nemət Məmmədov orada tar müəllimi kimi əmək fəaliyyətini davam etdirir. O, ulu tarımızla yanaşı daha bir neçə milli musiqi alətlərinin mahir ifaçısı kimi yadda qalıb. Nemət Məmmədov yaradıcı sənətkar olub. Belə ki, o, bir neçə təsnif və rənglərin də müəllifidir. Nemət Məmmədovun yetirmələri həm Şəkidə, həm də respublikanın müxtəlif bölgələrində geniş fəaliyyət göstərirlər. Onun tələbələrindən Töhrab Hüseynov, İsmayıl Əliyev, Kamil Həmidov, Əbülfət Məmmədrəhimov, Fazil Əliyev Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) məzunlarıdır. Digər tələbələrindən Seyran Zülfüqarov, Aydın Cəbrayılov və başqalarının da adını çəkə bilərik ki, onlar musiqi sənətini gənc nəslə aşılayırlar. Nemət müəllim solo ifaçılıqla yanaşı görkəmli xanəndələri də müşayiət etmişdir. Ulu və müqəddəs muğamlarımızın mahir ifaçısı olan sənətkar ömrünün sonuna qədər Şəki Musiqi Kollecində müəllim işləmişdir.

Nemət Məmmədov 1993-cü il aprelin 22-də vəfat edib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Xalq musiqisi kabinetində "Şəkinin musiqi folkloru" ilə bağlı araşdırma apararkən orada Şahid Əldülkərimovun səsindən Nemət Məmmədovun "Sarı sim" mahnısına rast gəldik. Həmin mahnının not yazısını təqdim edirik.

SARI SİM

Musiqi: Nemət Məmmədov
İfaçı: Şahid Əbdülkərimov
Not yazısı: Səadət Təhmirazqızı



2. İstədim ki, çalam mən
Tarda çala bilmədim.
Tarı çalmaq olarmı,
Olmayanda sarı sim.
Sevimli qız, unutma gəl
O qırılan simi sən.
Əgər qəlbim bir tarsa,
Onun sarı simisən

MAQSUD ŞİRİNZADƏ
1931-1973

Şirinzadə Maqsud Əhmədiyyə oğlu 1931-ci ildə Şəkidə anadan olmuşdur. Erkən yaşlarından musiqiyə böyük həvəs göstərməsi sayəsində o, 1948-ci ildə Şəki uşaq musiqi məktəbinin tar sinfinə daxil olaraq əməkdar müəllim Əhmədbəy Tahirovdan dərs almışdır. Eyni zamanda tanınmış tar ifaçısı Nemət Məmmədov da onun müəllimi olmuşdur.

Maqsud Şirinzadə 1952-ci ildə Bakıya gələrək A.Zeynallı adına orta ixtisas musiqi məktəbinə daxil olur. Burada görkəmli tarzən Əhməd Bakıxanovdan dərs alır. Oranı bitirdikdən sonra isə qiyabi olaraq Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) tar sinfində təhsilini davam etdirir.

Maqsud Şirinzadə uzun illər Şəki şəhər uşaq musiqi məktəbində müəllim və direktor, eyni zamanda Şəki orta ixtisas musiqi məktəbində də bir müddət direktor vəzifələrində çalışmışdır,

Geniş yaradıcılıq fəaliyyətinə malik olan sənətkar Şəki şəhər Mədəniyyət evində xalq çalğı alətləri ansamblına da rəhbərlik etmişdir. O, tarla yanaşı sazın, udun, qarmonun, fortepianonun da mahir ifaçısı olmuşdur.

Unudulmaz tarzən solo ifaçılıqla yanaşı, dövlət tədbirlərində və el şənliklərində məşhur xanəndələri də müşayiət etmişdir. Milli musiqimizin mahir bilicisi və ifaçısı olan Maqsud Şirinzadə 1973-cü ilin noyabr ayında vəfat etmişdir. Yaddaşlarda onun, bir ifaçı və müəllim kimi Şəknin ifaçılıq salnaməsində özünəməxsus xidmətləri daim yad olunur.

AYDIN CƏBRAYILOV

Aydın Məmməd oğlu Cəbrayılov 1946-cı il sentyabrın 21-də Şəki şəhərində anadan olmuşdur. 1957-1962-ci illərdə 1 saylı Şəki şəhər uşaq musiqi məktəbinin tar sinfində oxumuşdur. 1962-1966-cı illərdə isə Şəki orta ixtisas musiqi məktəbində Nemət Məmmədovdan dərs almışdır.

1964-1970-ci illərdə şəhər 1 saylı uşaq musiqi məktəbində, 1970-ci ildən 2 saylı uşaq musiqi məktəbində tar müəlimi işləyib.

Aydın Cəbrayılov 1964-1966-cı illərdə Şəki ipək istehsalat birliyinin klubunda bədii rəhbər vəzifəsində çalışaraq təşkil etdiyi "İpəkçi" instrumental ansamblı ilə zəhmətkeşlər qarşısında çıxışlar etmişdir.

1972-ci ildə isə müəllimlərdən ibarət xalq çalğı alətləri ansamblı yaratmış, həmin ansamblla respublikada keçirilən müxtəlif tədbirlərdə həötta Azərbaycan Dövlət Televiziyasında da uğurlu çıxışlar etmişdir.

Aydın müəllimin pedaqoji fəaliyyəti sayəsində Şəkinin ifaçılıq sənətinə bir neçə dəyərli musiqiçilər bəxş olunub. Onun şagirdləri Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında, Mədəniyyət və İncəsənət Universitetində təhsil alaraq peşəkar musiqiçi kimi yetişmişlər.

Aydın müəllim sonun xidmətlərinə görə Respublika Mədəniyyə və Turizm Nazirliyinin fəxri fərmanları və digər təşkilatların diplomları ilə təltif olunmuşdur.

İSMAYIL ƏLİYEV

Şəki Azərbaycan Mədəniyyəti və İncəsənətinə Cövdət Hacıyev, Şəfiqə Axundova, Məmmədsaleh İsmayılov, Emin Sabitoğlu, Cavanşir Quliyev kimi görkəmli musiqiçi və bəstəkarlar bəxş etmişdir. Onlardan biri də istedadlı musiqiçi İsmayıl Əliyevdir.

İsmayıl Əliyev 1947-ci il sentyabrın 20-də Şəkidə anadan olub. O, 1957-ci ildə Şəki şəhər 7 illik uşaq musiqi məktəbinin tar sinfinə daxil olaraq, tanınmış tarzən Maqsud Şirinzadədən dərs almışdır.

1962-1966-cı illərdə Şəki orta İxtisas musiqi məktəbində təhsilini davam etdirən İsmayıl Əliyev milli və professional musiqinin sirrlərinə yiyələnərək, dirijor və bəstəkarlıq ixtisaslarının texniki imkanlarına bələd olmuşdur. O, müəllimləri görkəmli bəstəkar Xəlil Cəfərov, Rəşid Əliyev, Nemət Məmmədov, Tahir Əzimov kimi sənətkarlardan dərs alıb.

Hələ tələbə ikən yəni 1966-cı ildən İsmayıl Əliyev uşaq musiqi məktəbində tar müəllimi kimi iş fəaliyyətinə başlamışdır.

1967-72-ci illərdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında təhsilini davam etdirən İsmayıl Əliyev Adil Gəray və Süleyman Ələsgərov kimi görkəmli bəstəkarlardan və digər tanınmış musiqiçilərdən dərs alır. İsmayıl Əliyevin ifaçılıq fəaliyyətində Azərbaycan Dövlət Tele-Radio Verilişləri Komitəsinin nəzdində Səid Rüstəmovun rəhbərlik etdiyi xalq çağı alətləri orkestrinin (1969-1972-ci illər), M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında isə tarzən Hacı Məmmədovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblının mühüm rolu olmuşdur. O, bü kollektivlərdə saz ifaçısı kimi çıxış edib.

İsmayıl Əliyev 1972-ci ildə ali təhsilini başa vurduqdan sonra Şəki Orta İxtisas Musiqi məktəbində xalq çalğı alətləri şöbəsinin müdiri kimi əmək fəaliyyətini davam etdirmişdir.

Uzun illərdir ki, tar müəllimi, eyni zamanla xalq çalğı alətləri orkestrinin bədii rəhbəridir. Artıq 40 ildən çoxdur ki, o, Şəki Musiqi Kollecində işləyir.

İsmayıl Əliyevin yaradıcılığında bəstəkarlıq fəaliyyəti də mühüm yer tutur. Onun ilk musiqi əsəri 1962-ci ildə şairə Höküma Billurinin sözlərinə yazdığı "Gəl" mahnısıdır.

Sonrakı illərdə o müxtəlif musiqi janrlarına müraciət edərək bir neçə əsərlər yazıb. Bunlardan Ulu öndər Heydər Əliyevin anadan olmasının 75 illiyinə yazdığı təntənəli oda, M.F.Axundovun 170 illiyinə təntənəli oda, Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 70 illiyinə həsr olunan vokal

silsilə, Əmək qəhrəmanlarına ünvanlanan mahnılar, vətən haqqında nəğmələr, müxtəlif mövzulu "Xətrinə dəydi", "Şahidimiz", "Bu gün bayramdır", "Analar", "Üç telli sazım", "Bilmirəm qəlbimi açım, açmayım", "Kaş ki səni sevməyəydim" və b. mahnılarının adını çəkə bilərik. İsmayıl Əliyev "Vətən səsləyir bizi" - hərbi marş, Məmməd Şəkilinin Şəki Dövlət Dram Teatrında tamaşaya qoyulan "Yaşıl işıq" əsərinə, Xuraman Məmmədovanın Kukla Teatrında tamaşaya qoyulan «Tülkü və Durna» tamaşasına və digər dram əsərlərinə də musiqi bəstələmişdir. Onun bəstələdiyi mahnıların sözlərinə nəzər salanda Bəxtiyar Vahabzadə, İlyas Tapdıq, Vaqif Aslan, Qurtuluş Süleymanov, Sabir Əfəndiyev, Rövzət Dəmirçizadə, İsa Şuşalı və başqa şairlərin adı ilə rastlaşırıq.

Ümumiyyətlə İsmayıl Əliyev 100-dən çox mahnıların müəllifidir.

Ali təhsilli ifaçı, dirijor, tarzən İsmayıl Əliyevin rəhbərlik etdiyi musiqi kollektivləri Respublika əhəmiyyətli tədbirlərdə nümunəvi çıxışlar edir.

İsmayıl Əliyev 1972-1977-ci illərdə Respublika Festivallarının laureatı olan "Səbuhi" xalq çalğı alətləri ansamblının bədii rəhbəri olmuş, 1977-1990-cı illərdə isə Ümummittifaq Festivalının laureatı olan "Zirvə" xalq instrumental ansamblının konsertmeystri olmuşdur. 2010-cu ildən başlayaraq Şəkidə keçirilən "İpək yolu" Beynəlxalq festivalında İsmayıl Əliyevin rəhbərlik etdiyi Şəki Musiqi Kollecinin xalq çalğı alətləri orkestri və xoru uğurla çıxış etmişdir. Xaricdən gəlmiş musiqi kollektivlərinin ifaçıları və qonaqlar orkestrin bu çıxışlarını yüksək qiymətləndirmişlər.

2013-cü ildə Azərbaycan Bəstəkarlar ittifaqının sədri, xalq artisti, professor Firəngiz Əlizadə rəsmi olaraq İsmayıl Əliyevi Azərbaycan Bəstəkarlar İttifaqı Şəki filialının rəhbəri təyin etmişdir. Odur ki, İsmayıl Əliyev də gənc bəstəkarları ətrafına toplayaraq onlara lazımi məsləhətlər verir.

Bir sözlə ifaçı, dirijor, bəstəkar və müəllim kimi fəaliyyət göstərən İsmayıl Əliyev Şəkinin ifaçılıq sənətinə öz töhfələrini verərək yeni musiqiçi nəslinin formalaşmasında yaxından iştirak edir.

SEYRAN ZÜLFÜQAROV

Seyran Qasım oğlu Zülfüqarov 1948-ci il sentyabrın 15-də Şəki şəhərində anadan olub. 1959-1964-cü illərdə şəhər 1 saylı uşaq musiqi məktəbində tar müəllimi Maqsud Şirinzadədən dərs almışdır.

1964-1970-ci illərdə təhsilini Şəki orta ixtisas musiqi məktəbinin tar sinfində davam etdirmişdir. Not müəllimi Ağaverdi Dadaşov, muğam müəllimi Maqsud Şirinzadə olub. 1970-1976-cı illərdə 1 saylı uşaq musiqi məktəbində tar müəllimi işləmişdir. 1976-cı ildən isə hal-hazıra kimi Şəki orta ixtisas musiqi məktəbində (indi musiqi kolleci) tar müəllimi işləyir.

Seyran Zülfüqarov 1970-ci ildə şəhər mədəniyyət evində "Səbuhi" xalq çalğı alətləri ansamblını təşkil etmişdir. Onun rəhbərliyi ilə fəaliyyət göstərən ansambl, Respublikamızın bir çox şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur. Həmin ansamblın Azərbaycan Televiziyasında çıxışları olmuş, Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə, Moskvada SSRİ Xalq Təsərrüfatının Nailiyyətləri Sərgisində keçirilən festivallarda uğurla çıxış etmişdir.

1991-2006-cı illərdə müntəzəm olaraq Şəkidə keçirilən görkəmli xanəndə Ələsgər Abdullayevin xatirəsinə həsr olunmuş muğam festivalları çərçivəsində xalq artistləri Yaqub Məmmədov, İslam Rzayev, Arif Babayev, Canəli Əkbərov, Tükəzban İsmayılova, Səkinə İsmayılova, Ağaxan Abdullayev və başqalarını müşayiət etmişdir. Onun sənətkarlığını xalq artistləri Həbib Bayramov, Arfi Babayev, professor, sənətşünaslıq doktoru Ramiz Zöhrabov yüksək qiymətləndirmişlər. Hazırda onun bəzi tələbələri Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında, Milli Konservatoriyasında, Mədəniyyət və İncəsənət Universitetində təhsil alırlar.

Seyran Zülfüqarov xalq musiqimizin mahir bilicisi və ifaçılarından biridir.

Dəfələrlə Mədəniyyət və Turizm Nazirliyinin, Təhsil Nazirliyinin diplom, fəxri fərman ilə təltif edilmişdir.

Seyran Zülfüqarov yalnız ifaçı kimi deyil, tar və ud alətlərinin ustası kimi də tanınmış sənətkardır. Hətta Şəkiyə gələn bir neçə dövlət xadimlərinə onun düzəltdiyi tar və ud aləti bəxşiş kimi verilib. Respublikamızın görkəmli tar ifaçılarının əksəriyyəti məhz Seyran müəllimin düzəltdiyi tarda çalırlar. Bir sözlə bu hörmətli sənətkarın milli çalğı alətlərimizin hazırlanmasında və ifaçılığında mühüm xidmətləri var.

YAŞAR BABAYEV

Yaşar Abdulrəşid oğlu Babayev 1950-ci il martın 10-da Şəki şəhərində anadan olmuşdur. 1959-1964-cü illərdə 1 saylı uşaq musiqi məktəbinin, 1964-1968-ci illərdə isə Şəki Orta İxtisas musiqi məktəbinin tar sinfində təhsil almışdır. 1968-ci ildən 1994-cü ilə qədər 1 saylı uşaq musiqi məktəbində tar müəllimi işləmişdir.

1965-ci ildə onun təşəbbüsü ilə şəhər M.Füzuli adına mədəniyyət və istirahət parkında "Gənclik" xalq çalğı alətləri ansamblı təşkil olunmuşdur.

1977-ci ildə isə onun təşəbbüsü ilə "Zirvə" vokal-instrumental ansamblı yaradılmış və o, ansamblın konsertmeysteri olmuşdur. "Zirvə" ansamblı 1978-ci ilin iyul ayında Moskvada SSRİ Xalq Təsərrüfatının Nailiyyətləri Sərgisində Ümumittifaq Komsomolunun yaranmasının 60 illiyinə həsr olunmuş baxış-müsabiqədə I yeri tutmuş, qızıl medal və laureat adına layiq görülmüşdür. Bu ansambl dəfələrlə Azərbaycan Televiziyasında çıxışlar etmiş, Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə, şəhər və rayonlarda qastrol səfərlərində iştirak etmişdir.

1994-cü ildən Yaşar Babayev Şəki Uşaq İncəsənət Məktəbinin direktoru vəzifəsində çalışır. Uşaq incəsənət məktəbinin müəllimlərdən ibarət xalq çalğı alətləri ansamblına rəhbərlik edir.

O, 2004-2010-cu illərdə Dərbənd Mədəniyyət və İncəsənət İnstitutunun "İfaçılıq alətləri" fakultəsində qiyabi təhsil alaraq, tar sinfini bitirib. Ali təhsilli, fitri istedada malik olan Yaşar Babayev tarın, udun, sazın mahir ifaçılarından biridir.

Respublikanın görkəmli musiqi ifaçıları onun sənətini yüksək qiymətləndirmişlər. Dəfələrlə Respublika Mədəniyyət və Turizm Nazirliyinin diplom, fəxri fərman və hədiyyələri ilə mükafatlandırılmışdır.

Yaşar Babayev bir şəxsiyyət və bir sənətkar kimi şəkililər arasında böyül nüfuza malikdir. 2000-ci ildə sənətkarın anadan olmasının anadan olmasının 50 illik, 2010-cu ildə isə 60 illik yubileyləri şəkililər tərəfindən xüsusi təntənə ilə keçirilmişdir.

ETİBAR ABBASOV

Etibar Yavər oğlu Abbasov 1956-cı il iyulun 5-də Şəki şəhərində anadan olmuşdur. 1965-1971-ci illərdə şəhər 1 saylı uşaq musiqi məktəbinin, 1971-1975-ci illərdə isə Şəki orta ixtisas musiqi məktəbinin tar sinfində təhsil almışdır. 1975-ci ildə təyinatla Qax rayon uşaq musiqi məktəbində tar müəllimi vəzifəsində əmək fəaliyyətinə başlamış və 1978-ci ilədək orada işləmişdir. 1978-ci ildən isə Şəki şəhər uşaq incəsənət məktəbində tar müəllimi və xalq çalğı alətləri şöbəsinin müdiridir.

O, uzun illərdir ki, məktəbin müəllimlərdən ibarət xalq çalğı alətləri ansamblının konsert-meysteridir. Ansambl dəfələrlə Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə, eləcə də Şəkidə keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirak edir.

O, tarın, udun, sazın mahir ifaçılarından biridir. Etibar Abbasov peşəkar musiqiçilərin hazırlanmasında səy və bacarığını əsirgəməyərək Şəkinin ifaçılıq sənətinə öz töhfələrini verir.

ADİL ƏLİYEV

Adil Şərif oğlu Əliyev 1953-cü il iyunun 16-da Şəki şəhərində anadan olub. 1964-1968-ci illərdə şəhər 1 saylı uşaq musiqi məktəbində, 1968-1972-ci illərdə isə Şəki Orta İxtisas Musiqi Məktəbinin tar sinfində təhsil almışdır. 1972-1975-ci illərdə Qax uşaq musiqi məktəbində təyinatla tar müəllimi işləmişdir.

1975-ci ildən indiyə qədər F.Əbdülrəhmanov adına uşaq incəsənət məktəbində tar müəllimi işləyir.

Uzun illərdir ki, məktəbin xalq çalğı alətləri ansamblının üzvüdür. Tarın, sazın, udun mahir ifaçılarından biri olan Adil Əliyev dəfələrlə Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə, eləcə də Şəkidə keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirak edir.

MƏMMƏDRƏSUL BƏKİROV

Məmmədrəsul İbrahim oğlu Bəkirov 1959-cu il noyabrın 15-də Şəki şəhərində anadan olub. 1971-1976-cı illərdə şəhər 1 saylı uşaq musiqi məktəbinin tar sinfində oxumuş, 1976-cı ildə isə Şəki Orta İxtisas musiqi məktəbinin tar sinfinə daxil olmuşdur. 1979-1981-ci illərdə hərbi xidmətdə olmuş, 1981-1982-ci illərdə təhsilini başa vurub təyinatla şəhər 3 saylı uşaq musiqi məktəbində tar müəlimi kimi əmək fəaliyyətinə başlamışdır. 1993-cü ildən şəhər F. Əbdülrəhmanov adına uşaq incəsənət məktəbində tar müəllimi kimi əmək fəaliyyətini davam etdirir.

Tarın, sazın, udun mahir ifaçılarından biri kimi uzun illərdir məktəbin müəllimlərindən ibarət xalq çalğı alətləri ansamblının fəal üzvüdür. Kollektiv dəfələrlə Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə eləcə də Şəkidə keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirak edir.

Məmmədrəsul müəllim eyni zamanda mahir el sənətkarı kimi Şəki şəhərində musiqi alətləri üzrə Şəki emalatxanasına rəhbərlik edir. Emalatxanada milli musiqi alətləri olan tar, saz, ud, zurna, tütək, balaban, nağara, qoşa nağara və digər alətlər hazırlanır, təmir və bərpa edilir. Bu və ya digər xidmətləri ilə Məmmədrəsul müəllim Şəkinin ifaçılıq sənətinə öz töhfələrini verir və yeni ifaçı nəslin yetişməsində yaxından iştirak edir.

NURƏDDİN HƏMİDOV

Nurəddin Alməmməd oğlu Həmidov 1954-cü il martın 10-da Şəki şəhərinin Kiş kəndində anadan olub. Musiqiyə olan həvəsi sayəsində 1966-1969-cu illərdə 2 saylı şəhər uşaq musiqi məktəbinin kamança sinfində Telman Bəkirovdan dərs almışdır.

1972-1976-cı illərdə Şəkili Ələsgər adına Şəki Orta İxtisas Musiqi Texnikumunda təhsilini davam etdirmişdir. Həmin illərdə Nurəddin Həmidov M.F.Axundov adına şəhər mərkəzi mədəniyyət evinin "Səbuhi" xalq çalğı alətləri ansamblının tərkibində Respublikamızın şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur. 1977-ci ildə "Oxu-tar" Respublika Bədii özfəaliyyət müsabiqəsində uğurla çıxış etmişdir.

1976-cı ildə təyinatla İsmayıllı rayon uşaq musiqi məktəbində kamança müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. 1976-1996-cı illərdə 20 il müddətində İsmayıllı rayonunda yaşamışdır. Rayon mədəniyyət evinin "Niyal" instrumental ansamblının fəal üzvü kimi, kollektivlə birlikdə Respublikanın bir çox şəhər və rayonlarında qastrol səfərlərində olmuş, həmçinin Azərbaycan Televiziyasında çıxışları olmuşdur. 1996-cı ildən yenidən doğma Şəkiyə qayıdaraq öz əmək fəaliyyətini davam etdirmişdir. Son illər ərzində Rusiyanın Moska, Tolyatti, Orsk, Samara, Çelyabinsk, Ufa şəhərlərində keçirilən müxtəlif mədəni-kütləvi tədbirlərdə və el şənliklərində uğurla çıxışlar etmişdir. Hələ uşaq ikən 1967-ci ildə Şəkidə «Bala Habil" ləqəbini almış bu el sənətkarı, kamança alətinin mahir ifaçısı kimi bu gün də Şəkinin Respublika əhəmiyyətli tədbirlərində fəal iştirak edir.

Nurəddin müəllim dəfələrlə Respublika Mədəniyyət Nazirliyinin fəxri fərman və diplomları ilə təltif olunmuşdur.

RÜSTƏM XƏLİLMƏMMƏDOV

Xəlilməmmədov Rüstəm Abdulla oğlu 1963-cü il aprelin 22-də Şəki şəhərində anadan olub. Musiqiyə uşaq yaşlarından maraq göstərmiş, şəhər 19 saylı orta məktəbdə təhsil almaqla bərabər 1974-1979-cu illərdə şəhər 2 saylı uşaq musiqi məktəbinin kamança sinfində də oxumuşdur. Burada onun müəllimləri Nurəddin Bədəlov, Bədrəddin Bədəlov, sonralar isə Loğman Məhərrəmov olmuşdur. Həmin illərdə o, özfəaliyyət dərnəyində də iştirak etmişdir. 1978-1979-cu illərdə M.F.Axundov adına şəhər mədəniyyət evində Şahid Əbdülkərimovun rəhbərliyi ilə fəaliyyət göstərən "Səbuhi" xalq çalğı alətləri ansamblın üzvü olmuşdur.

Rüstəm Xəlilməmmədov 1988-1991-ci illərdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının nəzdində olan Xalq Konservatoriyasında Rafiq Şirazidən dərs almışdır. Həmçinin həmin illərdə Bakıda Xətai adına mədəniyyət evinin "Şur" ansamblının fəal üzvü olmuşdur. Eyni zamanda Dövlət tədbirlərində, eləcə də Bakı kəndlərində toy məclislərində xanəndələrdən Səxavət Məmmədovu, Ağakərim Nafisi, Könül Xasıyevanı, Almas Orucovanı, Gülyaz və Gülyanaq Məmmədovaları müşayiət etmişdir.

O, 1992-ci ildə Şəki şəhərinə qayıdaraq, 1993-cü ildən indiyə qədər Şəki uşaq incəsənət məktəbinin kamança sinfində dərs deyir, həmçinin şəhər Mədəniyyət və Turizm şöbəsinin tabeliyində olan B. Ələsgərova adına şəhər klubunda işləyir. Tanınmış tarzən Seyran Zülfüqarəvla birlikdə Şəkili Ələsgər adına muğam üçlüyü yaradıblar. Həmin üçlüklə Şəkidə keçirilən Respublika Muğam Festivallarında Şəkiyə qonaq gəlmiş xalq artistləri Tükəzban İsmayılova, İslam Rzayev, Arif Babayev, Ağaxan Abdullayev, Teymur Mustafayev, əməkdar artist Aygün Bəylər və başqalarını müşayiət etmişlər.

Rüstəm müəllim mahir kamança ifaçısı kimi dəfələrlə Azərbaycan Televiziyasında çıxışlar etmiş, Bakıda keçirilən dövlət tədbirlərində, Respublikamızın bir çox şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur.

VAQİF RƏHİMOV

Vaqif Əhməd oğlu Rəhimov 1942-ci ildə Şəki şəhərində anadan olub. Uşaq musiqi məktəbinin və 1961-1963-cü illərdə Şəki Orta İxtisas Musiqi Məktəbinin kamança sinfini bitirmişdir.

1961-1971-ci illərdə Şəki Pedaqoji Texnikumunda musiqi müəllimi işləmişdir. 1972-1977-ci illərdə Oğuz rayon uşaq musiqi məktəbinin direktoru vəzifəsində çalışmışdır. 1978-1992-ci illərdə Şəki şəhər uşaq musiqi məktəbinin, 1994-cü ildən 2012-ci ilədək isə Şəki uşaq incəsənət məktəbinin dərs hissə müdiri vəzifəsində işləmişdir. Hazırda əmək təqaüdünə çıxmışdır.

Uzun illər ərzində Şəki şəhər mədəniyyət evinin konsert briqadası ilə Respublikanın bölgələrində, Gürcüstanda azərbaycanlıların yaşadıqları rayonlarda qastrol səfərlərində olmuşdur. Dəfələrlə Azərbaycan Televiziyasında çıxışlar etmişdir.

Vaqif Rəhimov nümunəvi işinə görə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin fəxri fərman, diplom və hədiyyələri ilə mükafatlandırılmışdır. Onun şagirdlərinin əksəriyyəti Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının məzunlarıdır.

RAMİZ SADIQOV
1944-1992

Ramiz Abduləli oğlu Sadıqov 1944-cü il fevralın 25-də Şəkidə anadan olmuşdur. Hələ uşaq ikən əmisi xanəndə Ələsgərin sayəsində musiqiyə böyük maraq göstərmişdir. İlk dövrlərdə tar çalmış, sonralar qarmona meyl etmişdir.

O,1961-ci ildə Şamaxıda keçirilən gənc turistlərin VII respublika toplantısında iştirak etmişdir. Ramiz Sadıqov 1962-ci ildə Şəki Orta İxtisas Musiqi məktəbinin klarnet sinfinə daxil olmuşdur. O, 1963-1966-cı illərdə Bakıda hərbi xidmət keçərək həmin illərdə Azərbaycan Daxili İşlər Nazirliyinin bədii özfəaliyyət kollektivinin fəal üzvü olmuşdur.

Ramiz Sadılqov 1966-cı ildə Şəkinin gənc musiqiçilərindən ibarət «Gənclik» xalq çalğı alətləri ansamblının üzvü olmuşdur. 1970-cı ildə isə tarzən Seyran Zülfüqarovun təşkil etdiyi «Səbuhi» xalq çalğı alətləri ansamblında qarmon ifaçısı kimi çıxış etmişdir.

O, 1967-ci ildə Ümumittifaq Xalq yaradıcılığı festivalının, 1977-ci ildə isə Zəhmətkeşlərin I Bədii Yaradıcılıq Festivalının laureatı olmuşdur.

Ramiz Sadıqov dəfələrlə Azərbaycan Televiziyasında çıxışlar etmiş, Respublikamızın şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur.

Şəkinin ifaçılıq sənətində özünəməxsus xidmətləri olan Ramiz Sadıqov 1992-ci il aprelin 10-da 48 yaşında vəfat etmişdir.

ZAİR MUSTAFAYEV

Zair Veysəl oğlu Mustafayev 1949-cu il iyunun 1-də Şəki şəhərində anadan olmuşdur.

Musiqiyə olan həvəsi sayəsində 1962-ci ildə qarmon ifaçılığına meyl edib, 1964-1968-ci illərdə Şəki Pedaqoji məktəbinin ibtidai sinif müəllimi şöbəsində təhsil alıb.

1968-1970-ci illərdə M.F.Axundov adına şəhər mədəniyyət evində işləmişdir. 1970-1975-ci illərdə Dövlət İnşaat Mühəndisləri İnstitutunun memarlıq şöbəsində təhsilini davam etdirmişdir.

1975-1980-cı illərdə Şəki İpək-İstehsalat Birliyinin tikinti şöbəsində mühəndis işləmişdir.

Zair Mustafayev müxtəlif istiqamətlərdə çalışmasına və təhsil almasına baxmayaraq heç vaxt musiqidən ayrılmamış və bu istiqamətdə də püxtələşmişdir. 1980-cı ildən indiyə qədər Şəki Musiqi Texnikumunda (indiki Musiqi Kolleci) qarmon müəllimi kimi çalışır.

Mahir qarmon ifaçısı Zair Mustafayev 1970-1977-ci illərdə "Səbuhi" xalq çalğı alətləri ansamblı ilə dəfələrlə Respublikanın müxtəlif şəhər və rayonlarında, Bakıda keçirilən Respublika Əhəmiyyətli tədbirlərdə və Azərbaycan Televiziyasında çıxış etmişdir.

1977-ci ildən "Zirvə" xalq çalğı alətləri ansamblının üzvüdür. Onu da qeyd etməliyik ki, bu ansambl 1978-ci ilin iyul ayında Moskvada SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində keçirilən YİLKGİ-nin 60 illiyinə həsr olunmuş baxış-müsabiqədə SSRİ üzrə 1-ci yeri tutmuş, qızıl medalla təltif olunmuş, laureat adına layiq görülmüşdür.

Zair Mustafayev 1983-cü ilin noyabr ayında Tümen vilayətinin Koqalım şəhərində keçirilən bayram şənliklərində uğurla çıxış etmişdir.

O, 1995-ci ildə "Zirvə" ansamblı ilə Türkiyənin Bursa şəhərində keçirilən Beynəlxalq Folklor festivalında, 1996-cı ilin may ayında Türkiyənin Eşme şəhərində keçirilən Beynəlxalq Kilim və Sənət Festivalında Azərbaycanı təmsil etmişdir.

Mahir ifaçının onlarla tələbələri indi Respublikamızın müxtəlif şəhər və rayonlarında qarmon müəllimi işləyirlər.

1993-cü ildə Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının xalq çalğı alətləri kafedrasının baş müəllimi Namiq Rəsulov və xalq artisti Dövlət Mükafatı laureatı Süleyman Ələsgərovun köməyilə Zair Mustafayevin «Azərbaycan xalq rəqsləri» kitabı nəşr olunmuşdur. Kitab uşaq musiqi məktəbləri və musiqi texnikumlarının müəllim və tələbələri üçün dərs vəsaiti olmaqla yanaşı konsert repertuarı kimi istifadə olunur.

Onun ifasında "Brilyant", "Xalabacı", «Əsgərani», «On dörd», «Ənzəli», «İnnabı», «Şalaxo», «Qazağı», «Yüz bir», «Cığ-cığa», «Turacı», «Şəki», «Marxal», «Samiri», «Azəri» rəqsləri nota alınıb.

Zair Mustafayevin nota köçürüb tərtib etdiyi rəqs məcmuəsi də diqqətə layiqdir. Xalq Artisti Aftandil İsrafilovun müəllifi olduğu "Kəmalə", "Zemfira", "Bahar", "Şahbuzu", "Elmira", "Futbolçular", "Simrani", "Sevgilim", "Aynurə", və "Rüfəyti" rəqslərindən ibarət həmin məcmuə 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin təhsil şöbəsində müzakirə olunmuşdur. Redaktor Natiq Mustafayev, rəyçilər əməkdar müəllim, professor, Malik Quliyev və xalq artisti Kamil Vəzirov olmaqla kitab nəşr olunmuşdur.

Zair Mustafayev 1971-ci ildə Daşkənddə keçirilən "Toşpi-71" Ali Texniki məktəblərin bədii özfəaliyyət kollektivlərinin Ümumittifaq Festivalında Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunun xalq çalğı alətləri orkestrinin tərkibində çıxış etmiş, kollektiv xüsusi mükafata layiq görülmüş və Daşkənd Televiziyasında konserti təşkil olunmuşdur.

Daha sonra Zair müəllim 1972-ci ildə SSRİ-nin təşkil olunmasının 50 illiyi münasibətilə Moskvada keçirilən Ümumittifaq Televiziya festivalında Respublikamızı təmsil edən İnşaat Mühəndisləri İnstitutu xalq çalğı alətləri orkestrinin tərkibində də uğurla çıxış etmişdir. Qeyd edək ki, həmin orkestrin bədii rəhbəri və dirijoru bəstəkar, xalq artisti Nəriman Əzimov olmuşdur.

Zair Mustafayev bir ziyalı musiqiçi kimi Şəkinin ifaçılıq sənətində göstərdiyi xidmətlərinə görə xalq tərəfindən sevilir və müxtəlif fəxri fərmanlarla təltif olunmuşdur.

TAHİR LƏTİFOV

Tahir Lətif oğlu Lətifov 1960-cı il iyunun 19-da Şəki şəhərində anadan olmuşdur.

1975-76-cı illərdə Şəki şəhər mədəniyyət evinin qarmon kursunda el sənətkarı Nurəddin Bədəlovdan dərs almışdır. 1978-1979-cu illərdə İpək-İstehsalat Birliyinin toxucu istehsalatında işləmişdir.

1984-1986-cı illərdə İpək-İstehsalat Birliyinin klubunda bədii rəhbər vəzifəsində çalışmışdır. Klubun «İpəkçi» instrumental ansamblı dəfələrlə yüngül sənaye işçiləri həmkarlar İttifaqının bədii özfəaliyyət kollektivlərinə baxış-müsabiqədə qaliblər sırasında olmuşdur.

Tahir Lətifov 1987-1992-ci illərdə M.F.Axundov adına şəhər mərkəzi mədəniyyət evinin «Səbuhi» xalq çalğı alətləri ansamblında qarmon çalmışdır. Həmçinin Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə, Azərbaycan Televiziyasında çıxış etmişdir. Eyni zamanda Respublikanın şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur. Hazırda Şəkidə keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirak edən Tahir Lətifov konsertlərdə və el şənliklərində məşhur xanəndələri də müşayiət edir.

TALEH YUSUBOV

Taleh Valeh oğlu Yusubov 1951-ci il iyulun 7-də Şəki şəhərində anadan olub. 1959-cu ildə 1 saylı şəhər musiqi məktəbinin fortepiano sinfinə daxil olmuş, 1966-cı ildə məktəbi bitirmişdir.

1966-1971-ci illərdə Şəki Orta İxtisas Musiqi Məktəbində təhsil almışdır. 1971-1975-ci illərdə isə Dövlət Politexnik İnstitutunun maşınqayırma mühəndisliyi şöbəsində ali təhsilini davam etdirmişdir.

1975-1976-cı illərdə təyinatla Mingəçevir işləmişdir, 1976-1984-cü illərdə o, Şəkidə müxtəlif işlərdə və vəzifələrdə çalışıb. Belə ki, şəhər elektrik şəbəkəsində mühəndis və İpək-İstehsalat birliyində klubun bədii rəhbəri vəzifələri buna misaldır. 1984-2002-ci illərdə isə Taleh Yusubov Şəki ipək istehsalat Birliyində sex rəisi vəzifəsində işləmişdir. Müxtəlif sahələrdə çalışmasına baxmayaraq o, daim musiqiyə bağlı olub.

O, 1971-1973-cü illərdə bəstəkar, xalq artisti Nəriman Əzimovun rəhbərlik etdiyi Politexnik İnstitutunun xalq çalğı alətləti ansamblının üzvü olmuş və Daşkənddə keçirilən "Taşpi-71" Ümumittifaq Festivalında, 1972-ci ildə isə SSRİ-nin 50 illiyinə həsr olunmuş Ümumittifaq Televiziya Festivalında uğurla çıxış etmişdir. Həmin konsertlər SSRİ-nin bütün ərazisinə canlı yayımlanmışdır.

1977-ci ildən «Zirvə» xalq çalğı alətləri ansamblının üzvü olmuşdur.

Taleh Yusubov 1978-cı ilin iyul ayında Moskvada SSRİ Xalq Təsərrüfatı Nailiyyətli Sərgisində keçirilən Ümumittifaq Komsomolunun 60 illiyinə həsr olunmuş müsabiqədə I yeri tutmuşdur. Həmin illərdə dəfələrlə Azərbaycan Televiziyasında, Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə çıxışlar etmişdir. Eyni zamanda Respublikamızın bir çox şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur. Taleh müəllim 2009-cu ilədək «Zirvə» ansamblının solisti kimi fəaliyyət göstərib.

O, 2003-cü ildən Şəki Musiqi kollecinin müəllimi vəzifəsində çalışır.

Onun tələbələri müxtəlif ali musiqi təhsil ocaqlarında təhsil alırlar.

NURƏLİ HACIYEV

Nurəli Məmmədəli oğlu Hacıyev 1945-ci il iyulun 14-də Şəkidə anadan olmuşdur. Şəhər 2 saylı uşaq musiqi məktəbində görkəmli el sənətkarı Ələfsər Rəhimovdan dərs alaraq klarnet, zurna, balaban və tütək ifaçılığının sirrlərini öyrənmişdir. 1967-ci ildən müstəqil olaraq müxtəlif bədii özfəaliyyət kollektivlərində çıxış edib. 1970-1976-cı illərdə "Səbuhi", 1977-1994-cü illərdə isə "Zirvə" xalq çalğı alətləri ansamblarının üzvü olmuşdur.

Nurəli Hacıyev 1978-ci ilin iyul ayında SSRİ Xalq Təsərrüfatının nailiyyətləri Sərgisində Ümumittifaq Komsomolunun 60 illik yubileyinə həsr olunmuş baxış-müsabiqədə laureat adına layiq görülmüşdür. Eyni zamanda 1974-1983-cü illərdə Şəki İpək İstehsalat Birliyinin klubunda müdir işləyərkən "İpəkçi" instrumental ansamblı ilə dəfələrlə Respublika əhəmiyyətli tədbirlərdə, Azərbaycan Televiziyasında çıxışlar etmişdir. 1996-2012-ci illərdə M.K.Hacıoğlu adına şəhər mədəniyyət evinin bədii rəhbəri işləmişdir. Nurəli Hacıyev dəfələrlə Respublikamızın bölgələrində həmçinin Gürcüstanda azərbaycanlıların yaşadıqları rayonlarda, Bakıda keçirilən Respublika tədbirlərində iştirak etmişdir. O respublikada nəfəs alətlərinin mahir ifaçılarından biridir.

Nurəli müəllim öz xidmətləri ilə Şəkinin ifaçılıq sənətinə də müsbət təsir göstərir.

MƏCNUN ƏLİYEV

Məcnun Rəcəbalı oğlu Əliyev 1958-ci il noyabrın 13-də Şəki şəhərində anadan olub. Hələ uşaq ikən evdə atası Rəcəbalının zurnanı, balabanı, tütəyi, klarneti ifa etdiyini görmüş və musiqiyə meyl etmişdir.

1967-1977-ci illərdə şəhər 20 saylı orta məktəbində təhsil aldığı dövrdə məktəbin bədii özfəaliyyət dərnəyində fəal iştirak etmişdir.

1977-1979-cu illərdə hərbi xidmətdə olarkən əskərlərdən ibarət estrada ansamblı təşkil edib. Hərbi xidməti başa vurduqdan sonra Məcnun Əliyev Şəkidə M.F.Axundov adına şəhər mərkəzi mədəniyyət evinin "Səbuhi" xalq çalğı alətləri ansamblının üzvü kimi zurna, balaban, tütək və klarnetdə muğamları, təsnifləri, xalq və bəstəkar mahnılarını yüksək səviyyədə ifa etmişdir.

O, Bakı şəhərində keçirilən respublika əhəmiyyətli tədbirlərdə, həmçinin Azərbaycan Televiziyasında dəfələrlə çıxışlar etmişdir. 1983-cü ilin may ayının 11-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında "Səbuhi" xalq çalğı alətləri ansamblının konserti təşkil olunmuşdur. Bu konsertdə uğurla çıxış edən Məcnunun sənətkarlığını Filarmoniyanın direktoru maestro Niyazi yüksək qiymətləndirmişdir.

1983-cü ilin noyabr ayında Məcnun Əliyev "Səbuhi" ansamblı ilə Rusiyanın Tümen Vilayətinin Koqalım şəhərində keçirilən bayram tədbirlərində fəal iştirak etmişdir.

O, uzun illər ərzində respublikamızın bir çox şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur. Eyni zamanda Gürcüstanda azərbaycanlıların yaşadıqları rayonlarda konsertlər vermişdir.

Onun sənətkarlığını görkəmli incəsənət xadimləri Tofiq Quliyev, Vasif Adıgözəlov, Şəfiqə Axundova, Emin Sabitoğlu, Cavanşir Quliyev, Kamil Vəzirov, Həbib Bayramov, Arif Babayev, Ağaxan Abdullayev də yüksək qiymətləndirmişlər.

Məcnun Əliyev 1998-ci ildən Şəki uşaq incəsənət məktəbində müəllim işləyir.

O, Şəkidə keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirak edir.

ZAKİR MƏMMƏDOV

Tanınmış el sənətkarı Zakir Əsədulla oğlu Məmmədov 1934-cü il yanvarın 30-da Şəki şəhərinin Böyük Dəhnə kəndində anadan olub. O, görkəmli el sənətkarı Həbibüllah Cəfərovdan zurna, balaban, tütək çalmağı öyrənmişdir. Sonralar Zeynal Qasımovdan və Musabala Emnalıyevdən əsl sənətkarlığın sirrlərini də mənimsəyir. 1950-ci ildən başlayaraq el şənliklərində, kütləvi bayram tədbirlərində fəal iştirak etmişdir. Zakir Məmmədov uzun illərdir ki, M.F.Axundov adına Şəki şəhər mərkəzi mədəniyyət evinin Şəkili Ələfsər adına zurnaçılar ansamblının ən fəal üzvlərindən biridir. O, dəfələrlə Azərbaycan Televiziyasında, İctimai Televiziyada, ANS-də, Şəkinin "S" kanal televiziyalarında, Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə, Beynəlxalq Novruz bayramı şənliklərində fəal iştirak etmişdir. Fitri istedada malik olan qocaman el sənətkarı bu gün gənclik həvəsilə zurnaçılar ansamblına aid olan bütün musiqi alətlərində (zurna, balaban, tütək, zilçi, kos, nağara) məharətlə ifa edir.

Zakir Məmmədov respublikanın bir çox şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur.

Onun təşkil etdiyi Məmmədovlar ansamblı dəfələrlə keçirilən Respublika ailə ansambllarının baxış-müsabiqəsinin qalibi olmuşdur. Ailə ansamblında böyük qızı Rəhimə, Gülyaz, Gülyanaq, Qinayət, Gültəkin, oğlanları Əsədullah, Elat, Elman, Fuad məharətlə çıxış ediblər. 10 övladı (6 qızı, 4 oğlu) var. 3 qızı A. Zeynallı adına Bakı Musiqi Kollecini bitirib. Sonralar respublikanın musiqi həyatında yaxından iştirak edən Gülyaz və Gülyanaq Məmmədovalar Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının muğam şöbəsini bitirmişlər. Onlar bir müddət R. Behbudov adına Mahnı Teatrında çalışmışlar. Respublikanın xalq artistləri Gülyaz və Gülyanaq Məmmədova bacıları sənətdə qazandıqları uğurlara görə bir ata kimi daim Zakir müəllimə miunnətdar olduqlarını ifadə edir və bu sənəti seçdikləri üçün ona həmişə borclu olduqlarını bildirirlər. Mahir folklor bilicisi Zakir Məmmədovun sənətkarlığı sayəsində qədim el havaları görkəmli musiqişünaslar Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Elmi işlər üzrə prorektoru, fəlsəfə elmlər

doktoru, professor Gülnaz Abdullazadə, professor Fəttah Xalıqzadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru Rauf Bəhmənli və elmlər doktoru Abbasqulu Nəcəfzadə tərəfindən lentə alınmışdır. Onun bu ifaları üzərində tədqiqat işləri aparılır.

Tanınmış el sənətkarı Zakir Məmmədovun 1994-cü ildə 60, 2004-cü ildə 70, 2014-cü ilin fevral ayında isə 80 illik yubileyləri S. Rəhman adına Şəki Dövlət Dram Teatrının səhnəsində yüksək səviyyədə qeyd olunmuşdur. Şəkinin ifaçılıq sənətində öz xidmətləri ilə seçilən qocaman el sənətkarı bütün bilik və bacarığını əsirgəmədən əsil sənət örnəyidir.

BAXŞƏLİ ABDURƏHMANOV

Baxşəli Yunis oğlu Abdurəhmanov 1955-ci il fevralın 10-da Şəki şəhərinin Oxud kəndində anadan olub.

1969-1974-cü illərdə şəhər 2 saylı uşaq musiqi məktəbinin klarnet sinfində görkəmli el sənətkarı Ələfsər Rəhimovdan dərs almışdır.

1974-1976-cı illərdə hərbi xidmətdə olarkən instrumental ansambl təşkil etmişdir.

Baxşəli Abdurəhmanov 1976-1991-ci illərdə Şəki ipək-istehsalat birliyində işlədiyi zaman buradakı klubun bədii özfəaliyyət dərnəyinin fəal üzvü olmuşdur.

1985-ci ildən 1988-ci ilədək məşhur el sənətkarı Əbülfət Məmmədrəhimovun təşkil etdiyi "Rəvan" instrumental ansamblında çalışmışdır. 1988-ci ildən isə həm "Zirvə" xalq çalğı alətləri ansamblının, həm də Şəkili Ələfsər adına zurnaçılar ansamblının üzvüdür. 1993-cü ilin noyabr ayında Ulu öndərimiz Heydər Əliyevin andiçmə mərasimində bədii hissəsində musiqiçi kimi çıxış etmişdir.

Baxşəli Abdurəhmanov dəfələrlə Bakıda keçirilən dövlət tədbirlərində, müxtəlif televiziya kanallarında çıxışlar etmişdir.

Ümumiyyətlə, Baxşəli müəllim unudulmaz ifaçı Ələfsərin layiqli davamçısı kimi həm bu sənəti yaşadır, həm də onu gənclərə öyrədir. Bu mənada oğlu Samir də sənətin sirrlərini atasından əxz edib. Bu hörmətli el sənətkarı Şəkinin ifaçılıq sənətinə öz töhfələrini verir.

İLHAM İBRAHİMXƏLİLOV

İlham Cəmaləddin oğlu İbrahimxəlilov 1957-ci il fevralın 7-də Şəki şəhərinin Aşağı Şabalıd kəndində anadan olub. 1971-1976-cı illərdə şəhər 2 saylı uşaq musiqi məktəbinin klarnet sinfində ustad el sənətkarı Ələfsər Şəkilidən dərs almışdır. O, eyni zaman məktəbin xalq çalğı alətləri orkestrində klarnet, zurna, balaban və tütəkdə çalmışdır.

1976-1978-ci illərdə hərbi xidmətdə olarkən estrada ansamblı təşkil etmişdir.

1980-1986-cı illərdə İnçə-Zurnud kənd klubunun müdiri vəzifəsində çalışdığı dövrdə, müntəzəm olaraq şəhər tədbirlərində fəal iştirak etmişdir.

1987-1991-ci illərdə Şəki Orta İxtisas Musiqi Məktəbində təhsilini davam etdirmişdir.

1991-ci ildən Aşağı Şabalıd kənd klubunun müdiri işləyir.

Uzun illərdir ki, M.F.Axundov adına şəhər mədəniyyət evində fəaliyyət göstərən Şəkili Ələfsər adına zurnaçılar ansamblının bədii rəhbəridir. Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə, Azərbaycan Televiziyasında dəfələrlə çıxışlar etmişdir.

İlham müəllim Şəkidə el sənətkarlığına aid olan zurna, balaban və tütəyin ifaçılıq xüsusiyyətlərini böyük məharətlə gənclərə öyrədir.

AKİF ƏBDÜRRƏHİMOV
1948-2014

Akif Fərrux oğlu Əbdürrəhimov 1948-ci il sentyabrın 8-də Şəki şəhərində anadan olmuşdur. Atası görkəmli el sənətkarı Fərrux Əbdürrəhimov milli musiqi alətlərinin məşhur ifaçısı idi. Akif böyük qardaşı Vaqifdən nağara çalmağı öyrənmişdir.

1964-cü ildə Akifin təşəbbüsü ilə "Gənclik" xalq çalğı alətləri ansamblı təşkil olunmuşdur. Akif 1970-ci ildə "Səbuhi" xalq çalğı alətləri ansamblının, 1977-ci ildə isə "Zirvə" vokal instrumental ansamblının üzvü olmuşdur. O, 1971-ci ildə Şəki toxuculuq texnikumunu bitirmişdir.

O, 1978-ci ilin iyul ayında "Zirvə" vokal-instrumental ansamblının tərkibində Moskvada, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Ümumittifaq Komsomolunun yaranmasının 60 illiyinə həsr olunmuş baxış-müsabiqədə iştirak etmişdir.

1979-cu ilin aprel ayında Bolqarıstanda keçirilən Beynəlxalq Folklor Festivalında SSRİ-ni təmsil edən kollektivin tərkibində Azərbaycan SSRİ-nin nümayəndəsi kimi iştirak etmiş, nağarada Azərbaycan rəqs ritmlərini ifa etmişdir.

O, dəfələrlə Moskvada keçirilən Dövlət Tədbirlərində Azərbaycan SSRİ incəsənət ustaları ilə bərabər çıxışlar etmişdir. Bakıda keçirilən Respublika tədbirlərində, Azərbaycan Televiziyasında da çıxışları olub.

Eyni zamanda 1970-1990-cı illərdə Akif müəllim «Səbuhi» və "Zirvə» ansamblları ilə birlikdə Respublikanın bir çox şəhər və rayonlarında, həmçinin Gürcüstanda azərbaycanlıların yaşadıqları rayonlarda qastrol səfərlərində olmuş, dəfələrlə konsertlərdə respublikamızın məşhur müğənnilərini nağarada müşayiət etmişdir.

O, Bolqarıstan Xalq Resublikası Mədəniyyət Nazirliyinin, SSRİ və Azərbaycan SSRİ Mədəniyyət Nazirliklərinin diplom, fəxri fərman və qiymətli hədiyyələri ilə mükafatlandırılmışdır. 1979-1982-ci illərdə keçirilən ailə ansamblarına baxış müsabiqədə Şəkinin Əbdürrəhimovlar ailə ansamblı Respublikada I yeri tutmuşdur. Ailə ansamblı 1980-cı ilin iyun ayında SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində nümunəvi çıxış etmişdir.

İstedadlı musiqiçi Akif Əbdürrəhmanov 14 mart 2014-cü ildə vəfat etmişdir.

MƏCİDOV AYAZ

Ayaz Abdulrəşid oğlu Məcidov 1959-cu il yanvarın 16-da Şəki şəhərində anadan olub. Xüsusi istedadı olan Ayaz tarın, sazın, qarmonun, nağaranın mahir ifaçılarından biridir. O, 1974-cü ildə şəhər 2 saylı uşaq musiqi məktəbinin nağara sinfini bitirmişdir. 1982-ci ildən F.Əbdürəhmanov adına Şəki şəhər uşaq incəsənət məktəbində nağara müəllimi işləyir. Hələ uşaq ikən atası görkəmli xanəndə Abdulrəşid Məcidovun təşkil etdiyi Məcidovlar ailə ansamblının fəal üzvü olmuşdur. 1980-cı ildən 1994-cü ilədək şəhər mərkəzi mədəniyyət evində fəaliyyət göstərən «Səbuhi» xalq çalğı alətləri ansamblının üzvü kimi dəfələrlə Azərbaycan Televiziyasında, Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir. Həmçinin Respublikanın şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur. Hazırda uşaq incəsənət məktəbinin xalq çalğı alətləri ansamblında nağara çalır.

Ayaz müəllim eyni zamanda Şəki şəhərində musiqi alətləri üzrə təmir emalatxanasına rəhbərlik edir. Milli musiqi alətlərinin yeni istehsalı, təmiri və bərpası ilə məşğul olur.

LÜTFƏLİ MƏMMƏDOV
1919-1994

Lütfəli Əliheydər oğlu Məmmədov 1919-cu il avqustun 14-də Şəki şəhərində anadan olmuşdur. Uşaq yaşlarından Şəkidə Şəmsəddin Abdullayev, İsmayıl Mustafayev, İsabala Məmmədov, Yunis Qarabağlı kimi məşhur xanəndələri eşitmiş və onların ifalarından təsirlənmişdir. Muğamata həvəsi sayəsində ustad xanəndə Yunis Qarabağlıdan dərs alır. Kütləvi bayram tədbirlərində, el şənliklərində oxumuşdur.

1941-ci ildə Böyük Vətən müharibəsində iştirak edir və döyüşlərdə yaralanır. 1945-ci ildə cəbhədən qayıtdıqdan sonra Şəki 1 saylı əyrici fabrikində iş fəaliyyətinə başlayır.

Uzun illər ipək kombinatının klubundakı bədii özfəaliyyət dərnəyinin üzvü olur. Sonralar fəaliyyətini Şəki şəhər mədəniyyət evində davam etdirir.

1964-cü ildə Respublikanın əməkdar artisti Məmmədkəbir Hacıoğlu həmin illərdə Xalq Teatrının rejissoru vəzifəsində işləyirdi. Xalq teatrında Ü.Hacıbəylinin «Əsli və Kərəm» operası tamaşaya qoyulur, Lütfəli Kərəm rolunda çıxış etmişdir.

O, zil səsə malik xanəndə olmuşdur. Şəkinin ən məşhur xanəndələrindən biri olan Lütfəli Məmmədov dəfələrlə Azərbaycan televiziyasında da çıxışlar etmişdir,

Lütfəli Məmmədov 25 mart 1994-cü ildə 75 yaşında vəfat etmişdir.

ABİT HÜMMƏTOV

Abit İbrahimxəlil oğlu Hümmətov 1932-ci il yanvarın 16-da Şəki şəhərinin Küdürlü kəndində anadan olmuşdur. Sonralar ailəliklə Şəki şəhərinə köçmüşlər. Uşaq ikən muğamata olan həvəsi onu Şəkinin görkəmli xanəndələrindən olan Yunis Qarabağlının yanına gətirir.

1954-1968-ci illərdə Abit Şəki ipək kombinatının bürücü sexində əmək fəaliyyətinə başlamışdır. Eyni zamanda həmin illərdə kombinatın klubunda bədii özfəaliyyət kollektivinin ən fəal üzvü olmuşdur. O, 1962-ci ildə Bakıda keçirilən Respublika gənclərinin III festivalında laureat adına layiq görülmüşdür. 1964-cü ildə Yüngül Sənaye İşçiləri bədii özfəaliyyət kollektivlərinin müsabiqəsində 1-ci yeri tutmuşdur.

Abit Hümmətov 1964-1968-ci illərdə Şəki Musiqi Texnikumunun xanəndəlik şöbəsində Davud Ələkbərovdan muğam dərsi almışdır. 1968-ci ildən 1993-cü ilədək "Səbuhi" xalq çalğı alətləri ansamblı ilə Respublikanın bir çox şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur.

1967-ci ildə Ümumittifaq Festivalının, 1977-ci ildə zəhmətkeşlərin Bədii Yaradıcılıq Festivalının laureatı olmuşdur. Həmin illərdə Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə və Azərbaycan Televiziyasında da çıxışlar etmişdir. O, 2000-ci ildən 2012-ci ilədək şəhər 4 saylı uşaq musiqi məktəbində muğam müəllimi işləmişdir.

Abit müəllim dəfələrlə Moskvada keçirilən SSRİ Xalq Təsərrüfatının Nailiyyətləri Sərgisində çıxış etmişdir. O, "Qatar", "Şahnaz", "Zabul-Segah", "Bayatı-Şiraz" muğamlarının, "Mənsuriyyə", "Heyratı", "Qarabağ şikəstəsi" kimi ritmik muğamların mahir ifaçılarından biridir. Şəkinin qocaman xanəndəsi olan Abit Hümmətov gənc xanəndələrə muğamlarımızın sirrlərini aşılayır. Biz "Şəkinin musiqi folkloru" mövzusunda tədqiqat işi ilə bağlı ekspedisiyada olarkən Abit müəllimlə görüşüb onun məlahətli səsini dinlədik.

NAZİM İLYASOV
1935-1999

Nazim Məhəmməd oğlu İlyasov 1935-ci il aprelin 10-da Şəki şəhərində anadan olmuşdur. Hələ uşaq ikən bədii özfəaliyyət kollektivinin fəal üzvünə çevrilir. 1953-1957-ci illərdə Şəki maşın-traktor stansiyasında traktorçu-maşinist işləmişdir. Həmin illərdə xanəndə Yunis Qarabağlıdan muğam ifaçılığını öyrənmişdir.

O, 1956-cı ildə Respublika Gənclərinin I festivalının və 1957-ci ildə II festivalının qalibi olmuşdur. Onun ifasında "Qadan alım" və "Nə halətdir" xalq mahnıları lentə alınmışdır. Görkəmli xanəndə Seyid Şuşinskinin təklifinə əsasən 1957-ci ildə A. Zeynallı adına Bakı Orta İxtisas musiqi məktəbinin xanəndəlik sinfinə daxil olmuşdur. Orada Zeynəb Xanlarova, Rəsmiyyə Sadıqova, Nəriman Əliyev, Qulu Əsgərov, Ramiz Hacıyevlə birlikdə Seyid Şuşinskidən dərs almışdır. 1961-ci ildə təhsilini başa vurub Şəkiyə qayıtmış və 1961-1965-ci illərdə şəhər klubunun müdiri vəzifəsində işləmişdir. Həmin illərdə Respublikanın bir çox rayonlarında, eləcə də Gürcüstanda azərbaycanlıların yaşadıqları rayonlarda qastrol səfərlərində olmuşdur.

1965-ci ildə onun təşəbbüsü ilə Şəki orta ixtisas musiqi məktəbinin vokal şöbəsində muğam sinfi açılır və Nazim İlyasov muğam müəllimi kimi fəaliyyətə başlayır. 30 il ərzində tələbələrinə muğam sənətinin sirrlərini öyrətmişdir. Tələbələrindən Abit Hümmətov, Ənvər Əbdülhəlimov, Əmir Rüstəmov, Vasif Abdullayev uzun illər həmin məktəbdə muğamdan dərs demişlər.

Nazim İlyasov dəfələrlə Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə, Azərbaycan Televiziyasında çıxışlar etmişdir. Onun tələbələri respublikanın müxtəlif bölgələrində çalışırlar.

Nazim İlyasov 17 iyul 1999-cu ildə vəfat etmişdir.

ƏMİR RÜSTƏMOV

Xanəndə Əmir Eyvaz oğlu Rüstəmov 1945-ci il oktyabrın 15-də Şəki şəhərinin Oravan kəndində anadan olub. Uşaq ikən kənd orta məktəbinin bədii özfəaliyyət kollektivinin fəal üzvünə çevrilib. 1964-cü ildə Şəkili Ələsgər adına Şəki orta ixtisas musiqi texnikumunun xanəndəlik şöbəsinə daxil olmuşdur. Xanəndəlik sinfinə daxil olaraq Davud Ələkbərovdan dərs almışdır. Hərbi xidmətini başa vurduqdan sonra təhsilini davam etdirmişdir. Bu illərdə muğam müəllimi Nazim İlyasov olmuşdur.

1971-ci ildə təyinatla Qax rayon uşaq musiqi məktəbində əmək fəaliyyətinə başlamışdır. 1974-cü ildə Şəki musiqi texnikumuna muğam müəllimi təyin olunmuşdur. Əmir Rüstəmov "Səbuhi" xalq çalğı alətləri ansamblının ən fəal üzvü kimi respublikanın bir çox şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur. Eyni zamanda Bakı şəhərində keçirilən Respublika əhəmiyyətli tədbirlərdə və Azərbaycan Televiziyasında da çıxışlar etmişdir. Muğam, təsnif, xalq və bəstəkar mahnılarının mahir ifaçısı olan Əmir Rüstəmov gənc xanəndələrin yetişməsində müstəsna rolu olan müəllimlərdən biridir.

RASİF ABDULLAYEV

Rasif Əhmədiyə oğlu Abdullayev 1948-ci il yanvarın 1-də Şəki şəhərinin Baş Küncüt kəndində anadan olub. 1959-1963-cü illərdə Şəki şəhərindəki 1 saylı internat məktəbində oxumuşdur. 1963-1966-cı illərdə Bakı şəhərindəki musiqi təmayüllü internat məktəbində təhsilini davam etdirmişdir. Həmin illərdə məktəbin bədii özfəaliyyət kollektivinin ən fəal üzvlərindən biri olmuşdur.

O, 1966-1969-cu illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında işləmişdir. Respublikanın məşhur xanəndələri ilə birlikdə şəhər və rayonlarda qastrol səfərlərində olmuşdur.

1969-cu ildə Şəkiyə qayıdıb musiqi texnikumuna daxil olaraq xanəndə Ənvər Əbdülhəlimovdan dərs almış, 1973-cü ildə təhsilini başa vurmuşdur.

1973-1976-cı illərdə Şəki rayonunun orta Zəyzid kəndində klub müdiri vəzifəsində işləmişdir.

1976-cı ildən 2012-ci ilədək Şəki musiqi texnikumunda muğam müəllimi işləmişdir. Gənc xanəndələrin yetişməsində xüsusi fədakarlıq göstərir.

NİZAMİ MƏMMƏDOV

Nizami Niyazi oğlu Məmmədov 1956-cı il martın 10-da Şəki şəhərində anadan olub. Şəhər 4 saylı orta məktəbdə oxuduğu illərdə mahnı ifaçılığına meyl göstərmiş, 1966-cı ildə 10 yaşında ikən şəhər pionerlər evinin mahnı dərnəyinin üzvü olmuşdur. Pioner və məktəblilərin Respublika Olimpiadasında uğurlu çıxışlar etmişdir.

1972-1974-cü illərdə 43 saylı Şəki Peşə-Texniki məktəbinin qaz qaynaqçısı şöbəsində sənət öyrənmişdir. Həmin illərdə Respublika peşə-texniki məktəblərinin bədii özfəaliyyət müsabiqəsində çıxış edərək, qaliblər sırasında olmuşdur. 1974-1976-cı illərdə həmin məktəbdə müəllim, 1980-1984-cü illərdə M.F.Axundov adına şəhər mərkəzi mədəniyyət evində işləmişdir. 1984-1988-ci illərdə Şəkili Ələsgər adına Şəki orta ixtisas musiqi texnikumunun xanəndəlik sinfini bitirmişdir. Müəllimi Nazim İlyasov olmuşdur.

Nizami Məmmədov 1992-ci ildən hal-hazıradək şəhər Mədəniyyət və Turizm şöbəsinin tabeliyində fəaliyyət göstərən klub müəssisələrində çalışır. O, 1980-cı ildən şəhər mərkəzi mədəniyyət evinin «Səbuhi» xalq çalğı alətləri ansamblının üzvüdür. Dəfələrlə Gürcüstan Respublikasının azərbaycanlıların yaşadıqları Qardabani, Marneuli, Dmanisi rayonlarında, həmçinin Respublikamızın əksər şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur. 1983-cü ilin may ayının 11-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən konsertdə çıxış etmişdir. Filarmoniyanın direktoru SSRİ xalq artisti maestro Niyazi xanəndə Nizami Məmmədovun çıxışını yüksək qiymətləndirmişdir. O, dəfələrlə Bakı şəhərində keçirilən tədbirlərdə, həmçinin Azərbaycan Televiziyasında uğurlu çıxışlar etmişdir.

Muğam, təsnif, xalq və bəstəkar mahnılarının mahir ifaçılarından olan xanəndə Nizami Məmmədov 1980-1996-cı illərdə Ümumittifaq Festivalının laureatı, «Zirvə» xalq instrumental ansamblının üzvü olmuşdur.

Gənc xanəndələrin muğam ifaçılığına yiyələnməsində Nizami Məmmədovun xüsusi xadmətləri var.

SEYMUR QASIMZADƏ

Seymur Allahyar oğlu Qasımzadə 1962-ci il fevralın 12-də Şəki şəhərində anadan olub. 1968-1975-ci illərdə 1 saylı uşaq musiqi məktəbinin fortepiano sinfində təhsil almışdır. 1979-1984-cü illərdə Azərbaycan Dövlət Universitetinin tətbiqi riyaziyyat fakultəsini bitirmişdir. Həmin illərdə universitetin estrada ansamblında müğənni kimi çıxış etmişdir. Ali məktəb tələbələrinin müsabiqəsində qalib olmuşdur. Azərbaycan Televiziyasında çıxışlar etmişdir. 1991-ci ildə Şəkiyə qayıtmışdır. Həmin ildən "Zirvə" xalq instrumental ansamblının fəal üzvüdür. 2010-cu ildə "Şəki" qrupu təşkil etmişdir. Dəfələrlə Bakıda Respublika əhəmiyyətli tədbirlərdə, həmçinin Respublikanın regionlarında qastrol səfərlərində olmuşdur. Azərbaycan estrada mahnıları ilə yanaşı xarici ölkələrin yəni ingilis, alman, italyan, rus, gürcü mahnılarının da mahir ifaçısıdır.

Seymur Qasımzadə öz ifaçılıq xüsusiyyətlərində müasir texnika ilə yanaşı milli qaynaqlara da istinad edir.

İSLAM AĞAMİYEV

Ağamiyev İslam Aslan oğlu 1951-ci ildə Şəkinin Şorsu kəndində anadan olub. O, ifaçılıq sənətini dayısı Şirinov Kamal Fərzulla oğlundan və Vəlullah Manafovdan öyrənmişdir. Biz "Şəkinin musiqi folkloru" mövzusu üzərində işləyərkən İslam müəllimlə görüşüb onun bir neçə ifalarını lentə yazıb və onları nota salmışıq. Bu monoqrafiyada həmin not yazılarını təqdim edirik.

ÇOBAN QAYADA QALMA

İfaçı: İslam Ağamiyev
Not yazısı: Səadət Təhmirazqızı





ŞƏHNUR BƏY

İfaçı: İslam Ağamiyev
Not yazısı: Səadət Təhmirazqızı

Allegro



BAL DAĞISTAN

İfaçı: İslam Ağamiyev
Not yazısı: Səadət Təhmirazqızı

Moderato





HƏZRƏT MUSAYEV

Musayev Həzrət Mustafa oğlu 1948-ci ildə Şəkinin Şin kəndində anadan olub. O, zurna və sümsü alətlərinin mahir ifaçısıdır. Bu sənəti İslam Ağamiyevdən öyrənib. Həzrət Musayevin ifasından bir neçə musiqi nümunələrini nota salmışıq. Həmin not yazılarını təqdim olunan monoqrafiyaya daxil edirik.

ŞİN RƏQSİ

İfaçı: Həzrət Musayev
Not yazısı: Səadət Təhmirazqızı



ŞƏKI RƏQSİ

İfaçı: Həzrət Musayev
Not yazısı: Səadət Təhmirazqızı





"Yox-yox" rəqsi

İfaçı: Həzrət Musayev
Not yazısı: Səadət Təhmirazqızı

Andante



BAYATI

İfaçı: Həzrət Musayev
Not yazısı: Səadət Təhmirazqızı

Allegro



Ləzgi bayatısı "Lilay"

MARAL XANIM

İfaçı: Həzrət Musayev
Not yazısı: Səadət Təhmirazqızı

Allegro

Da - ğıs - tan dağ - lı gə - lər, li- lay, li- lay. Yar qə - ləm

qaş - lı gə - lər, Ma- ral xa - nım. Ney - lə - rəm qo - ca ya - rı, li- lay,

li- lay, Yar on beş yaş - lı qə - lər. Ma- ral xa - nım.

ŞAHZADƏ

İfaçı: Həzrət Musayev
Not yazısı: Səadət Təhmirazqızı

Allegro

ARZUM GƏLSİN

İfaçı: Həzrət Musayev
Not yazısı: Səadət Təhmirazqızı

Presto



"ŞƏNLİK" RƏQSİ

İfaçı: Həzrət Musayev
Not yazısı: Səadət Təhmirazqızı

Presto





"İGİDLƏR" RƏQSİ

İfaçı: Həzrət Musayev
Not yazısı: Səadət Təhmirazqızı

Presto





İSGƏNDƏRİ

İfaçı: Həzrət Musayev
Not yazısı: Səadət Təhmirazqızı



İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Abdullayeva M. Azərbaycan folklorunun regional xüsusiyyətləri (Şəki-Zaqatala folklor nümunələri əsasında) - dissertasiya. B., 2002.
2. Azərbaycan folkloru antologiyası VI cild - Şəki folkloru - II cild. B., 2002.
3. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək) I cild - ali məktəblər üçün dərslik - Z.M.Bünyadovun və Y.B.Yusifovun red. ilə. B., 1994.
4. Azərbaycan tarixi I cild - B., 1998.5.
5. Bakıxanov A. Gülüstani-İrəm. B., 1951.
6. Əsgərzadə N. «Şəki-Zaqatala bölgəsində ekspedisiya işlərinin təşkili və perspektiv istiqamətləri» - Azərbaycan folkloru - toplama, nəşr, tədqiq problemləri. 19-22 oktyabr 1993-cü ildə Şəkidə keçirilmiş Respublika folklor müşavirəsinin materialları. B., 1994.
7. Əyyubov Ə. Şəkinin iqlimi. B., 1988.
8. Rzayev N. Şəki və Nuxanın mənşəyi haqqında. - Azərbaycan SSR EA - Məruzələr. Cild XXIX - №3.- 1973.
9. Şəki xanlığının tarixindən - Kərim ağa Fateh «Şəki xanlarının müxtəsər tarixi». Hacı Seyid Əbdülhəmid «Şəki xanları və onların nəsilləri». B., 1958.
10. Şuşinski F. "Azərbaycan xalq musiqiçiləri" B., 1985
11. Səadət Təhmirazqızı. Sənətin Əiövsət zirvəsi. B.,2006.
12. Muğam ensiklopediyası. B.,2007.

MÜNDƏRİCAT

ÖN SÖZ....3
FƏRRUX ABDURRƏHMANOV 1920....21
MƏMMƏD NƏSRULLAYEV *1927-1968*....26
RƏCƏBALI ƏLİYEV 1897-1983....27
NURƏDDİN BƏDƏLOV 1914-1985....60
ŞAHİD ƏBDÜLKƏRİMOV 1938-2003....67
YUNİS MƏMMƏDOV (QARABAĞLI) 1909-1985....73
ƏHMƏDBƏY TAHİROV 1872-1958....81
NÜSRƏT MİKAYILOV 1933....82
İBAD SALMANOV 1904-1989....83
HƏBİBULLAH CƏFƏROV 1902-1985....86
MUSTAFAYEV ŞAMİL....89
FƏRRUX MƏCİDOV 1926-1993....97
MƏMMƏD NƏSRULLAYEV 1927-1968....99
MƏHƏRRƏM İSMAYILOV 1910-1985....100
ABDURRƏŞİD MƏCİDOV 1931-1998....102
AĞASƏF MUSAYEV 1932-2006....105
İSMAYIL ALLAHVERDIYEV (USTAD AŞIQ) 1929-2015....110
ƏLƏFSƏR RƏHİMOV (ŞƏKİLİ) 1930-1984....112
ELDƏNİZ MƏMMƏDOV....143
RÖVŞƏN KƏRİMOV....144
ƏLƏDDİN RƏSULOV....150
AYDIN YƏHYAYEV....153
ƏYYUB MƏMMƏDOV 1967-2012....154

FAİQ MƏMMƏDOV 166
NEMƏT MƏMMƏDOV. 171
MAQSUD ŞİRİNZADƏ. 173
AYDIN CƏBRAYILOV. 174
İSMAYIL ƏLİYEV..... 175
SEYRAN ZÜLFÜQAROV 177
YAŞAR BABAYEV 178
ETİBAR ABBASOV..... 179
ADİL ƏLİYEV 180
MƏMMƏDRƏSULİ BƏKİROV. 181
NURƏDDİN HƏMİDOV. 182
RÜSTƏM XƏLİLMƏMMƏDOV..... 183
VAQİF RƏHİMOV. 184
RAMİZ SADIQOV 1944-1992. 185
ZAKİR MUSTAFAYEV 186
TAHIR LƏTİFOV..... 188
TALEH YUSUBOV..... 189
NURƏLİ HACIYEV 190
ƏLİYEV MƏCNUN..... 191
MƏMMƏDOV ZAKİR. 192
ABDURƏHMANOV BAXŞƏLİ. 194
İBRAHİMXƏLİLOV İLHAM. 195
ƏBDÜRRƏHİMOV AKİF 1948-2014. 196
MƏCİDOV AYAZ. 197

107155

MƏMMƏDOV LÜTFƏLİ 1919-1994. 198
HÜMMƏTOV ABİD 199
İLYASOV NAZİM 1935-1999. 200
RÜSTƏMOV ƏMİR..... 201
ABDULLAYEV RASİF..... 202
MƏMMƏDOV NİZAMİ 203
QASIMZADƏ SEYMUR..... 204
İSLAM AĞAMİYEV 205
HƏZRƏT MUSAYEV 210
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI. 220

Nərgiz NƏŞRİYYATI

Baş direktor: Hidayət Musabəyli

Korrektor: *Yasəmən İsmayılova*
Dizayn: *Ülviyyə Quliyeva*
Texniki redaktor: *Sitarə Musayeva*

Çapa imzalanmışdır: 21.05.2016
Kağız formatı: 70x100 1/16
Həcmi: 34 çap vərəqi
Tiraj: 300 nüsxə; Sifariş: 1073

Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyi tərəfindən 1998-ci ildə qeydə alınmışdır.
Şəhadətnamə № 45.
Ünvan:8-ci km qəsəbəsi, R.Rüstəmov küç.36
Nəşriyyatla əlaqə telefonları:
012-323-69-53
050-738-37-22

nesriyyat.nergiz@mail.ru

Az 2016/820

Şirinova Səadət Təhmirazqızı S.Hacıbəyov adına Sumqayıt şəhər orta ixtisas musiqi texnikumunun "nəzəriyyə" şöbəsini, Ü.Hacıbəyli adına BMA-nın "Musiqi tarixi və nəzəriyyəsi" fakultəsini bakalavr və magistr pillələrini də Fərqlənmə diplomları ilə bitirib. Onun bir musiqişünas kimi milli və professional musiqimizin təbliğində, tədqiqində xüsusi rolu vardır. Tez-tez dövri mətbuatda məqalələri nəşr olunur, radio və televiziyada çıxışlar edir. Azərbaycan radiosunun fondunda onun 300-dən çox verilişi qorunub saxlanılır. Azərbaycan Telefilm yaradıcılıq birliyində Səadət xanımın ssenarisi əsasında "Musiqi aləmində", "Əliövsət Sadıqov", "Seyid Şuşinski", "Xan Şuşinski", "Fikrət Əmirov", "Tofiq Əhmədov", "Cövdət Hacıyev", "Süleyman Ələsgərov", "Asəf Zeynallı", "Zakir Bağırov" sənədli televiziya filmləri çəkilib.

O, "Süleyman Ələsgərov xatirələrdə", "Nəğmədir həyat – Şəfiqə Axundova", "Sənətin Əliövsət zirvəsi", "Sənətə bağlı ömür", "Bizim ustad" kitablarının müəllifidir.

Səadət Təhmirazqızı Azərbaycan Bəstəkarlar İttifaqının, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm", "Məhsəti Gəncəvi" və "Gənclər" mükafatlarının laureatı, sənətşünaslıq üzrə fəlsəfə doktorudur.